www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 4 iyun 2015-ci il Çümə axşamı № 120 (6148) Qiymәti 40 qәpik

**Xəbər**

**Respublika Gigiyena Mərkəzinin rəhbərinin həbsi xəbəri yayıldı**

yazısı səh.2-də

**Gündəm**

**Müsavat Partiyası "saxta mühacirlərə" dava açdı və şok ittiham aldı...**

Elnur Mirzəyev: "Partiyadan sənəd almaq üçün 1800 manat pul vermişəm"; Gülağa Aslanlı: "Yalan deyir, məhkəməyə versin, mən heç kimin 700 manatına qalan kişi deyiləm"

yazısı səh.5-də

**Sabiq deputat Beynəlxalq Bankdan 2 milyarda yaxın pulu necə götürüb...**

yazısı səh.3-də

**Ekspertlər cəmiyyətdə sosial gərginliyin artacağını deyir**

yazısı səh.4-də

*Pənah Hüseyn:*

**"4 iyun qiyamı ağır nəticələri olan milli faciə idi"**

yazısı səh.7-də

**Qanun xaricə qaçan iş adamlarının ekstradisiyasını təmin edir, ancaq...**

yazısı səh.3-də

*Ərəstun Oruclu:*

**"Vaşinqton Bakıya qarşı "yumşaq güc" taktikasından istifadə edir"**

yazısı səh.9-da

**ABŞ səfiri Obamanın niyə məktub göndərmədiyindən danışmadı**

yazısı səh.10-da

**Qarabağ döyüşçülərinin erməni idmançılarla bağlı mövqeyi rezonans doğurdu**

yazısı səh.11-də

**Avropadakı diplomatımızın facebook statusu aranı qatdı**

yazısı səh.10-da

**"Gəncəbank"da baş verən daha bir fırıldağın təfərrüatları**

yazısı səh.14-də

**Bir qrup yazar "Əli və Nino"nu boykot etdi**

yazısı səh.15-də

## Beynəlxalq Bankın Dubay gizlinləri

# "AVROPA OYUNLARINDAN SONRA İQTİDARDA HƏBSLƏR OLACAQ" - ŞOK İDDİA

Tutulan oliqarxlar və onların hamiləri Cahangir Hacıyevin həbsini istəyirlər; Beynəlxalq Bankın sabiq rəhbəri ilə bağlı iqtidarın qərarsızlığı bütün əmlakını satışa qoyan biznesmenlərin narazılığına səbəb olub; sabiq bankirin Tiflis aeroportunda dəyəri bir neçə milyon olan təyyarəsi və Dubaydakı zavod-fabriki niyə toxunulmaz saxlanılır?



yazısı səh.4-də

# İrandan işğalçı Ermənistanı üzəcək şok qaz anonsu

Tehran öz mavi yanacağının təcavüzkar ölkədən yan keçməklə Avropaya çatdırılması variantına meyllənir; İran TANAP və TAP-a qoşula bilər; Ramazani: "Ən yaxşı marşrut Türkiyədir..."

yazısı səh.9-da



*Əkrəm Həsənov:*

**"Problemli kreditlərin həcmi dəhşətli səviyyəyə çatacaq"**

yazısı səh.6-da



**Elmar Vəliyev Rəsulzadənin büstü ilə bağlı danışdı**

yazısı səh.7-də



*Zahid Oruc:*

**"Nazirliklərin səlahiyyətlərinə yenidən baxılacaq, medianın rolu artırılacaq"**

yazısı səh.8-də

# 4 iyun 2015



## İlham Əliyev Aleksis Şahtaxtinskini qəbul etdi

**Azərbaycan Respublikasının prezidenti İlham Əliyev iyunun 3-də ATƏT-in Bakıdakı layihə əlaqələndiricisi Aleksis Şahtaxtinskini diplomatik fəaliyyətinin başa çatması ilə əlaqədar qəbul edib. Dövlətimizin başçısı Aleksis Şahtaxtinskinin Azərbaycan-ATƏT əməkdaşlığının inkişafına verdiyi töhfəni yüksək qiymətləndirib, ötən dövr ərzində həyata keçirilən layihələrin yaxşı nəticələr verdiyini vurğulayaraq ona gələcək fəaliyyətində uğurlar arzulayıb.**

ATƏT-in Bakıdakı layihə əlaqələndiricisi Aleksis Şahtaxtinski fəaliyyəti dövründə təmsil etdiyi qurumla Azərbaycan arasında əməkdaşlığın inkişafı və eləcə də ölkəmizin rifahı naminə səylərini əsirgəmədiyini vurğulayıb.

## İlham Əliyev XİN-i "üsyançı"lardan təmizləməyə başladı

**Haqqin.az və virtualaz.org saytlarında Azərbaycanın Xarici İşlər Nazirliyində bir sıra əməkdaşların İlham Əliyev hakimiyyətinə qarşı az qala üsyana çağıran çıxışlarına dair araşdırmasından sonra bu sistemdə təcili qaydada təmizləmələr başlayıb.**

Virtualaz.org saytına məlumatlı mənbələrdən daxil olan informasiyaya görə, artıq anti-hakimiyyət çıxışlarına görə iki səfirin geri çağırılması proseduru başlayıb.

XİN Azərbaycanın Avropa İttifaqındakı keçmiş səfiri, hazırda ölkəni İslam Konfransı Təşkilatında (İKT) təmsil edən, 1993-cü ildən XİN sistemində işləyən, Bakıdakı bina yanğınına görə sosial şəbəkələrdə açıq şəkildə xalqı bu hakimiyyətə qarşı səbr nümayiş etdirməməyə çağıran səfir Arif Məmmədovun geri çağırılacağı barədə İKT-yə məlumat verib.

Tezliklə onun səfir vəzifəsindən azad olunacağına dair fərmanın imzalanacağı gözlənilir.

Bundan əvvəl isə prezident üsyankarlardan birinin - XİN əməkdaşı Anar Mədətlinin (o, səfir Arif Məmmədovun xalqı hakimiyyətə qarşı etiraza çağırmış facebook statusunu like edənlərdən biridir) atası, Azərbaycanın Ukraynadakı səfiri və GUAM yanındakı daimi nümayəndəsi Eynulla Mədətlinin vəzifəsindən azad edilməsinə dair fərman verib.

Xatırladaq ki, onun oğlu Anar Mədətli Azərbaycanın Belçikadakı səfirliyinin əməkdaşıdır.

XİN-dəki gizli antiəliyevçilər arasında Belçikadakı səfirliyin daha iki əməkdaşı yer alır. Bunlar Fərəh Gözəlova və Ramiz Vəliyevdir.

Saytın məlumatına görə, XİN rəhbərliyinin göstərişi ilə gizli antiəliyevçi hərəkatın bütün üzvləri, o cümlədən XİN-in mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyevin barəsində xidməti təhqiqat başlayıb. Cinayət işlərinin qaldırılması da gözlənilir.

## Azərbaycanda dərmanlara vahid qiymət qoyuldu

**Baş nazir Artur Rasizadə dünən Azərbaycanda dərman preparatlarına vahid qiymət tətbiqini nəzərdə tutan sərəncam imzalayıb. Bu məlumatı virtualaz.org saytına Nazirlər Kabinetindən veriblər.**

Qeyd edək ki, bundan əvvəl Səhiyyə Nazirliyi ilə İqtisadi İnkişaf və Sənaye Nazirliyi Azərbaycanda dərman preparatlarının vahid qiymət tarifi ilə satışına dair təkliflər işləyərək onu Nazirlər Kabinetinə təqdim etmişdi. Təkliflər işlənib hazırlanarkən dünya təcrübəsinə istinad olunmuşdu.

Bu sərəncam qüvvəyə minəndən sonra dərmanlar Azərbaycanın bütün apteklərində vahid qiymətə satılacaq. Dərman qutularının üzərində onların qiyməti göstəriləcək. Bu yeniliyin tətbiqi zamanı Türkiyənin, Avropa ölkələrinin və bir çox başqa ölkələrin təcrübəsi əsas götürülüb.

"Elm" tədris mərkəzi
MAGIC LANGUAGES
➔ Ali məktəblər xarici dillər
➔ kompyuter kursları
➔ Magistratura - dövlət qulluğu - məntiq
➔ 1.C. mühasibat - anbar - bank işi
➔ Məktəbə qədər həftədə 5 dəfə
➔ Sürücülük kursları (1 aya 100 AZN)
Ünvan: 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
Ünvan: 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05

# Respublika Gigiyena Mərkəzinin rəhbərinin həbsi xəbəri yayıldı

**Respublika Gigiyena və Epidemiologiya Mərkəzinin (RGEM) direktoru Akif Əlibəyov dünən səhər saatlarında Azərbaycan Respublikası Baş Prokurorluğunun Ağır Cinayətlərə Dair İşlər üzrə İstintaq İdarəsinə aparılıb. Bu barədə azpolitika.info-ya mötəbər mənbələrdən məlumat daxil olub.**



Akif Əlibəyovla birlikdə mərkəzin rəhbərliyinə daxil olan bir neçə şəxs və laboratoriya müdiri də saxlanılıblar.

Sayta verilən məlumata görə, iş günü sona çatsa da, Akif Əlibəyov və onunla birlikdə saxlanılanlar prokurorluqdan çıxmayıblar.

Xatırladaq ki, Respublika Gigiyena və Epidemiologiya Mərkəzində prokurorluğun yoxlamaları Binəqədidə 16 mərtəbəli yaşayış binasında yanğından az sonra - mayın 21-də başlamışdı. Respublika Gigiyena və Epidemiologiya Mərkəzinin 2012-ci ildə 15 nəfərin ölümü ilə nəticələnən faciəyə səbəb olmuş poliuretan üzlüklərə keyfiyyət sertifikatı verdiyi məlum olub.

Yanğınla bağlı başlanan cinayət işi çərçivəsində həbslərin Respublika Gigiyena və Epidemiologiya Mərkəzini də əhatə edəcəyi istisna olunmurdu.



## Müsavatla BŞİH-in məhkəmə çəkişməsi iyunun 18-də olacaq

**1 saylı Bakı İnzibati-İqtisadi Məhkəməsində Müsavat Partiyasının Bakı Şəhər İcra Hakimiyyəti (BŞİH) ilə bağlı etdiyi şikayətə baxılacaq. Müsavat Partiyasından verilən xəbərə görə, şikayətlə əlaqədar iyunun 18-də məhkəmənin hazırlıq iclası keçiriləcək.**

Müsavat Partiyasının Divanı bu məhkəmə prosesinin diqqətdə saxlanmasını müvafiq partiya strukturlarına tapşırıb.

Xatırladaq ki, BŞİH Müsavat Partiyasının aprelin 19-na planlaşdırdığı yürüşün keçirilməsinə razılıq verməyib. İcra hakimiyyəti partiyaya aprelin 19-da saat 15.00-dan 17.00-dək Yasamal rayon İdman-Sağlamlıq Kompleksinin stadionunda (keçmiş "Məhsul") mitinq keçirməyi təklif edib. Müsavat rəhbərliyi isə bununla razılaşmayıb və sərbəst toplaşmaq azadlığı Haqqında Qanunun pozulduğunu əsas göstərərək məhkəməyə şikayət edib.

❑ **E.SEYİDAĞA**

Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!
Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!
Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.
Telefon: (012) 434 93 01, 434 01 33

## MTN-ə yeni səlahiyyət verildi

**Nazirlər Kabineti "İxrac nəzarətinə düşən malların nomenklaturuna uyğun, habelə işlərin, xidmətlərin, əqli fəaliyyətin nəticələrinin qanunvericiliklə müəyyən edilmiş siyahısındakı malların (işlərin, xidmətlərin, əqli fəaliyyətin nəticələrinin) kateqoriyaları və bölmələri üzrə xüsusi icazə verən, ixrac nəzarətini, xüsusi icazə verilməsindən əvvəl və sonra yoxlamaları, ikili təyinatlı malların sifariş edilmiş məqsədlər üçün istifadə olunmasına nəzarəti həyata keçirən icra hakimiyyəti orqanlarının Siyahısı"na dəyişiklik edib.**

APA-nın məlumatına görə, dəyişiklik Milli Təhlükəsizlik Nazirliyinin (MTN) səlahiyyətinin artırılması ilə bağlıdır.

Nazirlər Kabineti aidiyyəti dövlət orqanlarının rəyləri əsasında hərbi təyinatlı uçuş aparatları, pilotsuz uçuş aparatları, raketlər, onların mühərrikləri, avadanlıqları və yardımçı avadanlıqları, hərbi təyinatı üçün xüsusi düzəldilmiş komponentlərin ixracı, idxalı, təkrar ixracı, təkrar idxalı, tranziti üzrə xüsusi icazə verən orqandır.

İndiyə qədər bu sahədə ixrac nəzarətini, xüsusi icazə verilməsindən əvvəl və sonra yoxlamaları, ikili təyinatlı malların sifariş edilmiş məqsədlər üçün istifadə olunmasına nəzarəti Müdafiə Nazirliyi, Müdafiə Sənayesi Nazirliyi (aidiyyəti üzrə), Dövlət Sərhəd Xidməti, Xüsusi Dövlət Mühafizə Xidməti həyata keçirib.

Bundan sonra bu sahədə ixrac nəzarətini, xüsusi icazə verilməsindən əvvəl və sonra yoxlamaları, ikili təyinatlı malların sifariş edilmiş məqsədlər üçün istifadə olunmasına nəzarəti Milli Təhlükəsizlik Nazirliyi də həyata keçirəcək.

## ATƏT sədrinin müxalifətlə görüşməməsi etiraz yaradıb

### AMİP qurumun baş ofisinə yazılı etiraz göndərdi

**Azərbaycana səfər edən ATƏT-in fəaliyyətdə olan sədri, Serbiyanın baş nazirinin müavini, xarici işlər naziri İvitsa Daçiçin yalnız parlamentdə təmsil olunan siyasi partiyaların sədrləri ilə görüşüb parlamentdə təmsil olunmayan tanınmış müxalifət partiyaları ilə görüşməməsi etirazla qarşılanıb. AMİP sədri Yusif Bağırzadə narazılığını daha sərt şəkildə "Yeni Müsavat" vasitəsilə ortaya qoyub.**

O bəyan edib ki, İvitsa Daçiç Azərbaycan səfərində ATƏT-in sədri kimi yox, Serbiyanın baş nazirinin müavini, xarici işlər naziri kimi davranıb: "Cənab Daçiç Bakıya ATƏT sədri olaraq səfər etsə də daha çox öz ölkəsinin maraqlarını güdən addımlar atdığı aydın görünürdü. Biz təəssüf edirik ki, ATƏT sədri kimi mühüm missiyanı üzərinə götürən bu şəxs Azərbaycanda öz müstəqilliyini qoruya bilmədi və hakimiyyətə xoş gəlsin deyə yalnız parlamentdəki partiyalarla görüş keçirdi. Onun Azərbaycanın ictimai-siyasi həyatında 20 ildən artıqdır aktiv fəaliyyət göstərən, ictimai rəyə təsir göstərə bilən, beynəlxalq təşkilatlar tərəfindən qəbul olunan, bir sıra beynəlxalq təşkilatların üzvü olan tanınmış müxalifət partiyaları ilə görüşdən çəkinməsi qətiyyən ATƏT sədri olaraq missiyasına uyğun deyil. Biz hesab edirik ki, onun Azərbaycan səfərində nümayiş etdirdiyi mövqe ATƏT-in mövqeyi deyil, Serbiya hökumətinin mövqeyidir. İvitsa Daçiç təmsil etdiyi dövlətin hökumətinin maraqları ilə hərəkət edib və nəticə etibarilə ATƏT kimi beynəlxalq təşkilatın fəaliyyətinə kölgə salıb. Serbiya dövlətinin necə bir dövlət olduğu, digər ölkələrdə demokratiya məsələlərinə önəm vermədiyi, qondarma "erməni soyqırımı"nı isə tanıdığı hər kəsə məlumdur. Odur ki, həmin dövlətin nazirindən də yaxşı nəsə gözləməyə dəyməzdi".

**Y.Bağırzadə onu da dedi ki, bu gün AMİP İvitsa Daçiçin Azərbaycan səfəri ilə bağlı etiraz xarakterli rəsmi mövqeyini yazılı şəkildə ATƏT-ə göndərəcək:** "Biz sənədi hazırlamışıq və ATƏT-in baş ofisinə göndərəcəyik. İradlarımız orada əksini tapıb. Bəyan etmişik ki, İvitsa Daçiçin hərəkəti ATƏT-in maraqlarına, demokratiyaya xidmət etmir. Serbiya kimi dövlətlərin təmsilçilərinin ATƏT kimi quruma sədrlik etməsi ATƏT-ə etimadsızlıq yaradır. Düzdür, sədrlik rotasiya qaydası ilə ölkələrə keçir, amma bu məsələnin başqa bir optimal yolunu tapmaq olar ki, Serbiya tipli ölkələr ATƏT-ə sədrlik etməsinlər".

❑ **Etibar SEYİDAĞA**

## Qaradağda Sənaye Parkı yaradılır

**Azərbaycan prezidenti İlham Əliyev Qaradağ Sənaye Parkının yaradılması haqqında sərəncam imzalayıb. "APA-Economics"in məlumatına görə, müəyyən edilib ki, Bakı şəhərinin Qaradağ rayonu ərazisində Qaradağ Sənaye Parkı sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi üçün zəruri infrastrukturu və idarəetmə qurumları olan, müasir texnologiyaların tətbiqi ilə rəqabətqabiliyyətli gəmiqayırma və digər sənaye istehsalı sahələrinin təşkili, xidmətlər göstərilməsi üçün istifadə edilən, sahibkarların səmərəli fəaliyyətinə və inkişafına əlverişli şərait yaradan ərazidir.**

Qaradağ Sənaye Parkının fəaliyyətinin təşkili, idarə olunması və inkişafı ilə bağlı tədbirləri "Sumqayıt Kimya Sənaye Parkının yaradılması haqqında" Azərbaycan prezidentinin fərmanı ilə İqtisadiyyat və Sənaye Nazirliyinin tabeliyində yaradılmış "Sumqayıt Kimya Sənaye Parkı" Məhdud Məsuliyyətli Cəmiyyəti (bundan sonra - Cəmiyyət) tərəfindən həyata keçirilir.

Nazirlər Kabinetinə, İqtisadiyyat və Sənaye Nazirliyinə sərəncamdan irəli gələn məsələləri həll etmək tapşırılıb.

## ABŞ səfiri "Bakı-2015"dən danışdı: "Azərbaycan əla hazırlaşıb"

**"Azərbaycan ev sahibliyi edəcəyi ilk Avropa Oyunlarına çox yaxşı hazırlaşıb. Bakıda aparılan tikinti quruculuq işləri buna əyani sübutdur". ANS TV-nin məlumatına görə, bunu jurnalistlərə açıqlamasında Amerika Birləşmiş Ştatlarının Azərbaycandakı səfiri Robert Sekuta deyib.**

Onun sözlərinə görə, hər kəs şəhərdə Avropa Oyunları üçün genişmiqyaslı abadlıq quruculuq işləri aparıldığını görür. "Biz ölkə olaraq idmana çox böyük önəm veririk. Ona görə də Azərbaycan oyunçuları da olmaqla, bu idman yarışında iştirak edəcək hər kəsə uğurlar arzulayıram".

## Asim Mollazadə AŞ PA-dakı seçki müzakirələrinə qatılacaq

**Demokratik İslahatlar Partiyasının sədri Asim Mollazadə "Azad seçki hüququnun həyata keçirilməsi: seçki qanunvericiliyinin tətbiqində çağırışlar və Avropa Şurası standartlarına əməl edilməsi" mövzusunda keçiriləcək parlament konfransında iştirak etmək üçün Parisə gedib. Avropa Şurası Parlament Assambleyasının (AŞ PA) təşkilatçılığı ilə keçiriləcək konfransda seçki kampaniyaları və inzibati resurslardan istifadə, seçki siyahılarında qeyri-dəqiqliklər və xaricdə yaşayan vətəndaşların səsvermədə çətinliklər, seçki komissiyalarının fəaliyyəti və digər mövzularda fikir mübadiləsi aparılacaq.**

❑ **Vüqar MURAD**



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

**Xəbər verdiyimiz kimi, hökumət orqanları banklara külli miqdarda kredit borcları olan iş adamlarını məsuliyyətə cəlb edir. Ötən ay ərzində çoxlu sayda yüksək məbləğdə krediti olan iş adamları istintaqa cəlb olunub.**

# Qanun xaricə qaçan iş adamlarının ekstradisiyasını təmin edir, ancaq...

## Müzəffər Baxışov: "Oliqarxlar haqda beynəlxalq axtarış verilsə də, normal dövlətlər onları Azərbaycana verməyəcəklər"

İki gün öncə APA Beynəlxalq Bankdan götürdükləri külli miqdarda kredit borcunu ödəmədikləri üçün saxlanılmış iş adamlarından 43 nəfərinin sərbəst buraxılması ilə bağlı xəbər yaydı. Ancaq eyni zamanda mətbuatda bir neçə yüksək məbləğdə vergi borcu olan iş adamının ölkəni tərk edərək xaricə qaçması haqda da xəbərlər yer aldı. Onlardan biri də sabiq deputat Dünyamin Xəlilovdur.

Ümumiyyətlə, son illərdə Azərbaycan hökuməti vergidən yayınma, iqtisadi cinayətkarlıqda ittiham olunan xeyli sayda iş adamlarını beynəlxalq axtarışa verib. Əcəba, yerli qanunvericilik və beynəlxalq təcrübə qaçaq iş adamlarının ekstradisiyasına imkan verirmi?

**Hüquqşünas Müzəffər Baxışov** deyir ki, xarici ölkələrdə olan və cinayətdə ittiham olunan ölkə vətəndaşlarının ekstradisiyası ilə bağlı qanunlarda boşluq yoxdur. Ancaq praktiki olaraq bu qanunların işləməsi üçün bir sıra lazımi şərtlər yerində olmadığı üçün indiki şəraitdə axtarışda olan şəxslərin, xüsusən də iş adamlarının ekstradisiyası çətin baş verə bilər: "Yeni qanunla şəxs cinayət törədibsə, əsasən İnterpol xətti ilə beynəlxalq axtarışa verilir və yaxud əgər Azərbaycanın bir sıra dövlətlərlə "Qarşılıqlı hüquqi yardım haqqında" müqaviləsi varsa, həmin müqaviləyə əsasən Azərbaycan vətəndaşları barəsində kifayət qədər sübutlara əsaslanan ittihamlar verilibsə, dövlətlər onları ekstradisiya edirlər. Ancaq indi Azərbaycan hakimiyyətinin beynəlxalq imici həddindən artıq mənfidir. Xüsusilə də cinayət törədən şəxslərə ittiham verilməsi ilə bağlı dünyada çox mənfi imicə malikdir. Bu nöqteyi-nəzərdən mən düşünmürəm ki, bu ittihamlarla ekstradisiya mümkün olsun".



Müzəffər Baxışov

**Xüsusən də son həbs olaylarında iş adamlarına qarşı dələduzluq ittihamı ilə cinayət işinin açıldığını xatırladan ekspert deyir ki, iş adamlarına qarşı bu ittiham əsasında ekstradisiyanın baş tutması qeyri-mümkündür:** "Oliqarxlara Cinayət Məcəlləsinin 178-ci maddəsi ilə ittiham irəli sürülüb. Bu ittihamın isə əslində heç bir əsası yoxdur. Çünki onlar bankla müqavilə bağlayıblar, həmin müqaviləyə əsasən kredit götürüblər. İndi ya müflisləşmə, ya da digər səbəblərdən krediti ödəyə bilməyiblər. Burda 178-ci maddədən söhbət gedə bilməz. Azərbaycan hakimiyyəti də bunu yaxşı bilir. Ona görə də mən düşünmürəm ki, hakimiyyət həmin oliqarxlar barəsində beynəlxalq axtarış versin. Versə də, düşünürəm ki, normal dövlətlər həmin şəxsləri Azərbaycan dövlətinə verməyəcəklər.

Azərbaycanla BƏƏ arasında "Qarşılıqlı hüquqi yardım haqqında" müqavilə də yoxdur. Hətta olsa belə, çətin ki, versinlər. Çünki Dubay azad iqtisadi zonadır və onlar bu cür maliyyə ittihamları ilə bağlı məsələlərdə diqqətli olurlar".

❑ KƏNAN

# Sabiq deputat Beynəlxalq Bankdan 2 milyarda yaxın pulu necə götürüb?

## Ölkədən qaçan iki "sahibkar" haqda yeni məlumatlar; Dünyamin Xəlilovla Qorxmaz Paşayev fantastik məbləğdə kredit alıb qaytarmırlar

**Aktivlərinin böyük hissəsi dövlətə məxsus olan Azərbaycan Beynəlxalq Bankından külli miqdarda kredit götürüb geri qaytarmayan iş adamlarının bir çoxu istintaqa cəlb olunsa da, istintaqdan yayına bilənlər də az deyil. Belə şəxslər sırasında Beynəlxalq Bank prezidenti olmuş Cahangir Hacıyevə yaxın kadrlar da var. Banka ən çox borcu olanlardan biri, eks-deputat, "Globus Plaza" şirkətinin sahibi Dünyamin Xəlilovdur. O, istintaqdan yayına bilib.**

Deyilənə görə, D.Xəlilov Beynəlxalq Bankdan 1 milyard 700 milyon manat (!) kredit alıb, həmin krediti geri ödəməyib. Bakıda, Rusiya səfirliyi yaxınlığında elit "Saatlı bina"nın sahibi olan D.Xəlilov mətbuata açıqlamasında ölkədən qaçmadığını, müalicəyə getdiyini deməklə kifayətlənib.



Qorxmaz Paşayev



Dünyamin Xəlilov

Qeyd edək ki, Dünyamin Xəlilovun Beynəlxalq Banka borcu ilə bağlı qalmaqal 2011-ci ildən başlayıb. Dünyamin Xəlilov 2005-ci ildə Beynəlxalq Bankın səhmdarı olub. 2005-2010-cu illərdə parlamentin deputatı olmuş D.Xəlilov Cahangir Hacıyevin qohumudur və işçisi olub. C.Hacıyevə məxsus "Şəki Bazar" və "Şəki Ət Kombinatı" ASC-ni uzun müddət D.Xəlilov idarə edib. Maraqlıdır ki, Beynəlxalq Bankın bir filialı uzun illər "Globus Plaza"nın üçüncü mərtəbəsində yerləşib. Yalnız bu iş üzrə həbslər başladıqdan sonra bankın fəaliyyəti dayandırılaraq oradan köçürülüb. Eks-deputatın hələ ki nə həbs edildiyi, nə də axtarışda olması barədə rəsmi xəbər yoxdur.

Beynəlxalq Bank işinin istintaqı başlanan gündən ölkədən gedənlərdən biri də Cahangir Hacıyevin "sağ əli" Qorxmaz Paşayevdir. "T.T.Ş" MMC-nin prezidenti olan Q.Paşayevin rəhbəri olduğu MMC uzun illər C.Hacıyevin sayəsində dövlət qurumlarının elan etdiyi tenderlərin qalibi olub. Q.Paşayev ölkədən gedəndən sonra onun şirkətinin Şamaxıda həyata keçirdiyi su və kanalizasiya çəkilişi layihəsi də yarımçıq dayandırılıb. Qaynağımız bildirib ki, uzun illər Rusiyada yaşamış Q.Paşayevin orada yaşayan azərbaycanlı sahibkarlarla münasibətləri korlanıb, külli miqdarda borca görə Azərbaycana gəlib. Bundan sonra C.Hacıyevlə münasibətləri yaranıb. Beynəlxalq Bankdan götürdüyü pullar və bilavasitə bank rəhbərinin şəxsi pullarının dövriyyəsində fəal iştirakçı olub. Q.Paşayevin C.Hacıyevlə dostluğu onun şirkətinin iştirakçısı olduğu bütün tenderləri udmasına səbəb olub. Məsələn, "Qaçqınkom" tərəfindən keçirilən, Qusar-Baki su kəmərinin çəkilməsi üçün keçirilən, həbsxana tikintiləri üçün keçirilən, Şamaxı su və kanalizasiya çəkilişi üçün keçirilən tenderlərin bir qayda olaraq Q.Paşayevin şirkətinin qalib olması buna sübutdur. Qaynağımız deyib ki, C.Hacıyevlə Q.Paşayev əldə etdikləri milyonlar hesabına Bakıda və Ukraynada böyük restoranlar şəbəkəsi alıblar və saysız-hesabsız obyektlərə yiyələniblər.

Qaynağımız Q.Paşayevin vergidən yayınmaq üçün əl atdığı maxinasiyanı da açıqlayıb. Deyib ki, ona məxsus şirkətin baş ofisi Babək prospektində yerləşir. 1-ci mərtəbəsi "Embavood" şirkətinə icarəyə verilib. Q.Paşayev "Embavood"dan müqavilədə göstəriləndən qat-qat çox vəsait alır, bununla da vergidən yayınmağa müvəffəq olur. Onun vergidən yayınmaq üçün tətbiq etdiyi bu üsuldan digər obyektlərində də istifadə etdiyi bildirilir. Qeyd olunur ki, Q.Paşayevin bu üsuldan istifadə etməsini Vergilər Nazirliyində bilənlər var. Həmin yüksək vəzifəli vergi məmuru C.Hacıyevə yaxınlığı olduğundan, Q.Paşayevin əməlinə göz yumulur.

Qorxmaz Paşayev soyadından sui-istifadə edərək hakimiyyətlə bağlarının olduğu haqda ətrafında yalançı rəy yaradıb. Halbuki onun Paşayevlərlə yaxından-uzaqdan heç bir qohumluğu yoxdur.

Yada salaq ki, Azərbaycan Beynəlxalq Bankından götürdükləri kredit borcunu ödəmədikləri üçün saxlanılmış iş adamlarından 43 nəfəri vaxtı keçmiş kredit borclarını ödədikdən sonra sərbəst buraxılıb.

❑ E.HÜSEYNOV

# Hakim partiyadan seçki açıqlaması

## Aydın Mirzəzadə: "YAP rəhbərliyi hər bir dairə üzrə vəziyyəti araşdırıb"

**Hazırda Azərbaycanın gündəmində Avropa Oyunları məsələsi olsa da, noyabrın 1-də keçiriləcək parlament seçkiləri də getdikcə daha çox müzakirə mövzusu olmaqdadır. Artıq seçici siyahılarının dəqiqləşdirilməsi və seçki gününün dəqiqləşdirilməsi başa çatıb, hazırda isə siyasi təşkilatlar namizədlərin dəqiqləşdirilməsi ilə məşğuldur.**

Müsavat Partiyası 70-dən artıq dairədə namizədlərin müəyyənləşdirildiyini açıqlayıb. Bu arada diqqətçəkən odur ki, hakim partiya da beynəlxalq yarışa hazırlıq şəraitində seçki məsələsini gündəmdə saxlayır və qızğın hazırlıq prosesi gedir. Parlametin tərkibi ilə bağlı isə maraqlı məlumatlar yayılmaqdadır. Azərbaycan prezidenti, Yeni Azərbaycan Partiyasının sədri İlham Əliyev 2015-ci ilin parlament seçkilərində hakim partiyanı təmsil edəcək namizədlərin siyahısını hazırlamaq tapşırığı verib. Artıq partiyanın icra katibliyi ilkin siyahını hazırlamaq üçün fəaliyyətə başlayıb. Bu barədə moderator.az xəbər yayıb. Məlumata görə, YAP-ın namizədlər siyahısı yeni kriteriyalar üzrə hazırlanır. Bu kriteriyalar əsasında aşağıdakı qruplar birmənalı olaraq siyahıya düşməyəcək. Universitet rektorları, eləcə də təsərrüfat fəaliyyəti göstərən müəssisələrin rəhbərləri; biznesmenlər, bank rəhbərləri; 4 dəfə deputat seçilmiş və yaşı 70-dən yuxarı şəxslər; seçildiyi dövrdə danışmayan, hakimiyyətin siyasətini müdafiə edə bilməyən şəxslər. Bu kriteriyalar istisnasız olaraq hamıya tətbiq ediləcək və siyahının təxminən 70 faiz yeniləşəcəyi gözlənilir: **"YAP rəhbərliyinin monitorinqinə görə, YAP-çı deputatların cəmi 8 nəfəri fəal olub, hakimiyyətin siyasətini təbliğ və müdafiə etməyi bacarıb, qalanlarının fəaliyyəti isə passiv olub və partiyaya heç bir divident gətirməyib. Yeni siyahıda bu şəxslərə yer olmayacaq".**

YAP sədrinin namizədlərin siyahısını hazırlamaq tapşırığını I Avropa Oyunlarından sonra verəcəyi gözlənilsə də, qəfil göstəriş gəlib və partiya artıq namizəd siyahılarını hazırlamaq üçün səfərbər edilib. İcra katibliyinə tapşırılıb ki, namizədlərin ilkin siyahısını 1 ay müddətinə hazırlayaraq sədrə təqdim etsin.

**YAP-çı deputat Aydın Mirzəzadə yayılan məlumatlarla bağlı "Yeni Müsavat"a bildirdi ki, yazılanlar hamısı qəzet versiyalarıdır:** "Eyni zamanda aparıcı siyasi partiya olan YAP-ın fəaliyyətinə cəmiyyətin böyük marağından irəli gəlir. Təəssüf ki, bəzən heç bir əsası olmayan və yaxud da sadəcə bir günlük sensasiya xarakteri daşıyan məlumatlar da gündəmə ötürülməyə çalışılır. YAP rəhbərliyi hər bir dairə üzrə vəziyyəti araşdırıb. Hər bir deputatın dəstəyi, yaxud gördüyü işlə bağlı artıq müəyyən nəticələr var. Daxili məsləhətləşmələr gedir. Əlbəttə ki, Seçki Məcəlləsinə uyğun olaraq zamanı gələndə YAP özünün namizədlərini cəmiyyətə elan edəcək". Rektorların parlamentə buraxılmayacağı barədə xəbərlərə gəldikdə, A.Mirzəzadə "bütün bu məsələlərə siyahımız elan olunanda cavab veriləcək" deməklə reaksiya verdi.

❑ Cavid TURAN

YENİ MÜSAVAT
N 120 (6148) 4 iyun 2015

## Beynəlxalq Bankın Dubay gizlinləri



# “Avropa Oyunlarından sonra iqtidarda həbslər olacaq” - şok iddia

## Tutulan oliqarxlar və onların hamiləri Cahangir Hacıyevin həbsini istəyirlər; Beynəlxalq Bankın sabiq rəhbəri ilə bağlı iqtidarın qərarsızlığı bütün əmlakını satışa qoyan biznesmenlərin narazılığına səbəb olub; sabiq bankirin Tiflis aeroportunda dəyəri bir neçə milyon olan təyyarəsi və Dubaydakı zavod-fabriki niyə toxunulmaz saxlanılır?

**Beynəlxalq Bankdan təxminən 6,5 milyard dollar kreditin mənimsənilməsinə görə başlanmış həbslər son bir neçə gündə səngiyib, üstəlik qeyri-rəsmi məlumata görə, saxlanılan 43 nəfər də borcunu ödədiyi üçün azadlığa buraxılıb. Avropa Oyunlarına son hazırlıqlar səbəbindən iqtidar gündəmi bu idman yarışına kökləmək istəyir və bu səbəbdən də “oliqarxqeyt işi” sanki səngimiş kimi görünür.**

Amma bu, yalnız media üçün görünən tərəfdir və mötəbər mənbələr bu qalmaqalla bağlı hakimiyyət içərisində gərginliyin səngimədiyini, əksinə, artığını iddia edir. Gərginliyə ən əsas səbəb kimi Beynəlxalq Bankın İdarə Heyətinin sabiq sədri Cahangir Hacıyevlə bağlı hakimiyyətin qərarsızlığıdır. Bankı çıxılmaz duruma salmış bir rəhbər şəxsin hələ də məsuliyyətə cəlb edilməməsi bu işdə mənafeyinə toxunulan məmur-oliqarxların narazılığına səbəb olub.

Məhz bu səbəbdən də son günlər C.Hacıyevlə bağlı “informasiya müharibəsi” başlayıb. Bəzi mənbələr mediaya belə bir informasiya ötürürlər ki, Cahangir Hacıyev bu işlə bağlı araşdırma başlayandan Daxili İşlər Nazirliyi Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsində saxlanılır. Ancaq hələlik onun haqqında həbs-qətimkan tədbiri seçilməyib. İddia olunur ki, bankir Beynəlxalq Banka borclu olan iş adamları ilə üzləşdirilir, bir növ ondan şahid kimi faydalanılırlar: “Ona hələ ki rəsmi ittiham elan edilməyib. Borclu iş adamlarının dindirilməsi başa çatandan sonra ona qarşı rəsmi ittiham irəli sürüləcək. Burada məqsəd kreditlərdən nə qədər "şapka" alınmasını müəyyənləşdirmək və Cahangir Hacıyevin dövlətə vurduğu real zərəri hesablamaqdır. Proses başa çatandan sonra onun haqqında cinayət işi açılacaq" deyə, yayılan məlumatlarda bildirilir. İşgəncələrə Qarşı Azərbaycan Komitəsinin sədri Elçin Behbudov isə həbs edilənlərlə bağlı monitorinq keçirib və bəyan edib ki, Cahangir Hacıyev Azərbaycandan qaçmayıb, həbs olunmayıb.

Beynəlxalq Bank işi ilə bağlı həbs edilən bir neçə nəfərin vəkili Kamandar Nəsibovun dedikləri də C.Hacıyevin həbs edilmədiyi barədə xəbərləri təsdiqləyir. O deyib ki, borclularla bağlı siyahı hazırda banka rəhbərlik edən Emil Mustafayev tərəfindən verilir: “Siyahılarda göstərilir ki, filankəs filan şirkətdən filan qədər məbləğ alıb”.

Beynəlxalq Bank işinə görə milyonlarla hesablanan əmlaklarını bazar qiymətindən bir neçə dəfə aşağı satışa çıxarmağa məcbur olunanlar (əslində məcbur edilənlər) C.Hacıyevin toxunulmaz statusundan çox narahat olurlar və bəziləri dindirmələr zamanı buna açıq etiraz da bildiriblər. Çünki Cahangir Hacıyev ölkə rəhbərliyinin etibarından sui-istifadə edərək dövlətin pullarını təkcə biznesmenlərə deyil, özünün qurduğu iri şirkətlərə yönəldib, həmçinin özünə yaxın müxtəlif adamlara verib. Mətbuata sızdırılan xəbərə görə, Cahangir Hacıyevə yaxın 30 şirkət Beynəlxalq Bankdan toplam olaraq 3.5 milyard manat kredit götürüb. Maraqlıdır ki, C.Hacıyevin əsasən son üç ildə maliyyə maxinasiyalarını hədsiz dərəcədə artırdığı üzə çıxıb. Bundan əlavə, sabiq bankirin yüksək məbləğdə kredit buraxdığı iş adamlarından böyük həcmdə “şapka” aldığına dair məlumatlar da var.

C.Hacıyevlə bağlı daha bir sensasion iddia onun Dubayda qurduğu şirkət və zavodlarla bağlıdır. Məlumdur ki, bu iş üzrə Beynəlxalq Bankın Dubay nümayəndəsi “Qara polkovnik” Fətulla Hüseynovun oğlu Adil Hüseynov həbs edilib. Hazırda o, Bakı İstintaq Təcridxanasında saxlanılır. Məlumata görə, “Dubay işi”ndə söhbət nə az-nə çox, 319 milyon dollara yaxın məbləğin mənimsənilməsindən gedir. Yalnız bir şirkətə 20 milyondan bir az artıq buraxılan məbləğə Adil Hüseynovun birbaşa aidiyyəti var. Üzə çıxıb ki, C.Hacıyev Dubayda tekstil fabriki və metaltökmə zavodu tikib ki, həmin məbləğ də o obyektlərə xərclənib. Amma indi o vəsaiti geri qaytarmaq üçün zavod və tekstil fabriki satışa çıxarılmalıdır. Amma onlara da hələ ki toxunan yoxdur. Deyilənə görə, Dubaydakı fabrikin qurulmasına cəmi 20-25 milyon dollar sərf olunub, amma maxinasiya nəticəsində bu rəqəm 319 milyona qədər artırılıb. Adil Hüseynovun həbsi isə absurd hesab edilir. Bu mövzuda əlimizə çatan bir başqa məlumatda deyilir ki, “Qara polkovnik”in oğlu Cahangir Hacıyevdən “paket maaş” alan bir işçi olub. Onun 20 milyon manat vəsaiti hansısa biznes layihəsinə buraxmasına nə səlahiyyəti çatardı, nə də ixtiyarı...

Qeyd edək ki, hər iki müəssisə Beynəlxalq Bankda girovdadır və onu satışa çıxarmaqla borcu qaytarmaq da mümkündür. Borcluların bir çoxunun hətta bahalı maşınlarını satıb borcunu ödəyib azadlığa çıxdığı, bəziləri isə əmlaklarına alıcı tapmaq üçün şərtlə buraxıldıqları halda, C.Hacıyevin rahat qalması həqiqətən də maraqlı görünür. C.Hacıyevin ölkədəki bir neçə iri-xırdalı istehsal müəssisələri də var ki, onlara da hələ “əl qoyulmayıb”. Xəbərə görə, C.Hacıyevin hazırda Tiflis aeroportunda da dəyəri bir neçə milyon olan təyyarəsi anqarda toxunulmaz saxlanılır.

Hakimiyyətə yaxın deputat Fəzail Ağamalı bir neçə gün əvvəl mediaya açıqlamasında **“Cahangir Hacıyev indi həbs olunmayıbsa, nə vaxtsa həbs edilməlidir. Cahangir Hacıyev ən ciddi şəkildə cavab verməlidir. Ona bu səlahiyyəti heç kim verməyib. Bu cəsarət onda hardandır? İndi siz jurnalistlər araşdırın və görün ki, Hacıyevin nələri var...”** deyə, bildirib.

C.Hacıyevlə bağlı iqtidarın tərəddüdünün bir neçə versiyası var. Əsas versiya isə budur ki, hakimiyyət C.Hacıyevlə bağlı araşdırmaların sonunu gözləyir ki, onun nə qədər borclu olduğu konkret rəqəmlərlə ortaya qoyulsun. Təsadüfi deyil ki, prezidentin yanğınla bağlı son müşavirədə iş adamlarının həbsinə də toxunaraq “bir adam, xüsusilə dövlət məmuru, böyük vəzifə sahibi məsuliyyətdən qaça bilməyəcək. Məsuliyyətli olmaq lazımdır. Cinayət törətmisənsə, get, cəzasını çək” deyə, bildirib. 28 mayla bağlı törəndə isə prezident dövlət idarəetmə prinsiplərində ciddi islahatlar aparılacağı ilə bağlı anons edib. Məlumatlar var ki, Avropa Oyunlarından sonra hakim komandada ciddi “təmizləmə” olacaq, hətta üç yüksək rütbəli məmurlar həbs ediləcək. Bu həbslərin fonunda Cahangir Hacıyevin də “içəri” salınması bəlkə də gözə görünməyəcək...

❑ **“Yeni Müsavat”**

# Ekspertlər cəmiyyətdə sosial gərginliyin artacağını deyir

**Azərbaycan iqtisadiyyatı manatın devalvasiyasından sonra tənəzzül etməkdə davam edir. Ekspertlər iddia edir ki, kütləvi şəkildə iş yerlərinin bağlanması, istehlak bazarında durğunluq, dövriyyədə pul vəsaitlərinin azalması ölkədə sosial gərginliyi tətikləyə bilər. Bundan əlavə, bir çox ekspertlərin manatın növbəti dəfə kəskin devalvasiyaya uğrayacağı ilə bağlı proqnoz verməsi insanlarda daha çox narahatlıq yaradıb. Bəs görəsən, seçki ilində cəmiyyətdə bu qədər sosial gərginliyin yaranması hansı siyasi nəticələrə səbəb ola bilər?**



**Natiq Cəfərli:** “Sosial gərginlik qaçılmaz olacaq”



**Ərəstun Oruclu:** “Sosial-iqtisadi gərginliyin hər zaman ictimai-siyasi effekti olur”

Hazırkı sosial-iqtisadi durumu dəyərləndirən REAL həmsədri Natiq Cəfərli bildirdi ki, əslində birinci devalvasiyadan sonra hökumət strukturlarının kiçik və orta biznesə qarşı total hücuma keçməsi, dövlət nəzarəti yolu ilə qiymətləri tənzimləməsi, sahibkarlara cərimələrin kəsilməsi, onların işinə müdaxilə edilməsi vəziyyətin pisləşəcəyini deməyə əsas verirdi: “Biz də devalvasiyadan sonra ictimai çıxışlarımızda hökuməti xəbərdar etməyə çalışırdıq ki, belə bir situasiya yaranacaq və orta biznesin işində ciddi problemlər yaranacaq. Çox təəssüf ki, haqlı çıxdıq və artıq Bakının küçələrində bir çox ticarət obyektlərinin bağlandığı, satışı, icarə elanlarının xeyli dərəcədə artdığını müşahidə edirik. Bu, iqtisadiyyatın inzibati üsulla tənzimlənməsinin nəticəsidir. Manat kütləsinin azalması isə Mərkəzi Bankın siyasətinin nəticəsi oldu ki, manatın həcmini bazarda azaldaraq ölkədə dollarlaşmanın azaldılmasına cəhd etdilər. Bu addımla yanaşı digər tədbirlər də görülməli idi ki, gözlənilən effekti versin. Ancaq təəssüf ki, ancaq bu yolla müəyyən dərəcədə dollarlaşmanın qarşısını almağa çalışdılar. Bunun da əks-effekt verəcəyi qaçılmaz idi. Devalvasiyanın növbəti mərhələsinə gəlincə, bu, neft faktorundan asılıdır. Neftin qiymətinin uzun müddət aşağı səviyyədə qaldığı müddətdə növbəti devalvasiya qaçılmaz olacaq. Neftin qiymətinin yüksəlməsi üçün də hər hansı iqtisadi əsas yoxdur. Dünya bazarından neftin 65 dollardan da aşağı düşəcəyi gözlənilir. Əgər neft bir qədər də ucuzlaşsa, ilin sonuna qədər neftin ortalama qiyməti 55-60 dollar civarında olsa, ilin sonuna növbəti devalvasiya dalğası qaçılmaz olacaq. Bu səbəbdən ölkənin maliyyə resursları manatın ilin sonuna qədər saxlanılması üçün yetərli olmayacaq”.

**Ekspertin sözlərinə görə, Azərbaycanda sosial gərginliyi artıran bir çox faktorlar mövcuddur:** “İş yerlərinin kütləvi şəkildə bağlanması prosesi gedir, bu Avropa Oyunlarından sonra daha da sürətlənəcək. Çünki oyunlara hazırlıq işlərinə 20 mindən artıq insan cəlb edilib. O insanlar oyunlardan sonra işsiz qalacaq. Bundan əlavə, Rusiyadan gələn vəsaitin kəskin azalması müşahidə olunur. Rəsmi rəqəmlərə görə, Rusiyada azərbaycanlı ailələrə göndərilən vəsait 4-5 dəfə azalıb. Ötən il rəsmi rəqəmlərə görə, təxminən 2 milyard dollara yaxın vəsait cəlb olunmuşdu Azərbaycana. Bu vəsaitlər daxili istehlak bazarına yönəlirdi və bazarı canlı tuturdu. İndi bu vəsaitlər də azalıb və Rusiyadan gələn vəsaitlərin azalması regionlarda sosial vəziyyəti pisləşdirib. Bütün bu amilləri nəzərə alsaq, bunun üzərinə də növbəti devalvasiyanı əlavə etsək, sosial gərginlik qaçılmaz olacaq və biz ilin sonuna doğru vəziyyətin pisləşməsini müşahidə edəcəyik”.

**“Yeni Müsavat”ın suallarını cavablandıran politoloq Ərəstun Oruclu isə qeyd etdi ki, sosial-iqtisadi gərginliyin hər zaman ictimai-siyasi effekti olur:** “Xüsusən Avropa Oyunları dövründə tətbiq olunan müxtəlif məhdudiyyətlər, cərimələr, avtomobillərin şəhərə giriş-çıxışına məhdudiyyət qoyulması, narahatlıq və narazılıq yaradır. Bütün bunların fonunda gələn qonaqların xərclərinin ödənilməsi də insanlarda narazılığı tətikləyəcək. Bunun üzərinə gözlənilən növbəti devalvasiyanı və onun nəticələrini də gəldikdə gərginlik gözləniləndir. Bunun üzərinə beynəlxalq faktoru da əlavə etmək olar. Bildiyiniz kimi, Qərb dövlətlərinin bu gün Azərbaycandan üz döndərmə siyasəti açıq şəkildə müşahidə olunur. Bakıda keçirilən beynəlxalq neft-qaz sərgisinə ABŞ rəsmiləri gəlmədi, hətta formal olaraq ABŞ prezidentindən təbrik məktubu da gəlmədi. Bu, artıq münasibətlərin kəskinləşməsindən xəbər verir. Bütün bunları nəzərə alsaq demək olar ki, müəyyən gərginliklər yaşanacaq. Bunun necə olacağını isə artıq zaman göstərəcək”.

❑ **Nərgiz LİFTİYEVA**

YENİ MÜSAVAT
N 120 (6148) 4 iyun 2015

# Müsavat Partiyası "saxta mühacirlərə" dava açdı və şok ittiham aldı...

## Elnur Mirzəyev: "Partiyadan sənəd almaq üçün 1800 manat pul vermişəm"

**İyunun 3-də Müsavat Partiyası Mərkəzi İcra Aparatı adından yayılan bir bəyanat gündəmə bomba kimi düşdü. Bəyanat mühacir statusu almaq üçün partiyanın adından istifadə edənlərlə bağlı idi. "Yeni Müsavat" Müsavat Partiyası başqanının müavini, Mərkəz İcra Aparatının rəhbəri Gülağa Aslanlı tərəfindən hazırlanan və redaksiyamıza təqdim olunan sözügedən bəyanatı təqdim edir: ""Müsavat Partiyasının ölkədə və xaricdə nüfuzundan istifadə edərək, bəzi işbazlar müxtəlif yollarla xarici ölkələrə mühacirət edən insanlara, o ölkələrdə oturum almaqdan ötrü Müsavat Partiyası adından saxta sənədlər verirlər.**



Belə hallar haqda bizə məlumat verildikdə partiya tərəfindən gərəkli addımlar atılmasına baxmayaraq, mühacirlərin təhlükəsizliyi naminə bu məsələlər bizim tərəfimizdən ictimailəşdirilməyib. Lakin son vaxtlar bu tipli məsələlərdən biri bizdən asılı olmayaraq ictimailəşdirildiyi, partiyanın və tanınmış hüquq müdafiəçilərindən birinin adı yersiz hallandırıldığı üçün biz məsələyə aydınlıq gətirməyi zəruri sayırıq.

Avropada olan mühacirlərdən Elnur Aydın oğlu Mirzəyevin adından Belçika ölkəsinin Miqrasiya İdarəsinə təqdim edilən Müsavat Partiyasının vəsiqəsinin, arayışın və "Elnur Mirzəyev barədə" sənədin Müsavat Partiyasına göndərilmiş surətləri tərəfimizdən araşdırılmış və saxta olduğu təsdiq olunmuşdur.

Müsavat Partiyası tərəfindən E.Mirzəyevin adına verilməsi iddia edilən Müsavat Partiyasının 1216 saylı vəsiqəsi Müsavat Partiyasına məxsus deyil və saxtadır.

Müsavat Partiyası tərəfindən verildiyi iddia olunan 10 noyabr 2014-cü il tarixli 92 saylı arayış partiyanın son illərdə istifadə etdiyi xüsusi blankda yazılmayıb, Müsavat Partiyası başqanının müavini kimi mənim adım və soyadım göstərilsə də, mənə məxsus imza və partiyanın möhürü saxtalaşdırılıb.

Müsavat Partiyası tərəfindən verildiyi iddia olunan 01 aprel 2015-ci il tarixli 314 saylı "Elnur Mirzəyev barədə" sənəd də yuxarıda göstərilən formada saxtalaşdırılıb *(Arayış partiyanın son illərdə istifadə etdiyi xüsusi blankda yazılmayıb, Müsavat Partiyasının başqan müavini, İcra Aparatının rəhbəri kimi mənim adım və soyadım göstərilsə də, mənə məxsus imza və partiyanın möhürü saxtalaşdırılıb).*



İnsanlara hürriyyət, Millətlərə istiqlal

MÜSAVAT

MÜSAVAT PARTİYASI
MUSAVAT PARTY

№ 28 "03" 06 2015

Müsavat Partiyası Mərkəzi İcra Aparatının
BƏYANATI

Müsavat Partiyasının ölkədə və xaricdə nüfuzundan istifadə edərək, bəzi işbazlar müxtəlif yollarla xarici ölkələrə mühacirət edən insanlara, o ölkələrdə oturum almaqdan ötrü Müsavat Partiyası adından saxta sənədlər verirlər.

Belə hallar haqda bizə məlumat verildikdə partiya tərəfindən gərəkli addımlar atılmasına baxmayaraq, mühacirlərin təhlükəsizliyi naminə bu məsələlər bizim tərəfimizdən ictimailəşdirilməyib. Lakin son vaxtlar bu tipli məsələlərdən biri bizdən asılı olmayaraq ictimailəşdirildiyi, partiyanın və tanınmış hüquq müdafiəçilərindən birinin adının yersiz hallandırıldığı üçün biz məsələyə aydınlıq gətirməyi zəruri sayırıq.

Avropada olan mühacirlərdən Elnur Aydın oğlu Mirzəyevin adından Belçika ölkəsinin Miqrasiya İdarəsinə təqdim edilən Müsavat Partiyasının vəsiqəsinin, Arayışın və "Elnur Mirzəyev barədə" sənədin Müsavat Partiyasına göndərilmiş surətləri tərəfimizdən araşdırılmış və saxta olduğu təsdiq olunmuşdur.

Müsavat Partiyası tərəfindən E.Mirzəyevin adına verilməsi iddia edilən Müsavat Partiyasının 1216 saylı vəsiqəsi Müsavat Partiyasına məxsus deyil və saxtadır.

Müsavat Partiyası tərəfindən verildiyi iddia olunan 10 noyabr 2014-cü il tarixli 92 saylı Arayış partiyanın son illərdə istifadə etdiyi xüsusi blankda yazılmayıb. Müsavat Partiyası



MÜSAVAT

MÜSAVAT PARTİYASI
MUSAVAT PARTY

№ 314 "01" aprel 2015

Elnur Mirzəyev barədə

Müsavat Partiyası icra aparatı olaraq bildiririk ki, Müsavat Partiyasının keçmiş başqanı, partiyanın lideri İsa Qəmbər heç bir zaman partiyanın üzvləri barədə kənar şəxslərə şifahi və ya yazılı məlumat verməmişdir. Partiya üzvü Elnur Mirzəyevin müraciətindən sonra icra aparatı olaraq İsa Qəmbərdən bu barədə şifahi məlumat almış və o, digər şəxslərə Elnur Mirzəyevlə bağlı rəsmi və ya hər hansı məlumat vermədiyini bir daha təsdiq etmişdir. Partiyanın qanunvericiliyinə görə, üzvlərlə bağlı informasiya vermə səlahiyyəti partiyanın icra aparatına aiddir. Bildiririk ki, Elnur Mirzəyev 14.02.2008-ci ildən (partiya bileti 1216) Müsavat Partiyasının üzvüdür. O seçki və aksiyalarda fəal iştirak etmiş, Azərbaycanda təqib və təzyiqlərə məruz qalaraq ölkəni tərk etməyə məcbur olmuşdur.

Gülağa Aslanlı
Müsavat Partiyasının başqan müavini
İcra Aparatının rəhbəri

Bizə təqdim olunan arayış və "Elnur Mirzəyev barədə" sənədin surətinin araşdırılması zamanı orada göstərilən tarixlərdə və saylarda Müsavat Partiyası tərəfindən hansısa bir arayışın və sənədin verilmədiyi aşkar olunub.

Yaydığımız bu bəyanatda Müsavat Partiyasının istifadə etdiyi xüsusi blankın, möhürün və mənim şəxsi imzamın orijinalı ilə Elnur Mirzəyevlə bağlı bizə təqdim olunan sənədlərdə istifadə olunan xüsusi blankı, möhürü və imzanı müqayisə edib, fərqləri görmək mümkündür.

Beləliklə, Belçika Miqrasiya İdarəsinə Elnur Aydın oğlu Mirzəyevin adından təqdim edilən Müsavat Partiyasının vəsiqəsinin, arayışın və "Elnur Mirzəyev barədə" sənədin Müsavat Partiyasına ünvanlanan surətlərin tədqiqi nəticəsində bu sənədlərin Müsavat Partiyası tərəfindən deyil, işbazlar tərəfindən saxta yolla hazırlandığını bir daha bəyan edirik".

Bəyanata həmçinin Müsavat Partiyası Mərkəzi İcra Aparatı adından imzalanan və möhürlənən xüsusi blank və Belçika ölkəsinin Miqrasiya İdarəsi tərəfindən Müsavat Partiyasına ünvanlanan sənədlərin surətləri də əlavə olunub.

"Yeni Müsavat" xatırladır ki, ötən ay Avropadakı mühacirlərin həyatından yazı silsiləsi hazırlamaq üçün ezam olunmuş əməkdaşımız da layihə çərçivəsində E.Mirzəyevlə görüşüb, ondan müsahibə almışdı. E.Mirzəyev həmin müsahibəsində əməkdaşımıza G.Aslanlının, həmçinin partiya rəhbərliyində təmsil olunan şəxslərin onu yaxşı tanıdığını, amma hüquq müdafiəçisi Eldar Zeynalovun onun barəsində Belçika Miqrasiya İdarəsinə həqiqətə uyğun olmayan məlumatlar verdiyini bildirmişdi.

### Gülağa Aslanlı: "Yalan deyir, məhkəməyə versin, mən heç kimin 700 manatına qalan kişi deyiləm"

**Məlum bəyanatdan sonra "Yeni Müsavat" yenidən E.Mirzəyevlə əlaqə saxladı. E.Mirzəyev dedi ki, bu bəyanat partiyanın onu aldatdığını sübut edir:** "Mən partiyaya yazılan gün rəhbərliyə demişdim ki, mənim burdan getmək ehtimalım var. Partiyaya üzv olmaq üçün külli miqdarda pul vermişəm. Konkret rəqəm lazımdırsa, deyim. 1800 manat. Bu hadisə 2011-ci ildə olub. Amma vəsiqəni köhnə tarixlə - 2008-ci ilə verdilər ki, inandırıcı olsun. Özləri də mənə dedilər ki, "2011-ci ilin noyabr ayındakı mitinqlərdə iştirak elə, şəkillərin olsun. O halda mühacirət statusu almağın daha asan olacaq". Onlar özləri orda ticarətlə məşğuldular. Maskaları cırılanda isə məni güdaza vermək istədilər".

**Müsahibimiz dedi ki, G.Aslanlı tərəfindən bu gün *(dünən-red.)* yayılan və saxta kimi təqdim edilən iki arayışı elə onun özündən alıb:** "Hər birinə görə 300 manat ödəmişəm. Lazım olsa sübutları da təqdim edəcəyəm. Mesajlar, facebook yazışmaları, vatsap yazışmaları var əlimdə".

**E.Mirzəyev dedi ki, onun oturum alması məsələsində heç bir dəyişiklik yoxdur. Müsahibimizin sözlərinə görə, hələ ki növbəti müsahibə baş tutmayıb:** "Belçika dövləti oturum verməsə də, həyatımızı yaşayacağıq. Pislikləri özlərinə qalsın. Amma mən əlimdəki bütün sənədləri Qənimət Zahidə verəcəm, qoy o bu mövzunu "Azərbaycan Saatı" verilişində yayımlasın. Axı bu bəyanatı yaymaqla nə oldu? Bunun adı pislikdir, başqa adı yoxdur. İnsanlara saxta sənədlər satmısız və mən yeganə adam deyiləm. Sizin qəzetinizə müsahibənizdən sonra Eldar Zeynalov Mirzə Sakitə müraciət edib ki, niyə onun adını çəkmişik. Halbuki o adam mənimlə bağlı miqrasiya idarəsinə yalan məlumatlar verirdi. Eldar Zeynalov dövlətə satılmış hüquq müdafiəçisidir. İndi Müsavat Partiyası başqanının müavini onu hörmətli adam kimi təqdim edir".

**Müsahibimiz bu məsələni sona qədər araşdıracağını və Müsavatda saxta sənəd alveri ilə məşğul olanların maskasını cıracağını dedi:** "Hamı bilir ki, 6-7 ildir Müsavat Partiyası bu alverlə məşğuldur. Sadəcə, indi işləri üzə çıxdı, məni qurban etdilər. Mənsə bu məsələni belə qoymayacam".

**G.Aslanlı "Yeni Müsavat"a açıqlamasında E.Mirzəyevin dediklərini böhtan adlandırdı. Müsahibimiz ümumiyyətlə bu adamı görmədiyini dedi:** "Nə Bakıda, nə də başqa bir yerdə. Doğrudur, onunla mənim aramada inboks yazışması olub. O yazışmada da qeyd edib ki, Müsavatın üzvüdür. Soruşmuşam ki, Müsavatın üzvüsüzsə, hansı təşkilatın üzvüsən? O da deyib ki, özümü Novxanı müsavatçısı hesab edirəm. Mən də demişəm ki, Müsavatda "Novxanı müsavatçısı" anlayışı yoxdur. Ya Binəqədi, ya da hansısa başqa rayon müsavatçısı ola bilər.

Sonra o mənə yazıb ki, məni Tofiq Yaqublu partiyaya qəbul etdirib. Mən də bunu vəkili vasitəsilə Tofiq bəydən soruşmuşam. O da deyib ki, əgər partiyaya üzv olmaq üçün onun ərizəsi yoxdursa, qəbul etdirmək söhbəti olmaz. Mən Tofiq Yaqubluya özüm qədər inanıram. O belə iş görməz".

**Müsahibimizin sözlərinə görə, bu dəqiqləşdirmədən sonra E.Mirzəyevə "sizin Müsavata üzv qəbul olunmanız təsdiq olunmur, siz Müsavatın üzvü deyilsiz", cavabını verib. G.Aslanlı dedi ki, son olaraq Belçika Miqrasiya İdarəsindən Müsavata ünvanlanan müraciət də bu saxtakarlığı bütün detalları ilə üzə çıxarıb:** "Bəli, ortada bir vəsiqə var. Amma bugünkü bəyanatda da göstərmişəm ki, Müsavatda belə vəsiqə nömrəsi yoxdur. Müsavatın istifadə etdiyi blankın forması tamam başqadır. Möhür tamam başqadır. Ona mənim adımdan verilən arayış və sənəddəki imzalar mənə məxsus deyil. Ekspertizaya verib, təsdiqləmək mümkündür. Kimsə saxta sənəd verib. Ya özü düzəldib, ya da kimsə verib belə saxta sənədi. Başqa variant yoxdur. İstifadə edilən möhür də Müsavatın deyil. Mən faktları təqdim etmişəm. O adam xəyallar və nağıllarla nələrsə danışır. Mən şəxsən öz adımdan deyirəm ki, onu heç vaxt görməmişəm. Vasitəçisi kim olubsa, onu da görməmişəm".




**G.Aslanlı dedi ki, qarşı tərəfin ona pul verməsi ilə bağlı irəli sürdüyü iddia ağ yalandır. Müsahibimiz hesab edir ki, bunu sübut etmək istəyən şəxs məhkəməyə müraciət etsin:** "Görək orda kim kimə nəyi sübut edəcək. Cəmiyyətdə məni tanıyanlar bilir iki, heç vaxt əqidəmi pula satmamışam. Mənim adıma yapışan şey deyil. Versin məhkəməyə. Dediyində həqiqət varsa, mənə pul verdiyini sübut etsin məhkəmədə. Elə olsa qanun qarşısında, qanuna tabe olmağa və Müsavat üzvləri qarşısında da üzr istəməyə hazıram. Məni pulla almağa cəhd edən hakimiyyət buna nail olmayıb. Heç kimin 700 manatına qalan kişi deyiləm. Belə şərlə məşğul olmaqdansa özünə başqa peşə tapsın. Mən faktları ortaya qoymuşam. İmzam, möhür, blank uyğun gəlirmi? Yox. Fakt budur".

**Müsavat başqanının müavini bu işdə kimin əli ola biləcəyi ilə bağlı sualı da cavablandırdı. Dedi ki, ümumiyyətlə, partiyada heç kim onun imzasını ata və ümumiyyətlə belə saxta sənəd verməyi boynuna götürə bilməz:** "O sənəd Avropada hazırlanıb. 2006-cı ildə də belə sənəd ortaya çıxmışdı. Onun üzərində Yasamal rayon təşkilatının möhürü və Vurğun Əyyubun imzası vardı. Həmin vaxt biz bunu dəqiqləşdirdik. Məlum oldu ki, nə bu imza Vurğun Əyyuba məxsusdur, nə də təşkilatdan belə bir sənəd verilib. Belə saxta iş bacaranların olması barədə məlumatımız var. Böyük ehtimalla xaricdə olan işdir. Müsavat Partiyasına aidiyyəti yoxdur. Lap Azərbaycanda belə işbazlar olsa da, onlar Müsavat Partiyasından kənardadırlar".

❑ **Sevinc TELMANQIZI**

YENİ MÜSAVAT
N 120 (6148) 4 iyun 2015



# 4 iyun...

Hüseynbala SƏLİMOV

**İnsan yaddaşı qısa olur. Hər bir insan özündə bir yaddaş zərrəciyi daşıyır və bu zərrəciklər birləşib, böyüyüb-artıb nəslin yaddaşına çevrilir... Bir nəsil də yaddaş daşıyıcısı olanda önəm kəsb edir, diqqətdə olur və bizim hər birimiz üçün tarixin bir parçasına çevrilir...**

Azərbaycanda hələlik bir nəsil, daha doğrusu, ədəbi nəsil hamı tərəfindən etiraf olunur. Demirəm ki, 80-90-cı illərin nəsli də onun gücündədir. Bəzən bu nəsilləri müqayisə edəndə deyirlər ki, onlar nə edib, meydanlarda qışqırmaqdan savayı bir işləri-peşələri olubmu?..

Bilirsiniz, bunu demək çətin olsa da, hər halda, dilə gətirməyə məcburuq ki, təəssüf ki, nə ədəbiyyat, nə fəlsəfə, nə də nəsr-poeziya özlüyündə insanları dəyişmir... Bu mənada 80-90-cı illərin nəsli 60-cı illərin nəslindən məqsədə daha yaxın idi-biz cəmiyyəti dəyişməyin ərəfəsindəydik...

Bacardıq, bacarmadıq, bu, bir qədər ayrı söhbətdir. Onu da etiraf edirəm ki, o dövrün insanlarının da əksəriyyəti üçün prioritet dəyərlər əslində başqa idi - hamı daha çox milli müstəqilliyə, torpaq və vətən bütövlüyünə önəm verirdi... O vaxt da azad insan amalı heç də hamı üçün öndə deyildi...

Amma bizim üzərimizdə bir "demokratlar" adı vardı-ona görə də hamı bizdən ilk növbədə bunu umurdu...

Fəqət, nə baş verdi? Təsəvvür edin, azadlıq və demokratiya dalğasında hakimiyyətə gələnlər birdən qayıtdılar ki, demokratik dövlət bizdən sonra olacaq... Adi insanları demirəm, mən özüm də bunu eşidəndə və oxuyanda az qala şok keçirdim-necə yəni "bizdən sonra"?..

"Sovet xalqı" təcrübəsindən sonra "yeni cəmiyyət", "azad millət" qəlibləri də bir qədər süni görünürdü, amma bircə qədər...

Əslində isə biz öz cəmiyyətimizi və millətimizi yaratmalı idik... O cəmiyyət və millət sovet xalqı kimi süni dəyərlərə söykənməyəcəkdi, onun dayağı azad insan olacaqdı...

Amma həmin o azad insan bizimkiləri, bəli, bizim özümüzünküləri qorxutdu-sovet məmurları ilə işləmək onlara daha maraqlı göründü, sovet idarəetmə təcrübəsi daha effektiv göründü, kreslo həvəsi onları da ram etdi... Düşündülər ki, lap elə Rusiyadakı narodovolçular kimi xalq üçün xalqın özünə və sözünə istinad etmədən də "xoşbəxt gələcək" qurmaq olar...

Mən isə harada "xoşbəxt gələcək" sözlərini görürdüm, dərhal belə bir qənaətə gəlirdim ki, bəli, buradan növbəti totalitar utopiya qoxusu gəlir...

Qərəz, bütün bunlara görə 4 iyun baş verdi... Bizdən fərqli olaraq isə əks-inqilabçılar və onların dalğasında hakimiyyətə gələnlər nə istədiklərini çox yaxşı bilirdilər-bəli, bilirdilər ki, hakimiyyəti heç kimlə, hətta xalqın özü ilə də bölüşməyəcəklər, bilirdilər ki, qarşıdan böyük mülkiyyət bölgüsü gəlir, bizdən fərqli olaraq vəzifənin dəyərini bilirdilər, bilirdilər ki, vəzifənin böyüyü-kiçiyi olmur, əsas möhürdür...

O vaxt bizim düşərgədə hamı böyük iddialarla yaşayırdı, amma bunun üçün zəruri resursları yox idi... Amma "köhnə adamlar" köhnə zamanlarda olduğu kimi vəzifənin nə demək olduğunu çox yaxşı bilirdilər...

Bu yaxınlarda bir verilişdən eşitdim ki, Yusif Sərrac söhbəti heç də M.F.Axundovun uydurması deyilmiş- sən demə, belə hadisə həqiqətən də olubmuş...

Amma hətta o Yusif Sərrac da öz faciəsini bilirmiş. Bizimkilər isə bilmirdi. Ona görə də 4 iyun bizə qəfil göründü, əslində isə o, qəfil gəlməmişdi...

Hətta deyərdim ki, bir az da əvvəl, 93-cü ilin artıq ilk aylarında hakimiyyət faktiki olaraq əldən verilmişdi...

Xalq niyə demokratlara dəstək vermədi? Bəlkə də ona görə ki, ondan bu dəstəyi istəmədilər...

Sonradan belə asanlıqla hakimiyyətdən getməyin nümunəsini Ukraynada-V.Yuşşenkonun timsalında gördüm. Amma gəl, V.Yuşşenko da, heç olmasa, məsələni növbəti seçkiyə qədər gətirib çıxara bildi. Biz isə bunu da bacarmadıq...

İndi düşünürsən ki, heç bir il də hakimiyyət olar? Bir il çəkən hökumətlər olur, bir də görürsən ki, bir kabinet istefa verir, o birisi gəlir. Gəl ki, vallah, bir illik hakimiyyət olmur...

Düzdür, digər respublikalarda da o vaxtki demokratik hakimiyyətlər çox çəkmədi. Niyə görə? Ona görə ki, demək olar, hamısı eyni səhvləri etdi- hamı birdən dönüb avtoritar lider olmaq xəyalına düşdü...

Amma bu, elə də asan deyildi, çünki bunların "orijinal"ları vardı. Xalqa həmin "orijinal"ların "kopiya"sı lazım deyildi. Ona görə də hər yerdə cəmiyyətlər "kopiya"lardan imtina edib "orijinallar"ın arxasınca getdi...

# "Problemli kreditlərin həcmi dəhşətli səviyyəyə çatacaq"

## Əkrəm Həsənov: "İstənilən halda əhali ilə kompromisə nail olmaq lazımdır"

**"Borclular kütləvi şəkildə haqlarını tələb etsələr, banklar əhəmiyyətli güzəştlərə getməyə məcbur olacaq". Hüquqşünas Əkrəm Həsənov borcluların devalvasiyadan sonrakı strategiyası və taktikası haqda danışarkən belə deyib. O bildirib ki, bankları seçim qarşısında qoymaq lazımdır: "Banklar ya problemli kreditləri artaraq və başları kütləvi məhkəmə proseslərinə qarışaraq tamamilə çökəcəklər. Ya da əhəmiyyətli güzəştlərə gedərək kreditlərin qaytarılmasına nail olacaqlar".**



Ekspertin sözlərinə görə, Konstitusiya Məhkəməsi dollarla götürülən kreditlərlə bağlı qərarında diqqətsizlik edərək qərarının 6-cı bəndini qeyri-ixtiyari olaraq xalqa hədiyyə edib: "Niyə tələsirdi? Əslində, sual başqa cür qoyulmalıdır: onu kim tələsdirirdi? Təbii, o kəslər ki, qərar onların xeyrinə oldu. Yəni banklar. Banklar ona görə tələsirdi ki, problemli kreditlər portfeli gündən-günə artır. Bu portfelin real həcmi bəyan etdiklərindən xeyli yüksəkdir. Problemli kreditlərin üç qrupu var. Birinci qrupa bank sahiblərinin özlərinin süni yaratdığı problemli borclar aiddir. Yəni dolayısı ilə özlərinə məxsus olan şirkətlərə verilmiş və qaytarılmayan kreditlərdir. Özü-özlərindən oğurlayırlar? Əlbəttə, yox. Bu, əmanətçilərin puludur. Onların hesabına bank sahibləri öz şirkətlərinə ucuz kredit verirlər. Bununla da həmçinin mənfəət vergisindən yayınırlar. Yəni ilin axırında bank ya heç mənfəətə çıxmır, ya da mənfəəti azaldır. Vergi orqanına deyirlər ki, problemli kreditlərimiz çoxdur, ona görə də mənfəət azdır və ya heç yoxdur".

**Ə.Həsənovun sözlərinə görə, ikinci qrupa bankın idarəçilərinin və hətta işçilərinin "şapka" müqabilində verdikləri kreditlər aiddir:** "Lakin maraq təkcə "şapka"da deyil. Bu yolla həmin şəxslər o cümlədən özlərinin bankdakı iş yerlərini sığortalayırlar. Bank sahibləri onları qovmaqdan çəkinir, çünki əks halda, sözügedən problemli kreditlər tamamilə batacaq. Üçüncü qrupa klassik problemli kreditlər aiddir. Yəni bilavasitə borc alanın özü ilə bağlı problem. Ola bilər ki, borc alan həqiqətən ağır vəziyyətə düşüb. Ola da bilər ki, borc alan banka "atmaq" istəyir".

**Ekspert qeyd edib ki, devalvasiyadan əvvəl də bankların problemli kredit portfeli kritik həddə idi. Lakin devalvasiyaya qədər banklar birtəhər bu problemli portfeli idarə edirdilər:** "Borc alanlardan aldıqları yüksək sələmçi faizlər, ucuz xarici kreditlər və sair sayəsində. Lakin devalvasiyadan sonra eyni zamanda üç proses başladı: borc alanlar dollar kreditlərini ödəməkdən boyun qaçırdı ki, əvvəlki məzənnə ilə ödəyəcəyik, xarici valyutada kreditlər etibarsızdır və sair. İkincisi, xaricdən ucuz kredit cəlb etmək çətinləşdi. Həmçinin, əmanətçilər əmanətlərini çıxarmağa başladı. Yəni xərclər artdı, gəlirlər isə azaldı. Banklar bu üç prosesin qarşısını almaq istədi. Əmanətlərin çıxarılmasının qarşısını almaq üçün qanunvericiliyə zidd olaraq açıq valyuta mövqeyi limiti ləğv edildi. Sığortalanan əmanətlər üzrə faiz dərəcəsi 12 faizə çatdırıldı. "Vergisiz" əmanət məhsulları işə salındı və sair. Lakin zaman göstərdi ki, xeyri yoxdur, əhali artıq bank sisteminə etibar etmir. Xarici kreditorlar da həmçinin: nəinki yeni kreditlər vermir, əvvəlkiləri də geri tələb edirlər. Buna görə də bankların bir yolu qaldı. Nəyin bahasına olursa olsun, problemli kreditlərin həcminin artmasının qarşısını almaq. Buna görə də dollar kreditləri üzrə müddətlər uzadıldı, bəziləri hətta faiz dərəcələrini cüzi endirdi. Təki yeni problemli kreditlər yaranmasın, kreditlərin ödənişi davam etsin. Axı əvvəlki problemlər onsuz da pik həddə çatmışdı. Lakin borc alanların çoxu inad etdi ki, daha ciddi güzəştlər tətbiq edilsin. Tanınmış hüquqşünaslar, hətta hakimlər də bankların maraqlarına uyğun olmayan bəyanatlar verirdi. Hətta bankların əleyhinə azı bir məhkəmə qərarı da qəbul edildi. Bu şəraitdə borc alanları yola gətirmək xeyli çətinləşdi.

Buna görə də banklar qərara aldı ki, məsələni pərakəndə şəkildə və çoxsaylı məhkəmələr vasitəsilə deyil, birlikdə və bir məhkəmə- Konstitusiya Məhkəməsi vasitəsilə birdəfəlik həll etsinlər. Necə deyərlər, ucuz və keyfiyyətli! Axı məhz bu məhkəmənin qərarı qətidir. Həm də ki, bu halda bankların adı tez-tez mənfi müstəvidə hallanmayacaqdı və əmanətçiləri qorxutmayacaqdı".

**Ə.Həsənovun fikrincə, işə rəhbərliyi Mərkəzi Bank üzərinə götürüb, amma məsələyə ancaq banklar dəstək verməyib:** "Guya sahibkarlar da dəstək oldu. Halbuki devalvasiyadan əsas zərəri məhz onlar çəkib. Bununla belə, Sahibkarlar *(İşəgötürənlər)* Təşkilatları Milli Konfederasiyası da bankların tərəfini tutdu. Niyə? Çünki onun prezidenti də məşhur bankir Məmməd Musayevdir. O, həmçinin Mərkəzi Bankın baş direktoru Rəşad Orucovun qayınatasıdır. Təəssüf ki, bizdə hələ də maliyyə sektoru real sektor üzərində ağalıq edir. Beləliklə, tələm-tələsik məsələ Konstitusiya Məhkəməsinə çıxarıldı. Banklar ümid edirdi ki, bu qərardan sonra borc alanlar bankların iradəsinə tabe olacaq və kreditləri qaytarmağa davam edəcəklər. Lakin gözlədikləri kimi məsələ asan olmadı. Vahimə içərisində olan banklar qərarın qısa müddətdə elan olunmasına can atdı və istədiklərinə nail oldular. Amma tələskənlik nəinki qərarın savadsız tərtib edilməsinə, həmçinin 6-cı bənddə qeyri-ixtiyari əhalinin xeyrinə müddəanın daxil edilməsinə səbəb oldu. Banklar artıq başa düşür ki, Konstitusiya Məhkəməsinə zorla qəbul etdirdikləri qərar nəticəsində köklü dönüşə nail ola bilmədilər. Cəmiyyət qərarı qəbul etmir, onu legitim hesab etmir. Qərarın 6-cı bəndi isə bankların kefinə soğan doğradı. Aydın oldu ki, istənilən halda əhali ilə kompromisə nail olmaq lazımdır. Əks halda, problemli kreditlərin həcmi dəhşətli səviyyəyə çatacaq". **Ekspert qeyd edib ki, müqavimət nə qədər kütləvi olsa, banklar bir o qədər ciddi və əhəmiyyətli güzəştə getməli olacaqlar:** "Bunun üçün isə borclular arasında maarifləndirmə aparılmalıdır. Borclular Konstitusiya Məhkəməsinin qərarının 6-cı bəndinə istinad edərək banklardan əhəmiyyətli güzəşt tələb etməlidir. İkinci yol yalnız o kreditlərə aiddir ki, məqsədi hansısa əmlakın alınmasıdır. Əmlak yalnız manatla alına bilərdi. Niyə krediti dollarla veriblər? Deməli, aldadıblar, müqavilə əhəmiyyətli yanılmanın təsiri altında bağlanıb, şərait əhəmiyyətli dərəcədə dəyişib və sair. Bir sözlə, Mülki Məcəllənin 339.2-ci və 347-ci maddələrinə əsasən müqavilənin etibarsızlığı məsələsini qoyacaqlar. Bu, banklar üçün birinci yoldan da təhlükəlidir. Onlar nəinki arzuedilməz məhkəmə çəkişmələrinə cəlb olunacaq, həmçinin bir sıra hallarda bu prosesləri uduzacaqlar. Necə ki, devalvasiyadan sonra uduzmağa başlamışdılar".

**Ə.Həsənov vurğulayıb ki, borclular kütləvi şəkildə əhəmiyyətli güzəştlər tələb etsələr, banklar bu tələbləri qismən də olsa yerinə yetirməli olacaqlar:** "Bu məsələdə banklar artıq birləşə bilməyəcəklər. Hərə özü üçün olacaq. Buna görə də ayrı-ayrılıqda zəif olacaqlar".

❑ RÖYA



# "4 iyun qiyamı ağır nəticələri olan milli faciə idi"

## Pənah Hüseyndən 22 il əvvəlki məşum tarix barədə maraqlı mövqe; Müsavat Partiyasının qiyamdan bir gün sonra verdiyi bəyanatda nələr yazılmışdı?

**Bu gün 1993-cü ilin 4 iyununda baş verən qiyamın ildönümüdür. 22 il əvvəl Gəncədə Azərbaycan ordusunun keçmiş korpus komandiri Surət Hüseynovun rəhbərlik etdiyi qiyam Əbülfəz Elçibəy iqtidarına qarşı olsa da əslində bu qiyam Azərbaycanın taleyini dəyişən məşum bir hadisəyə çevrildi.**

Azərbaycan Xalq Cəbhəsi hakimiyyətinə qarşı həyata keçirilən, Milli Qvardiyanın ondan artıq əsgərinin qətlə yetirilməsi və nəhayət, hakimiyyətin devrilməsi, bir qədər sonra isə Yeni Azərbaycan Partiyasının hakimiyyətə gəlməsi ilə nəticələnən hərbi qiyamla bağlı suallar illər keçsə də, bu gün də cavabını axtarır.

Siyasətçilər, AXC iqtidarında təmsil olunanlar 4 iyun qiyamı barədə indiyə qədər müxtəlif yanaşmalar ortaya qoyublar, mülahizələr irəli sürüblər, obyektiv və subyektiv fikirlər səsləndiriblər.

Onu da qeyd edək ki, hər il 4 iyun qiyamının ildönümü günlərində hazırkı iqtidar həmin hadisələrdən o zamankı hakimiyyətə-indiki müxalifətə qarşı böyük təbliğat kampaniyası həyata keçirir. Telekanallarda silsilə verilişlər təşkil edilir. Lakin nədənsə son günlər bu "ənənənin" pozulduğu müşahidə edilir. Hələ ki 4 iyun qiyamı mövzusunda əvvəlki illərdəki kampaniya aparılmır.

**4 iyun qiyamı nəticəsində devrilən Əbülfəz Elçibəy iqtidarının baş naziri işləmiş Pənah Hüseyn hesab edir ki, hazırda Avropa Oyunları ilə bağlı ovqat fərqlidir, ola bilsin əvvəlki illərdəki total anti-təbliğat kampaniyasının təşkil edilməməsi bununla bağlıdır:** "Prinsipcə, nə ilə bağlı olub-olmamasından asılı olmayaraq, hər halda, 20 il ərzində hər il aparılan kampaniya indi təkrar edilmirsə, pozitiv dəyərləndirilməlidir. Biz həmin tarixi hadisələri cəmiyyətimizin milli maraqlar ətrafında birləşməsi kimi təqdim etsək, bunun əhəmiyyəti olar. Əgər bundan ixtilaf və parçalanma, insanlarımızı bir-birinə qarşı qoymaq üçün istifadə etsək, bu, əlbəttə, nəticə etibarilə zərərə işləyir".

**P.Hüseyn qeyd etdi ki, 22 ildir mövcud olan iqtidarın özünün yaranması həmin hadisələrə gedib çıxır:** "Oradakı rol da əlbəttə ki, birmənalı deyil. Hər halda, həmin hadisələr və onun ağır nəticələrini biz indi də hiss edirik. Təəssüf ki, həmin nəticələr tam şəkildə aradan qaldırılmayıb. O hadisələrin həqiqi qiyməti ilk dövrdən məlumdur. Bu, Azərbaycan dövlətçiliyinə, Azərbaycana qarşı təşkil edilən qiyam idi. O qiyam əslində tarixi qiymətini də alıb. Bunun rəsmiləşdirilməsi məsələsi isə şübhəsiz ki, gec-tez olacaq. Amma bundan bir qisasçılıq, Elçibəy hakimiyyətinin opponentlərinin istifadə elədiyi mənada parçalanma və ixtilaf üçün istifadə olunması, məncə, olmayacaq".

**"4 iyun qiyamına rəhbərlik edənlər bu 22 il ərzində həqiqi cəzalarını aldılarmı" sualına sabiq baş nazir belə cavab verdi:** "Onların bir çoxu bu illər ərzində həyatlarının müəyyən hissəsini həbsxanalarda keçirdilər. Ancaq məhkəmə cəzalarından, fiziki cəzalardan daha ağır cəzalar var-bu millətin şüurunda verilən hökmdür, tarixin hökmüdür və ilahi hökmdür. O baxımdan mən üstündən bu qədər keçdikdən sonra axırıncıları daha mühüm sayıram".

Dünən isə Müsavat Partiyasının başqan müavini Elman Fəttah 1993-cü ilin 4 iyun hadisələri ilə bağlı qiyamdan bir gün sonra-iyunun 5-də Müsavat Partiyasının yaydığı bəyanatı facebook səhifəsində yerləşdirib. Müsavat başqanının o dövrdə Milli Məclisin sədri olması və digər amillər sarıdan 22 il sonra həmin bəyanatda nələrin əksini tapdığını görmək yəqin ki, çoxları üçün maraqlıdır.



Pənah Hüseyn

**Bəyanatda deyilir:** "Respublikamız bugünlərdə öz tarixinin ən qorxulu məqamlarından birini yaşayır. Şanlı tarixi ənənələrinə görə haqlı olaraq ikinci paytaxtımız sayılan Gəncədə yuva salmış kənardan idarə olunan qüvvələr Azərbaycan dövlətçiliyi əleyhinə qiyam qaldırmışlar. Həmin qüvvələr düşmən təcavüzünə məruz qalmış, vətənin ağır vəziyyətində heç nə ilə hesablaşmadan öz xırda, xəbis niyyətləri xatirinə milləti parçalamağa, dövləti sarsıtmağa və xarici dövlətlər qarşısında diz çökdürməyə çalışırlar. Bu, imperiyapərəstlərin artıq təcrübədən çıxardıqları "Gürcüstan varianti"nın, yəni vətəndaş müharibəsi yaratmaq təşəbbüslərinin açıq-aydın Azərbaycanda həyata keçirilməsinə xidmət edir... Müsavat Partiyası onu da qeyd etməyi lazım bilir ki, vəziyyətin böhran həddinə çatmasında əlaqədar hökumət orqanları xeyli dərəcədə cavabdehdirlər. Bu işdə dövlət hüquq-mühafizə orqanlarının astagəlliyi, prezidentin özü də daxil olmaqla, bütün səviyyələrdə hakimiyyət dairələrinin tələb olunan anlarda qətiyyətsizliyi öz mənfi rolunu oynamışdır. Tarixin indiki hakimiyyət üzərinə qoyduğu nəhəng məsuliyyəti nəzərə alıb iqtidarın bundan sonra qiyamçı və xəyanətkar qüvvələrə münasibətdə sərt addımlar atacağına ümid bəsləyirik. Biz şübhə etmirik ki, Azərbaycan xalqı onu qardaş qırğınına, vətəndaş müharibəsinə çəkmək istəyən imperiyanın xain nökərlərinə layiqli cavabını verəcək".

**Göründüyü kimi, Müsavat Partiyası hakimiyyət orqanlarını da tənqid edib və hakimiyyətdən sərt tədbirlər gözlədiyini açıq şəkildə ortaya qoyubmuş.**

❑ Etibar SEYİDAĞA

# Elmar Vəliyev Rəsulzadənin büstü ilə bağlı danışdı

## Müsavat Partiyası bəyanat yaydı, Rəsulzadə irsinin araşdırmaçısı isə baş verənləri Azərbaycan dövlətinə qarşı sayğısızlıq adlandırdı...



**Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Elmar Vəliyev rəhbərlik etdiyi şəhərdə bir müddətdir davam edən büst qalmaqalına münasibət bildirib. İcra başçısı Cümhuriyyətin banisi Məhəmməd Əmin Rəsulzadənin büstünün illərlə torba keçirilərək saxlanılması ilə bağlı qısa danışıb. O, musavat.com-a açıqlamasında bildirib ki, məsələnin ona aidiyyəti yoxdur: "Aidiyyəti üzrə müraciət edin. Həmin park dəmiryol idarəsinin balansındadır".**



Elmar Vəliyev



Nəsiman Yaqublu

Qeyd edək ki, Azərbaycan Demokratik Respublikasının banisi Məhəmməd Əmin Rəsulzadənin Gəncə Şəhər Dəmiryolçular parkında qoyulan heykəli ilə bağlı uzun müddətdir qalmaqal yaşanır. Qalmaqal qısamüddətli nəticə də verib. Belə ki, iyunun 1-də abidənin üzərindəki çuval götürülüb. Ancaq iyunun 1-də açılan büst ayın 2-də yenidən qapadılıb.

Bu məsələ parlamentin sonuncu iclasında da müzakirə edilmişdi. Deputat Sabir Rüstəmxanlı Rəsulzadənin büstü ilə bu cür davranışa görə Gəncə Şəhər İcra Hakimiyyətini tənqid etmişdi. Deputat Musa Quliyev isə həmkarının bu tənqidinə sərt formada cavab verərək demişdi ki, S.Rüstəmxanlı ilə nəqliyyat naziri Ziya Məmmədov qudadırlar. Həmin park da Nəqliyyat Nazirliyinin balansındadır. "Qudasından xahiş etsin, büstün başına keçirilən çuvalı çıxartdırsın" - deyə M.Quliyev məsələyə öz münasibətini bu formada bildirmişdi. Bundan sonra məsələyə Z.Məmmədovun deputat qardaşı Elton Məmmədov da qarışmışdı və Musa Quliyevi boş-boş danışmaqda suçlamışdı. Bu məsələ mətbuatda və sosial mediada hələ də müzakirə olunur.

Qeyd edək ki, Gəncə Şəhər İcra Hakimiyyəti və "Azərbaycan Dəmir Yolları" QSC-nin rəsmiləri bundan öncə verdikləri açıqlamalarda məsuliyyəti bir-birilərinin üzərinə ataraq, sözügedən parkın onların balansında olmadığını sübut etməyə çalışmışdılar. "Azərbaycan Dəmir Yolları" QSC-nin mətbuat katibliyinin rəisi Nadir Əzməmmədov modern.az saytına bildirib ki, "Azərbaycan Dəmir Yolları"nın bu məsələyə heç bir aidiyyəti yoxdur: "Çünki büst olan park Gəncə Şəhər İcra Hakimiyyətinin balansına verilib".

**Rəsulzadə İrsini Araşdırma Fondunun rəhbəri, tarixçi alim Nəsiman Yaqublu isə bildirir ki, Cümhuriyyətin banisinin büstü ilə bağlı baş verənlər sayğısızlıqdır:** "Rəsulzadəyə qarşı sayğısızlıq Azərbaycan dövlətinə qarşı sayğısızlıqdır. Bundan əvvəl də Rəsulzadənin büstü Keşlə Dəmiryol Vağzalından götürülüb. O zaman da etirazımı bildirmişəm. Bu addımın atılması, bu münasibətin göstərilməsi Azərbaycan dövlətinə, dövlətçiliyinə qarşı sayğısızlıqdır. Əvvəla, Rəsulzadə Azərbaycan dövlətinin qurucusudur və Azərbaycan Xalq Cümhuriyyətini yaradan ilk şəxsiyyətdir. İkincisi, bu Cümhuriyyətin müəyyən dövr fəaliyyəti Gəncədə olub. Büstlə bağlı bu cür hərəkət etik deyil. Rəsulzadəyə qarşı belə münasibət sayğısızlıqdır. O icra başçısının Azərbaycan dövləti tarixindən xəbəri varmı? Kimdir, hansı təhsilə sahibdir ki, bu hərəkətləri edir? Mənə elə gəlir ki, bu adamı hərəkətlərinə görə dövlət başçısı ciddi şəkildə cəzalandırmalıdır. Çünki bu cür icra başçıları Azərbaycan dövlətini gözdən salırlar. Onların etdiyi hərəkətlər Azərbaycan dövlətçiliyinə qarşıdır. Düşünürəm ki, Azərbaycanın dövlət başçısı İlham Əliyev bu cür icra başçılarını cəzalandıracaq. Rəsulzadəyə görə yox, ən azı Azərbaycan dövlətinə etdikləri sayğısızlıqlara görə".

**Qeyd edək ki, iyunun 3-də Müsavat Partiyası da Rəsulzadənin büstünə qarşı sayğısızlıqla bağlı bəyanat yayıb. Bəyanatda bildirilir:** "Azərbaycan Xalq Cümhuriyyətinin banisi, həyatını Azərbaycanın istiqlalı uğrunda mübarizəyə həsr etmiş Məhəmməd Əmin Rəsulzadənin Azərbaycanın müxtəlif yerlərində olan azsaylı abidələrinə qarşı vandalizm halları davam etməkdədir. M.Ə.Rəsulzadənin qurduğu universitetdən adının götürülməsi, Bakı şəhərinin mərkəzində heykəlinin ucaldılmasına qadağa qoyulması, bütünün Bakı Metropoliteninin ərazisindən götürülməsi, metronun "28 May" stansiyasının içərisindəki divarda həkk olunan portretinin sökülməsi, Ağcabədi, Ağsu rayonlarında olan büstlərinin götürülməsi faktlarına indi də Gəncə şəhərində daha bir hadisə əlavə olunub. Azərbaycan Milli Məclisində VHP sədri Sabir Rüstəmxanlı tərəfindən səsləndirilən fikirdən məlum olur ki, dövlət müstəqilliyimizin elan olunduğu Gəncə şəhərində yerli rəhbərlik tərəfindən M.Ə.Rəsulzadənin büstünün təmir olunması adı ilə başına çuval keçirilib və bununla da həm tariximizə, həm də bütün Azərbaycan xalqına hörmətsizlik edilib. Araşdırma nəticəsində məlum olub ki, təmir-bərpa adı verilən bu əməliyyata uzun müddət bundan əvvəl başlanılıb və indiyədək büstün təmiri yüksək iqtisadi inkişafdan danışan hakimiyyət nümayəndələri tərəfindən həyata keçirilmir. Müsavat Partiyası hakimiyyətin M.Ə.Rəsulzadənin müqəddəs xatirəsinə qarşı baş verən bu vandalizm aktını dövlətçiliyə qarşı yönələn bir hadisə kimi qətiyyətlə pisləyir, ulu öndərin Azərbaycanın bütün ərazilərindəki abidələrinin bərpasını və bu hadisənin günahkarlarının cəzalandırılmasını tələb edir".

❑ Röya RƏFİYEVA

YENİ MÜSAVAT
N 120 (6148) 4 iyun 2015



# Məşəl tutanlar üçün duş

Zamin HACI
zaminhaci@gmail.com

"Bax siz, qarşımda oturan gənc, məsum donuz balaları, bir il keçməmiş hamınızın həyatı bu hasarın çölündə sona yetəcək. Heç nə görmədən dünyadan köçüb gedəcəksiniz. Bu dəhşətli tale inəkləri, qoyunları, donuzları, toyuqları - bir sözlə, hamımızı gözləyir. Hətta atların və itlərin də bəxti gətirmir"

**(Corc Oruell, "Heyvanıstan" romanından)**

**Avropa Oyunları yeni fürsətlər yaradıb, örnək üçün, yaxşı olar rayondan arvad alanları da paytaxta buraxmasınlar. Bunu təzə evlənənlərin sağlamlıq kağızı alması münasibətilə qüvvəyə minən yeni qanunun böyrünə dürtüşdürmək mümkündür.**

Müğənni İlhamə xanımın məşəl daşıması ətrafında gedən ümumavropa diskussiyaları da bitmək bilmir. Dünən bu məsələyə muğamatçı Alim Qasımovun münasibətini oxudum. Alim müəllim deyir ki, o da İlhamə müəllimə ilə birlikdə məşəl daşınmasında iştirak edəcəkdir. Amma deyir mən də qaçmayacağam, yeriyəcəyəm. Olsun. İstəyirlər lap sürünsünlər. Hər kəs istədiyi hərəkət üsulunu seçmək haqqına malikdir - bizim konstitusiyada deyəsən belə yazılıbdır. Yaxşı olar Alim müəllim həmin məşəli ələ keçirmişkən yaşadığı Güzdək qəsəbəsinə də aparsın, çünki bir ara qışda yaman ağlaşma qurmuşdu, "Segah" üstündə "Azəriqaz"dan şikayətlənirdi, deyirdi bizə qaz verin, soyuqdan ölürük, ay aman, ey dadi-bidad, yar əman, əman, əman eyyyyyy.

Ümumiyyətlə, sizə deyim ki, bu məşəldaşıma işinə Alim müəllimi qoşan kimdirsə böyük səhv edibdir. Çünki bu adamın qoşulduğu ictimai işlər nəsə həmişə pis alınır. Bir növ, elə bil bunun tək oxumağı daha yaxşıdır, nəinki xorda oxumağı. Misal üçün, bir ara seçkidə YAP-a dəstək verdi, həmin vaxt Əfruz xalanın döşdüyündən bir topa bülleten tapıldı, biabırçılıq yarandı, bəzi jurnalistlər isə şəbədə qoşdular: "Deyir guya səsi görürəm, bəs seçkidə oğurlanan səsləri niyə görmürsən?".

Daha sonra Alim müəllim başqa bir muğam ifaçısı Elnarə xanımın hansısa rayonda qazdığı bulağın açılışında çıxış elədi. Həmin tədbirə rayon icra hakimiyyəti-zad da qatılmışdı, göydən şar asmışdılar, zəhmətkeşlər əl çalırdılar. Amma muğamatçılar gedəndən sonra deyir bulaq quruyubdur. Hətta açılış günü də əslində bulaq axmırmış, gizli yerə qoyulan aftafadan su verirmişlər. Sözümün canı odur ki, Alim müəllim yerdə çömbəlib əl-qol oynadanda xalqımıza daha maraqlıdır. Beləsinə məşəl versən, onu da oynadıb qulağının dibinə aparacaq. Təhlükəlisi odur ki, tarçalanın qulağının dibinə apara bilər. Bizə bu lazımdırmı? Lazım deyildir. Üstəlik, Avropa Oyunlarına gələn idmançılar yavaş-yavaş təyyarəyə minirlər. Misal üçün, dünən mən bir qrup macar idmançını gördüm, Budapeştdəki səfirimiz Vilayət müəllim onları şəxsən sulayıb trapa mindirirdi. Oruelli orijinaldan tərcümə eləməklə, filologiya elmləri doktoru olmaqla deyil ki? Lazım gələndə adamı yüngül atlet Boqlarka Balaş-ı daşımağa məcbur edirlər. Həyat beləcə ağırdır.

Hələ Qarabağ döyüşçülərini demirəm... Vaxtilə Ağdərədə tank vuran uşaqlar indi Avropa Oyunlarının sarı zolağının o üzündəki erməni idmançılara gül dəstələri daşıyırlar, hökumətə yaltaqlanan bəyanat verirlər. İdmanın sülh funksiyasından-zaddan qırıldadırlar. Təsəvvür elə: sənin qardaşın bir ayağını müharibədə itirib pulsuzluqdan özünü yandırır, sən isə idman ruhu haqda çərənləyirsən. Qarabağ zonasında bir el məsəli var, bu cür hallarda dəhşət uyğun gəlir: "Hərəni bir cür boğaz eləyiblər". Bu, boğazlamaq kimisə boğmaq mənasında işlənən söz deyil. Prinsipcə, daha xoş prosesdən xəbər verir. Amerikalılar necə deyirlər? Gördün müqavimət göstərmək alınmır, zövq al.

Əlbəttə, o boyda Amerika səfiri zövq almağa başlayıbsa, repressiv bir ölkədə hansısa stadionun qayırılmasını inkişaf adlandırırsa, biz nə karəyik zövq almayaq? Özü də qabaqkı səfirlər insan haqları pozulanda yalnız narahat olurdular, təzə səfir Cekuta müəllim isə həm narahat olur, həm həzz alır. Bir növ isti-soyuq duş kimi. Deyilənə görə, belə duş sağlamlığa xeyirdir. Suyumuz gəlsəydi bilərdik.

# "Nazirliklərin səlahiyyətlərinə yenidən baxılacaq, medianın rolu artırılacaq"

## Prezidentin ictimai nəzarətlə bağlı anonsuna maraqlı reaksiyalar

**"İdarəetmə sahəsində müsbət islahatlar aparılır. Mən burada ictimai nəzarətin əhəmiyyətini xüsusi qeyd etmək istəyirəm. İctimai nəzarət olmasa ölkəmiz uğurla inkişaf edə bilməz. Bir adam - prezident, yaxud da rəhbər işçilər hər bir sahəni daim diqqət mərkəzində saxlaya bilməz. Ona görə bəzi hallarda qanunsuzluqlar, qanun pozuntuları, sosial ədalətin pozulması halları baş verir. Bu, bizi çox üzür".**



**Zahid Oruc:**
"Parlamentə tərifə deyil, hesabata və imtahana çağırıldığını bilən heç bir məmur millət vəkilini aşağılamağa cəsarət etməzdi"



**Fazil Mustafa:**
"Əgər mediada yer alan neqativ hallarla bağlı dərhal reaksiya göstərilsəydi, faciəli halların qarşısı vaxtında alınardı"



**Aydın Mirzəzadə:**
"Bu prosesin uğurlu getməsinə dövlət öz tərəfindən həmişə dəstək olub, bundan sonra da dəstək davam etdiriləcək"

**Prezident İlham Əliyev bu fikirləri Respublika Günü münasibətilə keçirilən rəsmi qəbuldakı nitqində söyləmişdi. Dövlət başçısı qeyd edib ki, qanun pozuntularının, sosial ədalətsizliyin qarşısını almaq üçün mütləq çox güclü ictimai nəzarət olmalıdır. Belə olarsa, o zaman işlər daha sürətlə gedər və xoşagəlməz halların aradan qaldırılması üçün yeni mexanizm yarana bilər. Ölkə rəhbəri ardınca deyib:** "Burada əlbəttə ki, dövlət idarəetmə prinsiplərində ciddi islahatlar aparılmalıdır və eyni zamanda ictimaiyyət də fəal olmalıdır. Biz bunu son vaxtlar görürük. Bizim ictimaiyyət hər hansı bir yerdə qanunsuzluqlar, pozuntular, ədalətsizliklər baş verdikdə dərhal reaksiya verir. Mən bunu alqışlayıram. Bu, bizə kömək edir. Bu canlı bağlantı daim olmalıdır və gücləndirilməlidir".

Prezidentin ictimai nəzarətin zəruriliyi ilə bağlı dedikləri geniş müzakirəyə səbəb olub və bir sıra ekspertlər deyilənləri yeni mərhələnin anonsu kimi də dəyərləndirir. Ancaq bir məqama da diqqət yetirilməsi zəruri sayılır. Bir sıra müşahidəçilər prezidentin nəzərdə tutduğu ictimai nəzarətin icra olunmasında müstəsna rol oynaya bilən əsas subyektlərin - QHT, media və müxalifətin zəif durumda olmasını ciddi problem sayırlar. Hesab olunur ki, sözügedən subyektlərin zəifləmiş durumda olması ictimai nəzarətin normal şəkildə icrasında nəzərəçarpacaq dərəcədə ciddi problem yarada bilər. Elə isə ölkə rəhbərinin son bəyanatı hansı qənaətə gəlməyə əsas verir, hakimiyyət barəsində bəhs etdiyimiz sektorların inkişafı istiqamətində addımlar atacaq, yoxsa ictimai nəzarəti tətbiq etmək üçün ayrı mexanizmlər düşünülüb ortaya qoyulacaq?

**YAP-çı deputat Aydın Mirzəzadə yuxarıda barəsində bəhs olunan sektorların durumunun ürəkaçan olmaması fikri ilə razılaşmır:** "Azərbaycanda 50-dən artıq siyasi partiya qeydiyyatdan keçib, bunlar fəaliyyət göstərir, prezident, parlament və bələdiyyə seçkilərində öz güclərini göstərdilər. Onların fəaliyyətinə dövlət tərəfindən həmişə dəstək var. Dövlət heç kimin uğurunu təmin edə bilməz. Amma dövlət uğurlu fəaliyyət göstərmək üçün şərait yarada bilər. Azərbaycanda güclü QHT sektoru, QHT sektoruna dəstək üzrə Dövlət Şurası fəaliyyət göstərir, QHT-lərin fəaliyyəti üçün dövlət tərəfindən maliyyə ayrılır. Eyni şeyi mətbuat haqqında da demək olar. Bu baxımdan onların fəaliyyəti gün-gündən güclənir və cəmiyyətdə hər üçünün faktoru kifayət qədər etibarlı və gözəgörünəndir. Dövlət başçısı özünün bu müraciəti ilə bir daha göstərdi ki, həmin sahəyə ciddi fikir verir, bu sahənin inkişafda olmasında maraqlıdır. Bu prosesin uğurlu getməsinə dövlət öz tərəfindən həmişə dəstək olub, bundan sonra da dəstək davam etdiriləcək".

**BQP başqanı, deputat Fazil Mustafa bildirdi ki, ictimai nəzarət üçün qanunvericilikdə kifayət qədər normalar var:** "Hətta qanun qəbul etmişik ki, icra hakimiyyətləri, nazirliklər yanında ictimai şuralar fəaliyyət göstərməlidir. Burada ilk növbədə siyasi iradədən söhbət gedir. Bu iradə olacaqsa, nəzarət də olacaq. Burada medianın azadlığı problemi də gündəmə gəlir. Əgər mediada yer alan neqativ hallarla bağlı dərhal reaksiya göstərilsəydi, faciəli halların qarşısı vaxtında alınardı. Parlament də üzərinə düşəni etməlidir. Ancaq təəssüf ki, orada səsləndirilən fikirlərə də etinasız yanaşılır. Ona görə də ictimai nəzarətin həyata keçirilməsi imkanları olduqca azdır".

**Deputat Zahid Oruc bildirdi ki, dövlət başçısı "ictimai nəzarət" ideyasını növbəti dəfə gündəmə gətirməklə hakimiyyət institutlarının və vətəndaş cəmiyyətlərinin işinin arzuolunan səviyyəyə çatmadığını ifadə etdi:** "Əgər parlament hökumət strukturlarından qəbul etdiyi hesabatı daha aşkar və məsuliyyətli aparsaydı, geniş diskussiyalar və debatlar üçün mühit olsaydı, Hesablama Palatası vasitəsilə Milli Məclisə təqdim olunan maliyyə nəzarətinin nəticələrinə uyğun ciddi tədbirlər həyata keçirilsəydi, müvafiq nazirliklərlə birgə büdcə vəsaitləri və onun ünvanlı xərclənməsi yolunda sərt dinləmələr reallaşdırılsaydı, onda hüquqi aktların pozulmasına qarşı təsirli bir mexanizm məhz qanunverici orqanın hesabına formalaşmış olardı. Bu, qətiyyən güclü parlament təsisatı demək deyil. Yəni prezidentli üsul-idarəyə dayanan bir çox ölkələrdə hakimiyyətin 2-ci qolu idarəetmənin əsas yükünü öz üzərinə götürərək hökumətin fəaliyyətinə qarşı yaxşı çəkindirmə və balans formalaşdıra bilir. Təəssüf ki, son hadisələr fonunda həm də Milli Məclis vasitəsilə mühüm səlahiyyətlər əldə edən, lakin böhran situasiyalarında cavabdehlikdən yayınan, tender qanunlarına hörmətsizlik göstərən, maliyyə şəffaflığından kənarda qalan və nəticədə ictimai təhlükəsizliyə zərbə vuran halların Milli Məclisin effektli işləyəcəyi təqdirdə baş verməyəcəyinə hər kəs bir daha əmin oldu". **Z.Oruc bu məsələdə deputatın və məmurun da üzərinə düşən məsələlərin olduğunu vurğuladı:** "Axı uzun müddət telefon zənglərinə cavab verilmədiyindən şikayətlənən deputatlar bilməyiblər ki, hökumətin hər hansı təmsilçilərinin belə hərəkətləri təkcə amiranəlik və cəzasızlıq duyğusundan irəli gəlmir, həm də dövlət mənafeyinə həmin məmurların bəsit yanaşmasından qaynaqlanır. Çünki parlamentə tərifə deyil, hesabata və imtahana çağırıldığını bilən heç bir məmur millət vəkilini aşağılamağa cəsarət etməzdi". **Deputat qeyd etdi ki, ictimai nəzarətin ən mühüm qollarından biri də azad medianın inkişaf etdirilməsidir:** "İqtisadi bazası möhkəm olmayan, istənilən halda satılmağa hazır mətbuat siyasi iqtidarlar üçün təhlükə mənbəyidir. Ona görə də medianın maliyyə imkanlarını azad bazar münasibətlərinin tələbləri çərçivəsində genişləndirmək lazımdır. Bir sözlə, prezidentin mesajı təkcə rəsmi strukturların təqdim etdiyi məlumat, hesabat, təhlil və təkliflərlə deyil, eləcə də vətəndaşlardan alınan xəbərlərlə ölkəyə rəhbərlik etmək istəyinə xidmət edirdi. Deməli, müxtəlif nazirliklərin səlahiyyətlərinə yenidən baxılacaq, həmçinin parlamentin və medianın rolu artırılacaq. Bundan kənarda yeni nəzarət şuraları, yaxud federativ Rusiyada İctimai Palata formatlı təsisatların meydana çıxması onsuz da əhalinin 100 min nəfərinə düşən yüksək məmur sayını bir az da artıracaq və əlavə bürokratiya, gerçək mənzərəni təhrif edən növbəti nazirlik qazanacağıq. İnkişafın və böyük pulların indiki mərhələsində hakimiyyət idarəçilik fəlsəfəsini və metodlarını başqa bir relsə keçirməyi qət edəcək".

**❑ E.PAŞASOY**

## İrəvan daha bir iri regional layihədən kənarlaşdırılır



# İrandan işğalçı Ermənistanı üzəcək şok qaz anonsu

## Tehran öz mavi yanacağının təcavüzkar ölkədən yan keçməklə Avropaya çatdırılması variantına meyllənir; İran TANAP və TAP-a qoşula bilər; Ramazani: "Ən yaxşı marşrut Türkiyədir..."

**"İran Türk axını"na öz qazını Avropaya çatdıracaq marşrutlardan biri kimi baxır. Ancaq bu, yalnız nüvə proqramı ilə bağlı sanksiyalar aradan qalxdıqdan sonra mümkündür". Bu sözləri İran Milli Qaz Şirkətinin (İMQŞ) beynəlxalq əlaqələr üzrə direktoru Əzizulla Ramazini Parisdə dünya qaz konqresi çərçivəsində çıxışı zamanı deyib.**

"Bu mümkündür. Hələ ki heç bir danışıq aparılmayıb. Danışıqlara başlamaq yaxşı ideya olardı, çünki o məntəqə ki, ora Rusiya qaz kəmərinin, Türkiyə qaz kəmərinin çatması Avropaya sərf edir, İran qaz kəməri üçün də eyni rolu oynaya bilər" - bildirib Ramazini. Onun sözlərinə görə, bu zaman İran qaz kəmərinin Türkiyə hissəsindən və hətta Qara dənizdəki hissədən istifadə oluna bilər: "Məsələn, İran kəməri türk qaz kəmərinə qoşulmaq üçün Türkiyədən keçir. Başqa marşrutlar da nəzərdən keçirilə bilər. Ancaq ən yaxşı marşrut yəqin ki, Türkiyədir".

"Dəyərləndirmələr artıq başlayıb, çünki təhqiqat sanksiyalardan asılı olmayaraq istənilən vaxt aparıla bilər. Ancaq bu, müştəridən asılıdır. Müştəri isə - Avropadır. Avropa sanksiyaların götürülməsini gözləyir. Sonra onlar danışıqlara başlayacaqlar. Yalnız bundan sonra onlar Tehranla saziş imzalaya bilərlər" - əlavə edib İran İMQŞ rəsmisi.

*****

Bu açıqlamadan belə qənaət hasil olur ki, İran Avropanın Rusiya qazından asılılığına son qoyulmasında mühüm rol oynayacaq yeni və yan marşrutlara qoşulmaq niyyətində ciddidir və bu marşrut da əsasən Türkiyə olacaq. Yəni işğalçı Ermənistanın bu dəfə də böyük bir regional energetik layihədən kənarda qalacağı ehtimalı ciddi görünür.

Məntiqlidir. Ona görə ki, Tehran Avropaya doğru uzanacaq qaz kəmərinin Ermənistan variantının istər-istəməz siyasi məna daşıyacağının və həm Türkiyə, həm də Azərbaycanla İran arasında avtomatik yeni və izafi problemlər yaradacağının, həmçinin lüzumsuz əngəllər ortaya çıxaracağının fərqindədir. Sanksiyalardan təzəcə qurtulan bir ölkəyə isə belə maneələr gərək deyil.

Əksinə, rəsmi Tehran çox marağındadır ki, qısa zamanda regional və qlobal qaz təsərrüfatı sisteminə qayıdıb orada öz layiqli yerini tutsun, kasad büdcəsini zənginləşdirsin, ölkə daxilində on ildən çoxdur dondurulmuş böyük sosial layihələrə davam eləsin. Kəsəsi, Türkiyə marşrutuna üstünlüyü İranın dövlət maraqları diktə edir.

Bu xüsusda İran qaz kəmərinin ən təhlükəsiz, ən etibarlı, ən əlverişli *(rentabelli)* marşrutu kimi Türkiyəni seçəcəyi ehtimalı həqiqətən böyükdür. Tehranın məsələdə daha çox Avropanın, Qərbin maraqlarını ciddiyə alacağı da şəksizdir. Çünki Ramazaninin də vurğuladığı kimi, qazın alıcısı, müştəri - Avropadır.

*****

Avropa isə TANAP və TAP marşrutlarını müdafiə edir. Bakıda davam edən növbəti Beynəlxalq Neft-Qaz Sərgisindəki *("Caspian Oil and Gas 2015")* çıxışlar bunu bir daha təsdiqləyir. Məsələn, Azərbaycanın energetika naziri Natiq Əliyev dünən sərgi çərçivəsində təşkil olunan konfransda çıxışı zamanı bildirib ki, "proseslər bu cür davam etsə, İran TANAP-a qoşula bilər" (APA).

**Nazir deyib: "Gələcəkdə İran Trans-Anadolu Təbii Qaz Boru Xətti Layihəsinə (TANAP) qoşula bilər. İran öz qazını TANAP-la yanaşı, başqa yollarla da Avropaya ixrac edə bilər. Biz dəfələrlə şahidi olmuşuq ki, ABŞ Azərbaycanın enerji layihələrini dəstəklədiyini elan edib. Avropa Birliyi də Azərbaycanın və digər Xəzəryanı ölkələrin neft-qaz layihələrini dəstəkləyir. Avropa Komissiyasının vitse-prezidenti Maroş Şefçoviç tez-tez bizim tədbirlərdə iştirak edir, daim bizə öz dəstəyini göstərir. Bununla yanaşı, o, Türkmənistan qazının Avropaya nəqli üçün də öz dəstəyini əsirgəmir".**

Azərbaycanın neft naziri onu da qeyd edib ki, böyük enerji resurslarına malik İraq da ölkəmizlə əməkdaşlıqda maraqlıdır və o, Avropanın enerji təhlükəsizliyinin artırılmasında böyük rol oynaya bilər: **"Həmçinin, İsrail və Kipr öz qazını Azərbaycanın infrastrukturundan istifadə etməklə Avropaya ixrac edə bilər. Biz İsrail və Kiprlə danışıqlar aparmışıq. Onlar da gələcəkdə Türkiyə ərazisindən keçən Azərbaycan infrastrukturundan istifadə etməklə öz qazlarını Avropaya çıxara biləcəklərini deyirlər".**

Ancaq Tehran-İrəvan əlaqələrinin bəlli səviyyəsi nəzərə alınarsa, bizim üçün də, qardaş Türkiyə üçün ən önəmlisi təbii ki, məhz İranın TANAP və TAP-a qoşulmasıdır. O halda Azərbaycan və Türkiyəyə qarşı ərazi iddiaları ilə yaşayan bir ölkənin - işğalçı Ermənistanın tranzit qaz gəlirləri hesabına bir az da dirçələrək daha aqressiv mövqe tutması xeyli dərəcədə əngəllənərdi.

Yeri gəlmişkən, Ermənistan İran qaz kəməri üçün tranzit ölkə olmağa çox ümidlidir və niyyətini gizlətmir də. Bu mənada qaz layihələrində iki açar ölkə kimi Türkiyə və Azərbaycanın məsələdə ortaq və prinsipial mövqe tutması olduqca vacibdir. Ermənistan yalnız bir şərtlə belə iri qaz layihəsinə cəlb edilə bilər - Azərbaycana qarşı işğala son qoysun və qardaş ölkəyə iddialarından, o sırada saxta genosid tələblərindən əl çəksin.

Zatən, bu ədalətli şərti Bakı və Ankara illərdir İrəvana çatdırır. Bəlkə bu dəfə eşidildi və heç olmasa, sonuncu böyük regional layihədən kənarda qalmamaq üçün ermənilər özlərində iradə, təpər tapdılar. Hələ vaxta var...

*****

Xatırladaq ki, TANAP çərçivəsində Türkiyəyə qaz nəqlinə 2018-ci ildə başlanması planlaşdırılır. İlkin olaraq ildə 16 milyard kubmetr təşkil edəcək nəql həcminin mərhələli surətdə əvvəlcə 24 milyard kubmetrə, daha sonra 31 milyard kubmetrə yüksəldilməsi nəzərdə tutulur. 1850 kilometrlik TANAP xətti 2020-ci ilin əvvəlindən etibarən Trans-Adriatik Təbii Qaz Boru Xəttinə (TAP) bağlanaraq Cənubi Qafqaz Boru Xətti vasitəsilə alacağı təbii qazı Yunanıstan, Albaniya və İtaliya üzərindən Avropaya çatdıracaq.

**TANAP 10-11 milyard dəyərində qiymətləndirilir. Layihədə Azərbaycan ("Cənub Qaz Dəhlizi" şirkəti) 58, BOTAŞ 30, bp isə 12 faiz paya malikdir.**

❑ Siyasət şöbəsi




# "Vaşinqton Bakıya qarşı "yumşaq güc" taktikasından istifadə edir"

## Ərəstun Oruclu: "Bundan sonra - yəni tərəfdaşlıq münasibətləri bitəndə təbii ki, daha sərt üsullar gündəmə gəlir"

**ABŞ-Azərbaycan münasibətlərinin soyuqlaşması son aylarda artıq açıq şəkildə büruzə verilir. Halbuki daha əvvəl müəyyən mənada münasibətlərdəki soyuqluq diplomatik dillə ifadə olunurdu. Lakin son dövrlərdə artıq Vaşinqton Bakıdan narazılığını açıq şəkildə bildirməyə başlayıb. Məsələn, Dövlət Departamenti rəsmisinin Bakıya nəzərdə tutulan səfərinin ləğv olunması və bunun Vaşinqtonun "dialoqun səmərəli olacağını düşünmədiyi" üçün etməsi açıqlandı.**

Bugünlərdə isə Prezident Administrasiyası rəhbərinin müavini, xarici əlaqələr şöbəsinin müdiri Novruz Məmmədov ATƏT-in Azərbaycandakı nümayəndəsi Aleksis Şahtaxtinskinin fəaliyyət mandatının dayandırılmasının Vaşinqtonun istəyi ilə baş tutduğunu iddia edib. N.Məmmədov yazıb ki, A. Şahtaxtinskinin İlham Əliyevlə şəkil çəkdirməsi onun Bakıdakı fəaliyyətinə son qoyulmasına səbəb olub. Bakı-Vaşinqton münasibətlərinin soyuq olduğunu göstərən daha bir fakt isə Bakıda keçirilən ənənəvi neft-qaz sərgisinə ABŞ rəsmilərinin qatılamaması və ABŞ prezidentinin hər il göndərdiyi təbrik məktubunun bu il olmaması idi.

Doğrudur ki, Vaşinqtondan Bakıya insan haqları, media azadlığı, demokratiya ilə bağlı tənqidlər olub. Lakin Vaşinqtondan Bakıya yönəlik bu cür diplomatik təpkilər yenidir. Belə görünür ki, Vaşinqton sanki Bakıya soyuq üzünü göstərməyə çalışır. **Politoloq Ərəstun Oruclu** deyir ki, münasibətlərdə soyuqluq olsa da, Vaşinqton hələ də Bakı ilə ənənəvi müttəfiq davranışını davam etdirir. Azərbaycan hakimiyyətinə qarşı bu cür diplomatik jestlər Vaşinqtonda Bakıya münasibətə ovqatı çatdırmaq məqsədi daşıyır: "Vaşinqtonun tərəfdaş saydığı dövlətlərlə münasibətdə bir, tərəfdaş olmayan, rəqib və ya düşmən olan ölkələrlə münasibətdə başqa taktikası var. Məsələn, baxmayaraq ki, Vaşinqton Azərbaycan hökuməti ilə məsafə saxlamağa başlayıb, - kimsə razılaşmaya bilər, amma bunun əlamətləri açıq-aşkar görünür - ancaq əlaqələr hələ də tərəfdaş münasibətləri taktikasına uyğundur. Vaşinqtonun xarici siyasətində iki yanaşma var: "Yumşaq güc" və "kobud güc". Müttəfiqlər, tərəfdaşlarla münasibətdə əsasən həmin o "yumşaq güc"dən istifadə olunur. Deyək ki, hansısa bəyanatlar, diplomatik jestlərdi, müəyyən tənqidi qeydlər, hətta bəzən sərt bəyanatlar, bu və ya digər əməkdaşlıq məsələlərinə yenidən baxılmasıdır. Hazırda Vaşinqtonun Bakıya münasibətdə bu xətti davam edir. Amma eyni zamanda həm də bitmək üzrə olduğu görünür. Məsələn, əvvəl belə bir hal olmayıb ki, Vaşinqton Azərbaycana planlaşdırılan səfəri ləğv eləsin və bildirsin ki, artıq buna ehtiyac yoxdur. Yəni bu, mənim fikrimcə, ciddi xəbərdarlıqdır".

**Ə.Oruclu deyir ki, Bakıdakı neft-qaz sərgisinə ABŞ prezidentinin təbrik məktubu göndərməməsi və digər jestlər "yumşaq güc" taktikasına daxildir. Ekspert hələlik Bakı-Vaşinqton münasibətlərinin düşmən və ya rəqib münasibətləri çərçivəsində olmadığını düşünür:** "Eyni zamanda son aylarda Bakının ünvanına insan haqlarının durumu ilə bağlı tənqidlərin də sayı artmaqdadır. Bir çox misallar qeyd etmək olar, lakin istənilən halda dediyim kimi, hələlik Vaşinqton Bakıya qarşı "yumşaq güc" taktikasından kənara çıxmayıb. Çünki "yumşaq güc"dən kənara çıxanda, artıq tərəfdaşlıq münasibətləri bitəndə, təbii ki, daha sərt üsullar gündəmə gəlir. Bura sanksiyalar, müxtəlif təsir rıçaqlarıdır ki, Vaşinqtonun əlində bunlar qeyri-məhdud sayda mövcuddur. FİFA rəsmilərinin həbsi, eləcə də Rusiyaya tətbiq olunan sanksiyaları götürək. Yəni bu istiqamətdə Vaşinqtonun imkanları qeyri-məhdud saydadır.

Görünür, hələlik Vaşinqton Azərbaycanı tərəfdaş kimi görməkdə davam edir. Və çalışır ki, bu situasiya, yəni Azərbaycan hakimiyyətinin mövqeyi dəyişsin. Bu sahədə müəyyən irəliləyiş olması üçün Vaşinqton Bakı ilə müəyyən qədər məsafə yaratdı və Rusiya ilə üz-üzə buraxdı.

Əlbəttə, istənilən an Vaşinqton Bakının müdafiəsinə qalxacaq. Bu məsələdə hər şey Bakının özündən asılıdır. Yəni Azərbaycan hakimiyyəti bunu nə dərəcədə istəyəcək, arzulayacaq. Yəni Vaşinqton Bakını Rusiya qarşısında bir qədər yalnız buraxıb ki, başa düşsün ki, Vaşinqton ona lazımdır. Yəni bu günə qədər Bakıda Vaşinqtonla müttəfiqlik lazımi qədər dəyərləndirilmirdi. Nəzərə almırdılar ki, Moskvanın təzyiqlərinin artmamasının arxasında müəyyən qədər Vaşinqtonla tərəfdaşlıq faktoru da dayanırdı. İndi Vaşinqton kənara çəkildi ki, görün özünüz nə edirsiniz. Təxminən vəziyyət bu cürdür".

❑ KƏNAN

# Avropadakı diplomatımızın statusu aranı qatdı

## Arif Məmmədovun “3 gün Azərbaycanda qaldım, mən qocaldım” sözlərinə YAP-çı deputatdan sərt cavab: “Azərbaycan haqqında belə söz deyirsə, o, yalnız erməni ola bilər”

**İslam Əməkdaşlıq Təşkilatının Avropa İttifaqı yanında daimi müşahidəçi missiyasının rəhbəri vəzifəsində çalışan Arif Məmmədovun sosial şəbəkədə yazdığı iddia edilən status ciddi qalmaqal yaradıb. A. Məmmədov facebook sosial şəbəkəsindəki səhifəsində yazdığı statusunda Binəqədi rayonunda binada baş verən yanğını nəzərdə tutaraq bunun hər bir azərbaycanlının kədəri və faciəsi olduğunu yazıb. Onun statusunda baş verən hadisəyə görə məmurların ünvanına kəskin ittihamlar da qeyd edilib. O, səhifəsində “3 gün Azərbaycanda qaldım, mən qocaldım” sözlərini də yazıb.**

### Arif Məmmədov kimdir?

Arif Məmmədov 1964-cü il sentyabrın 22-də anadan olub. 1983-1988-ci illərdə Moskva Hərbi Xarici Dillər İnstitutunda təhsil alıb. 2000-ci ilin may ayından 2006-cı ilin noyabr ayınadək Brüsseldə Azərbaycanın Avropa İttifaqı yanında nümayəndəliyinin rəhbəri işləyib. 2007-ci ilin yanvarından 2012-ci ilin sentyabrınadək Strasburqda Azərbaycanın Avropa Şurası yanında daimi nümayəndəsi olub. 2012-ci ilin sentyabrında prezident onun Azərbaycanın Avropa Şurası yanında daimi nümayəndəsi vəzifəsindən geri çağırılması haqqında sərəncam imzalayıb. 2013-cü ilin iyun ayından etibarən Brüsseldə yerləşən İslam Əməkdaşlıq Təşkilatının Avropa Birliyi yanında nümayəndəliyinin rəhbəri və bu təşkilatın ilk səfiridir.

O, 2008-2012-ci illərdə Avropa Verqeland Mərkəzinin Direktorlar Şurasının üzvü olub. Osloda əsaslanan bu təşkilat mədəniyyətlərarası bilik, insan hüquqları və demokratik vətəndaşlıq mərkəzi kimi fəaliyyət göstərir.

“Uzun müddət Azərbaycanın Avropa İttifaqında nümayəndəliyinin rəhbəri, Avropa Şurası yanında daimi nümayəndəsi, indi isə İslam Əməkdaşlıq Təşkilatı yanında nümayəndəsi Arif Məmmədov Azərbaycan xalqına qarşı hörmətsizlik edib. Buna görə də o, dərhal tutduğu vəzifədən geri çağırılmalı və ona verilən bütün diplomatik titullar alınmalıdır”.

Bunu “Trend”ə Yeni Azərbaycan Partiyasının icra katibinin müavini, deputat Siyavuş Novruzov deyib.

**S.Novruzov bildirib ki, qanında, canında azərbaycanlı qanı olan bir insan bu cür həqarətlə azərbaycanlıları, öz ölkəsini, öz millətini təhqir edə bilməz:** “Bu adamın qanında erməni qanı var. O deyir ki, ”3 gün Azərbaycanda qaldım, mən qocaldım". 20 il Azərbaycanın dövlət vəsaiti hesabına, Azərbaycan vətəndaşlarının verdiyi vergilər hesabına 100 min avrodan bahalı maşında gəzən, uşaqlarını bahalı məktəblərdə oxutduran, ailəlikcə müxtəlif istirahət mərkəzlərində dincələn və Azərbaycan Respublikasından əmək haqqı alan bu adam Azərbaycan haqqında belə söz deyirsə, o, yalnız erməni ola bilər".


Arif Məmmədov

**Deputat deyib ki, bu cür adamın diplomatik vəzifədə çalışması Avropa Şurası, Avropa Parlamenti tərəfindən anti-Azərbaycan bəyanatlarının yayılmasının başında kimin durduğunu bəlli edir:** “Bu adam özü Azərbaycan haqqında bu cür düşündüyü halda Avropa İttifaqında, Avropa Şurasında Azərbaycan haqqında hansı təbliğatı apara bilər? Avropadan gələn bütün insanlar, turistlər, beynəlxalq tədbirlərdə iştirak etmək üçün gələn dövlət adamları, prezidentlər Azərbaycanın nə qədər inkişaf etdiyini, Bakının, Azərbaycanın regionlarının nə qədər gözəlləşdiyini qeyd etdikləri halda, Azərbaycanın səfiri burada 3 gün yaşayanda qocalması barədə bəyanat yayır. Azərbaycanın sosial-iqtisadi inkişafını, Azərbaycanda tikilmiş üç mindən artıq məktəbi, 500-dən artıq xəstəxananı, yüzlərlə uşaq bağçasını, yeni tikilən yolları, körpüləri ya bunun gözü görmür, ya da görmək istəmir, çünki qanında erməni qanı var”.

**S.Novruzov daha irəli gedərək deyib ki, A.Məmmədovun Azərbaycan haqqında çıxışı Zori Balayanın çıxışı ilə eynidir:** “Bu düşüncənin sahibi ancaq erməni ola bilər. Buna görə də o, dərhal geri çağırılmalı, tutduğu vəzifədən azad edilməli və ona verilmiş bütün diplomatik rütbələr əlindən alınmalıdır”.

**Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev Arif Məmmədov tərəfindən sosial şəbəkələrdə yazılmış statusla bağlı KİV-də gedən məlumatları şərh edib.**

**“Biz məlumatla tanış olduq. Xarici İşlər Nazirliyinin daxili prosedurlarına uyğun olaraq, məsələ tam şəkildə araşdırılacaq. Məlumat öz təsdiqini taparsa, bu, diplomat adına və adi etik qaydalara yaraşan hal deyil, qəbuledilməzdir, məsuliyyətsiz və qeyri-peşəkar davranışdır” deyə, H. Hacıyev bildirib.**

❑ Xəbər xidməti

# “Saakaşvili uğur qazanmalıdır, əks halda, Ukrayna zərbə alacaq”

## Elxan Şahinoğlu: “Onun uğuru Rusiyanın geosiyasi maraqlarını neytrallaşdırmağa çalışan bütün ölkələr üçün vacibdir...”

**Ötən həftə Ukrayna prezidenti tərəfindən Odessa vilayətinin qubernatoru təyin edilən Gürcüstanın sabiq prezidenti Mixail Saakaşvili kadr islahatlarını başladıb. Vəzifəyə təyin olunduqdan dərhal sonra qubernator administrasiyasında kadr dəyişikliyi edən Saakaşvili indi də vilayətə daxil olan rayon rəhbərlərini yeniləməyə hazırlaşır. Artıq 27 rayon rəhbərindən 24-nü istefaya göndərən yeni qubernator deyib ki, işə qəbul müsabiqə yolu ilə aparılacaq.**


Mixail Saakaşvili

Bəllidir ki, Saakaşvili Gürcüstanda prezident seçildikdən sonra Qərb ölkələrindən olan mütəxəssislərin dəstəyi ilə ölkədə ciddi islahatlar həyata keçirib, korrupsiyanı aradan qaldırıb, polis, gömrük sistemini tamamilə yenidən qurub və rüşvətxorluğu aradan qaldırıb. Məhz bu uğurlu təcrübədən sonra Gürcüstan korrupsiyanın səviyyəsinə və iqtisadi azadlıqların səviyyəsinə görə regionun öndə gedən ölkəsinə çevrilib.

İndi isə onun Gürcüstanda topladığı təcrübəni Ukraynada, özü də ən çox korrupsiyalaşmış, rüşvətin geniş yayıldığı liman şəhəri Odessada tətbiq etmək kimi bir vəzifəsi var. Saakaşvilinin məhz Odessaya təyin olunmasının və fəaliyyəti bir əyalətdən başlaması müşahidəçilərə görə, Ukraynada siyasi təcrübə xarakteri daşıyacaq. Və təbii ki, müsbət nəticə verəcəyi təqdirdə təcrübə digər regionlara da yayılacaq. Bəs indiki şərtlərdə Saakaşvili bunu bacara biləcəkmi?

**Ukraynadakı siyasi və hərbi prosesləri yaxından izləyən politoloq Elxan Şahinoğlu deyir ki, Saakaşvili Odessada uğur qazanmalıdır, əks təqdirdə, Ukraynanın yeni hakimiyyəti dərin bir uğursuzluq zolağına düşə bilər:** “Mixail Saakaşvilinin Odessada uğur qazanmaqdan başqa alternativi yoxdur. Əks təqdirdə, onun uğursuzluğu birincisi, Moskvanın qələbəsi olacaq və separatizmin Ukraynanın mərkəzlərinə doğru irəliləməsinə yol açacaq, ikincisi, prezident Pyotr Poroşenkoya inamı azaldacaq. Fikrimcə, Saakaşvili bunu yaxşı anlayır və ona görə də təyinatının ilk günündən qollarını çırmalayaraq işə girişib”.

**E.Şahinoğlu nikbindir və Saakaşvilinin ciddi dəyişikliklərə nail olacağına inanır:** “Saakaşvilinin birinci vəzifəsi Odessada korrupsiyanın miqyasını azaltmaqdır. Əgər o, buna Gürcüstanda nail oldusa, Odessada da nail ola bilər.

Gürcüstanın keçmiş prezidentinin ikinci vəzifəsi oliqarx İqor Kolomoyskinin Odessadakı kriminal şəbəkəsini neytrallaşdırmaqdır. Saakaşvili bu məqsədlə Odessada geniş özəlləşdirmə həyata keçirməlidir. Saakaşvilinin qarşısında duran üçüncü vəzifə Odessaya xarici investisiyaları cəlb etməkdir ki, böyük şirkətlər dövlət müəssisələrinin özəlləşdirilməsində iştirak etsinlər".

**Şahinoğluna görə, əgər Saakaşvili bu işləri həyata keçirə bilsə, Odessada sosial durum normallaşacaq, insanların həyat şəraiti yaxşılaşacaq. Bu isə vilayətdə separatizmə və Rusiyanın “5-ci kolon”una ciddi zərbə olacaq. Ancaq politoloqa görə, bu heç də asan olmayacaq:** “Əlbəttə, Saakaşviliyə çətin olacaq, ancaq onun fəaliyyəti nəticəsində Odessanın inkişaf adasına çevrilməsi mümkündür. Məsələn, Kiyevdə həyat ağırlaşsa da, Lvov vilayətində iqtisadi durum yaxşıdır. Çünki Lvov meri vaxtilə çox uğurlu islahatlar aparıb, turizm və digər sahələr hesabına inkişafa nail olub. İndi həmin mer Ukraynanın ən reytinqli siyasətçilərindəndir. Saakaşvilinin Odessadakı uğuru tək Ukrayna üçün deyil, Rusiyanın geosiyasi maraqlarını neytrallaşdırmağa çalışan bütün ölkələr üçün vacibdir”.

❑ KƏNAN

# ABŞ səfiri Obamanın niyə məktub göndərmədiyindən danışmadı

## Robert Sekuta: “Demokratiya və vətəndaş cəmiyyətləri ilə bağlı birgə komissiyanın yaradılmasının dəqiq vaxtı barədə danışıqlar aparırıq”

**Xəbər verdiyimiz kimi, iyunun 2-də Bakıda “Caspian Oil and Gas-2015" sərgisi açılıb. İyunun 5-dək davam edəcək tədbirdə nədənsə Amerika rəsmi nümayəndələri gözə dəyməyib. O cümlədən məlum olub ki, bu tədbirə ABŞ prezidenti ənənəvi məktub belə göndərməyib. Bu barədə ”Yeni Müsavat"ın sorğusuna ABŞ-ın Bakıdakı səfirliyi dəqiq cavab verməyib. Məlum olub ki, iyunun 2-də Amerika Birləşmiş Ştatlarının və Böyük Britaniyanın Azərbaycandakı səfirlikləri Bakıda keçirilən neft-qaz sərgisi ilə bağlı qəbul təşkil edib. Tədbirdə Azərbaycanda akkreditə olunmuş diplomatik korpus nümayəndələri, dövlət, hökumət nümayəndələri və digər qonaqlar iştirak edib.**

Açılış nitqi ilə çıxış edən ABŞ-ın Azərbaycandakı səfiri Robert Sekuta sərginin çox böyük əhəmiyyəti olduğunu vurğulayıb. O bildirib ki, ABŞ regional, Avropa və qlobal səviyyədə enerji təhlükəsizliyini təmin etmək üçün Azərbaycanla əməkdaşlığa davam edəcək. Səfir ölkəsinin bu əməkdaşlıqdan məmnun olduğunu söyləyib.

ABŞ səfiri R. Sekuta deyib ki, Azərbaycan enerji təchizatında mühüm rol oynamaqla yanaşı regionun, Avropanın və dünyadakı insanların rifahının yaxşılaşdırılmasına kömək edir.

“Son hadisələr enerji təhlükəsizliyinin əhəmiyyətini və hökumətlərin bundan əmin olmadığını xatırladır. Biz regional, Avropa və qlobal səviyyədə enerji təhlükəsizliyini təmin etmək məqsədilə Azərbaycanla əməkdaşlıq edirik. Tarixə nəzər salsaq görərik ki, Azərbaycan yüz ildən çox etibarlı enerji istehsalçısı və təchizatçısı kimi mühüm rolunu dəfələrlə nümayiş etdirib. Azərbaycanın enerji inkişafının növbəti mərhələsinə töhfə vermək naminə Azərbaycan hökuməti, SOCAR və digər tərəfdaşlarla əməkdaşlıqdan məmnunam” deyə, səfir Sekuta qeyd edib.


Robert Sekuta

ABŞ səfiri jurnalistlərə bildirib ki, ABŞ Azərbaycanla iqtisadiyyatın inkişafı və enerji təhlükəsizliyi sahəsində əməkdaşlıq edir.

**Səfir Sekuta “Turan”ın “ilk dəfə olaraq ABŞ prezidentinin neft-qaz sərgisinə təbrikini eşitmədik və bu, ölkələr arasında gərginlikdən xəbər vermirmi” sualının cavabında deyib ki, iki ölkə arasında 20 ildən artıqdır münasibət var:** “Bizim ölkəmiz 20 ildən artıqdır ki, Azərbaycana neft və indi də qaz resurslarının hasilatında, nəqlində köməklik göstərir. Burada söhbət kəmərlərin çəkilməsi, onların istehlakçılara çatdırılmasından gedir. Biz bu sahədə çox sıx əməkdaşlıq edirik və bizim ölkəmiz Azərbaycanın bu işdə oynadığı rolu yüksək qiymətləndirir”.

**R.Sekuta “Turan”ın demokratiya və insan hüquqları sahəsində iki ölkə arasındakı əlaqələr və dövlət katibinin köməkçisi Viktoriya Nulandın iki ölkə arasında birgə komissiyanın yaradılacağı barədə bəyanatı ilə bağlı suallarına da cavab verib.**

“Mən dəfələrlə qeyd etmişəm ki, iki ölkə arasındakı münasibətlər üç eyni əhəmiyyət daşıyan sahəni əhatə edir. Bunlardan demokratiya, insan haqları, təhlükəsizlik və iqtisadiyyatı qeyd edə bilərəm. Fevral ayında xanım Nuland Azərbaycan prezidenti ilə görüşündə insan haqları, demokratiya, vətəndaş cəmiyyətləri ilə bağlı birgə komissiyanın yaradılması barədə fikir mübadiləsi aparıb. Hazırda həmin komissiyanın yaradılmasının dəqiq vaxtı barədə danışıqlar aparırıq” deyə, o qeyd edib.

❑ Xəbər xidməti

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi

# Qarabağ döyüşçülərinin erməni idmançılarla bağlı mövqeyi rezonans doğurdu

**Qarabağ döyüşçülərinin koordinasiya şurasının işçi qrupu qarşıdan gələn Birinci Avropa Oyunları və Qarabağ müharibəsi ilə bağlı səngər yoldaşlarına müraciət ünvanlayıb. Bu barədə işçi qrupunun yaydığı məlumatda deyilir. Müraciətdə erməni idmançılarının Bakıdakı yarışlara qatılmasına fərqli münasibətin olması xüsusi olaraq nəzərə alınıb.**

**Sözügedən müraciətdə deyilir:** "Əziz döyüşçü dostlarımız! Bilirsiniz ki, iyunun 12-də Azərbaycanda Birinci Avropa Oyunlar start götürəcək. Bu beynəlxalq yarışmada Azərbaycan torpaqlarının 20 faizini işğal eləmiş, qız-gəlinlərimizi əsir götürmüş, yurdumuzu viran qoymuş, minlərlə günahsız insanı vəhşicəsinə qətlə yetirmiş Ermənistanın idmançıları da iştirak edəcək. Düşmənlərimizin Bakıya gələcəyi xəbəri Azərbaycan ictimaiyyəti tərəfindən birmənalı qarşılanmadı. Məsələni təqdir edənlərlə, ümumiyyətlə, susqunluqla qarşılayanlarla yanaşı, buna ciddi etiraz edənlər də oldu. Etiraz edənlər sırasında Qarabağ müharibəsinin odundan, alovundan keçmiş döyüşçülərimiz də var. Biz Qarabağ döyüşçülərinin koordinasiya şurasının yaradılması ideyasının müəllifləri də erməni idmançılarının Bakıya gəlməsinə etiraz edirik. Bundan narazıyıq! Amma unutmayaq ki, bu, bir beynəlxalq idman yarışmasıdır, sülhün, barışın rəmzidir, bunun da öz qaydaları, şərtləri var".

**Keçmiş döyüşçülər qeyd ediblər ki, bu yarışlar Azərbaycan üçün, ələlxüsus Qarabağ probleminin həlli yolunda diplomatik üstünlüklər əldə etmək üçün çox böyük siyasi imkanlar yaradır:** "Azərbaycanın beynəlxalq aləmdəki imicini də nəzərə almalıyıq. Digər tərəfdən, hər birimiz Azərbaycan prezidenti, Ali Baş Komandan kimi İlham Əliyevin çağırışı ilə Qarabağın işğaldan azad olunması ilə başlayacaq əməliyyatların potensial iştirakçıları olacağıq. Yəni biz bir vətən əsgəri kimi Ali Baş Komandanın əmrini gözləyirik. Və həmin Ali Baş Komandan bu gün ermənilərin Bakıya gəlməsinə razılıq verib. Biz bütün bunları nəzərə alıb, ermənilərin Bakıya gəlişinə mane olacaq heç bir addım atmırıq və atılacaq addımlara da qoşulmuruq. Əksinə, bütün Qarabağ döyüşçülərini dövlətimiz və xalqımız naminə bu beynəlxalq idman yarışlarında səbirli, təmkinli və ayıq-sayıq olmağa çağırırıq!"

**Qarabağ döyüşçüləri Vətən torpaqlarının azad olunması üçün konkret hərəkətə keçiləcəyini bildirib:** "Birinci Avropa Oyunları bitəndən sonra biz Qarabağ döyüşçülərinin ümumrespublika toplantısını çağırmaq üçün silahdaşlarımızın ümumi rəylərini öyrənməyə başlayacağıq. Həmin toplantıda işğal altındakı torpaqlarımızın işğaldan azad olunması naminə hərbi əməliyyatlara başlaması üçün Ali Baş Komandana ünvanlanacaq müraciət qəbul edilməsi də müzakirə ediləcək. Döyüşçülər olaraq bizə şərəf gətirəcək, itirilmiş heysiyyətimizi özümüzə qaytara biləcək sabahkı döyüşlərin başlayacağı anı səbirsizliklə gözləyirik!"



**Üzeyir Cəfərov:**
"Əgər işğala son qoyulmasa, biz Ali Baş Komandandan xahiş və tələb edəcəyik ki, məsələnin birdəfəlik həll olunması üçün qərar versin"



**Akif Nağı:**
"Hamının sözü bir olmalıdır: "Erməni! Sən idmançı deyilsən! Sən işğalçısan, terrorçusan! Rədd ol!""

Müraciəti Azərbaycan Vətən Müharibəsi Veteranları Birliyinin (AVMVB) sədri Füzuli Rzaquliyev, "Qarabağ qaziləri" birliyinin sədri Etimad Əsədov, "Vətən Müharibəsi Əlilləri" birliyinin sədri Firudun Məmmədov, AVMVB sədr müavini Kamil Şirinov, hərbi jurnalist Üzeyir Cəfərov, tanınmış müharibə veteranları Vaqif Əlisoy, Camal Əhmədov, Habil Şirinov, Tərlan Eyvazov, Qalib Rəhimov, Arif Paşa, Rafiq Kərimov, Nurəddin Xoca, Azay Kərimov, Nazim Bayramov, Abuzər Abuzərov və Rey Kərimoğlu imzalayıb.

***

**QAT sədri Akif Nağının isə erməni idmançıların Bakıya gəlişinə münasibəti fərqlidir:** "Mən Qarabağ döyüşçülərinin bu müraciətini yersiz və zərərli hesab edirəm... Əslində kimisə ittiham etmək fikrində deyiləm. Sadəcə, istəyirəm insanlar gedən proseslərin mahiyyətini başa düşsünlər. Ermənilər hesab edirlər ki, müharibənin 1-ci mərhələsini udublar, Qarabağın xeyli hissəsini ələ keçiriblər. İndi də ikinci mərhələdə həmin "qələbəni" möhkəmləndirmək istəyirlər. Bunun üçün isə "xalq diplomatiyası" deyilən oyunlardan, o cümlədən Bakıya səfərlərdən istifadə edirlər. Mən erməni idmançılarının bu səfərinə hamını fəal etiraz etməyə, ən müxtəlif aksiyalar keçirməyə çağırıram. Hamının sözü bir olmalıdır: "Erməni! Sən idmançı deyilsən! Sən işğalçısan, terrorçusan! Rədd ol!""

**Ancaq keçmiş döyüşçülərin müraciətində də ermənilərin Bakıya gəlişinə etiraz ifadə olunub. Qarabağ qaziləri düşmənlə idman meydançasında deyil, döyüş meydanında üz-üzə gəlməyi, torpaqların işğaldan azad edilməsi üçün Avropa Oyunlarından sonra hərəkətə keçməyi vacib saydıqlarını da bildiriblər. Müraciət müəlliflərindən biri, ehtiyatda olan polkovnik-leytenant, Qarabağ döyüşçüsü Üzeyir Cəfərov "Yeni Müsavat"a bildirdi ki, bu mövqeyin hazırlanması prosesi çox gərgin müzakirələrdən keçib, bütün dəlillər, səslənə biləcək etirazlar nəzərə alınıb:** "Prinsip etibarilə biz keçmiş döyüşçülər olaraq dövlətin apardığı xətti dəstəkləyirik və dövlətə, onun apardığı siyasətə sadiqik. Amma biz düşmənlə döyüş meydanlarında üz-üzə gəlməyin tərəfdarıyıq. Düşmən torpaqlarımızı işğal edərkən bizə mənəvi xətər yetirib, 20 ildən çoxdur ki, bu işğal davam edir. Bu mənada ermənilərin Azərbaycanda olmasına təbii ki, biz də hiddətlənirik və buna etiraz edirik. Bu, tam normal yanaşmadır. Düşünmürəm ki, bu gün Rusiya idmançıları Ukrayna, yaxud Ukrayna idmançıları Rusiya ərazisində keçirilən hansısa beynəlxalq yarışlarda böyük həvəslə iştirak etmək istəsin. Eyni zamanda etiraz etməklə yanaşı, biz Ali Baş Komandanın qərarına hörmət əlaməti olaraq dözüm nümayiş etdirməyə çalışırıq".

**Ü.Cəfərov bildirdi ki, Avropa Oyunları başa çatandan sonra növbəti müraciətin olacağı barədə anonsu da unutmaq olmaz:** "Biz Ümumrespublika Müşavirəsinin çağırılmasını və Ali Baş Komandandan beynəlxalq təşkilatlar qarşısında erməni işğalına son verilməsi məsələsini qəti şəkildə qoymasını istəyəcəyik. Prezident başda olmaqla, bütün rəsmilər, dövlət qurumları eyni mövqedədir ki, Azərbaycanın ərazi bütövlüyü həll olunmalıdır. Əgər işğala son qoyulmasa, biz öz komandirimizdən, Ali Baş Komandandan xahiş və tələb edəcəyik ki, bu məsələnin birdəfəlik həll olunması üçün qərarını versin. Çünki biz Qarabağ torpaqlarının Zəngəzur və Göyçənin taleyini yaşamasına, məsələnin həllinin gələcək nəslə qalmasına razı ola bilmərik".

**Keçmiş döyüşçü QAT sədrinin mövqeyinə toxunaraq müraciətlərinin anlayışla qarşılanmasını istədi:** "Əgər biz düşmənə imkan verməsək, bundan bizim əleyhimizə istifadə edər və anti-Azərbaycan kampaniyası üçün fürsət tapmış olar. Digər tərəfdən, biz erməni idmançıların Bakıdakı yarışlarda iştirakına normal yanaşmaqla həm də onu demək istəyirik ki, bizim ermənilərlə əbədi düşmənçilik etmək fikrimiz yoxdur. Yetər ki, ermənilər havadarlarının yardımı ilə işğal etdikləri Azərbaycan torpaqlarını azad etsinlər, dinc-yanaşı yaşamaq üçün normal mühit yaransın. Həm də işğalçı ölkə anlamalıdır ki, nə ermənilər burdan köçən deyillər, nə də Azərbaycan onun ərazisində ikinci erməni dövlətinin yaradılmasına imkan verməyəcək".

# ABŞ-dan separatçı rejimə maliyyə yardımı layihəsi

**ABŞ Konqresi Ermənistana və separatçı Dağlıq Qarabağ rejiminə 2016-cı ildə ayrılacaq maliyyə yardımını müzakirə edəcək. Moderator.az erməni mətbuatına istinadən bu barədə məlumat yayıb. Müzakirələr Konqresin Nümayəndələr Palatasında aparılacaq. Amerikada fəaliyyət göstərən erməni lobbisi cidd-cəhdlə çalışır ki, separatçı rejimə 5 milyon dollar, Ermənistana isə 40 milyon dollar vəsait ayrılsın.**

Erməni lobbisi eyni zamanda Suriyadan olan milliyyətcə erməni qaçqınlarının Ermənistanda məskunlaşması üçün ünvanlı yardımın və Gürcüstanın Samçxe-Cavaxetiya bölgəsində kompakt yaşayan ermənilərə də maliyyə yardımının ayrılması üçün Konqresə müraciət edib və bu istiqamətdə fəaliyyət göstərir.

Qeyd edək ki, bundan əvvəl rəsmi Bakı dəfələrlə ABŞ hökumətinin işğalçı ölkəyə və separatçı rejimə maliyyə yardımı ayırmasına etiraz edib. ABŞ-ın ölkəmizdəki səfirliyi isə "Yeni Müsavat"a cidd-cəhdlə sübut etməyə çalışıb ki, maliyyə sosial layihələrə ayrılır və hərbi məqsədlər üçün deyil. Ancaq işğal olunmuş ərazidəki hərbi xunta bu maliyyədən ölkəmizə qarşı şübhəsiz ki, istifadə edir. Üstəlik, Qarabağdakı süni məskunlaşma prosesində də Amerika maliyyəsindən istifadə mümkün sayılır.

"Ermənilərin Suriyadan Ermənistana, oradan da işğal olunmuş ərazilərimizə köçürülməsi məkrli prosesin davamıdır". Bunu Prezident Administrasiyası (PA) rəhbərinin müavini, Beynəlxalq əlaqələr şöbəsinin müdiri **Novruz Məmmədov** öz twitterr səhifəsində paylaşdığı statusunda yazıb. Onun qeyd etdiyinə görə, ermənilərin Suriyadan Ermənistana, oradan da Azərbaycanın işğal olunmuş ərazilərinə köçürülməsi 2 əsrdən çox həyata keçirilən məkrli prosesin davamıdır:



**Aydın Mirzəzadə:**
"Vaşinqtonun bu addımı cavabsız qalmayacaq"



**Novruz Məmmədov:**
"Ermənistan münaqişənin həllini ona görə uzadır ki..."

"Maraqlı odur ki, ermənilər başqa xalqların qoltuğu altında yaşamağı sevsələr də, zaman-zaman onları Azərbaycan ərazilərinə köçürürlər. Yəqin ki, bir neçə onillikdən sonra Ermənistan Suriyaya qarşı da soyqırım iddiasını irəli sürəcək" - deyə, PA rəsmisi daha sonra qeyd edib.

**Administrasiya rəsmisi deyib ki, son 20 ildə beynəlxalq aləmdə baş verən hadisələrdə beynəlxalq hüququn tətbiqini çox az-az hallarda müşahidə etmək olar. PA rəsmisinin bildirdiyinə görə, beynəlxalq aləmdə bu gün müşahidə olunan gərginliyin səbəbi elə budur. O qeyd edib ki, beynəlxalq hüquq yalnız sözdə mövcuddur.** "Maraqlıdır, Krımın, Abxaziyanın, Osetiyanın, Dnestryanının "rəhbərlərinə" Avropa və ABŞ-a viza verilməsi qadağandır. Amma separatçı B. Saakyana hər yerə asanlıqla viza verilir. Görəsən, bunu necə başa düşmək lazımdır? Beləliklə, Ermənistan münaqişənin həllini ona görə uzadır ki, arxasında beynəlxalq hüquqa məhəl qoymayan dövlətlər durub", - deyə PA rəsmisi daha sonra qeyd edib.

**YAP-çı deputat Aydın Mirzəzadə isə "Yeni Müsavat"a bildirdi ki, ABŞ-ın bu addımı cavabsız qalmayacaq:** "Azərbaycan tərəfi yenə də bu məsələyə ciddi etirazını bildirəcək. Çünki işğal altında olan bir zonaya maliyyə yardımı ayrılması sakit şəkildə həmin o işğala dəstək deməkdir. ABŞ Dövlət Departamenti, Amerika rəsmiləri dəfələrlə Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiklərini, hər hansı bir işğalçı rejimi tanımadıqlarını bildirib. Amma bununla belə, hər il ermənilərə maliyyə yardımının ayrılması onların rəsmi mövqeyi ilə üst-üstə düşmür. Əgər doğrudan da ABŞ həmin ərazidə yaşayanlara kömək etmək fikrindədirsə, həmin vəsait Azərbaycan dövlətinə ayrıla bilər. Azərbaycan dövləti də öz xətti ilə ordakı vətəndaşlarımıza dəstək ola bilər. Ümumən götürəndə bu praktika heç də ABŞ-ın rəsmi siyasətinə uyğun gəlmir".

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Elşad PAŞASOY

Yeni MÜSAVAT
N 120 (6148) 4 iyun 2015

# “Azərbaycan TANAP və TAP üçün optimal proqramlar təklif etməlidir”

## Ekspertlər dövlət başçısının TAP narahatlığı ilə bağlı ehtimallarını açıqlayıblar...

**Bir neçə gün əvvəl dövlət başçısı İlham Əliyev Trans-Adriatik Boru Kəməri (Trans-Adriatik Pipeline, TAP) layihəsi ilə bağlı narahatlığını bildirib. “Ümid edirəm ki, TAP-Trans-Adriatik layihəsinin qarşısında da heç bir süni əngəl meydana çıxmayacaq. Çünki əgər belə əngəl olarsa, o zaman əlbəttə ki, burada udan tərəf olmayacaq”, - deyə o, vurğulayıb. Dövlət başçısının sözlərinə görə, TAP layihəsində hər hansı bir problem yaranarsa, o zaman Azərbaycan qazı Türkiyə bazarına ixrac ediləcək...**

Əksər ekspertlər isə bildirirlər ki, İ.Əliyevin TAP barədə söylədikləri sözügedən kəmərin tikintisi ilə bağlı Avropa İttifaqı (Aİ) ölkələrinin nümayiş etdirdikləri mövqe ilə bağlıdır.

**Ekspert Natiq Cəfərlinin** sözlərinə görə, əsas məqam bu günə qədər Rusiya tərəfindən layihələrə problemin yaradılmasıdır: “Əngəl indi də davam edir. İkinci məsələ Türkiyənin böyük güzəştlər əldə etmək istəyidir. Ankara Rusiyanın təqdim etdiyi "Türk axını" layihəsindən istifadə edərək, Avropa Birliyi ölkələri və Azərbaycanla danışıqlarda maksimal güzəşt əldə edərək, ərazisini enerji mərkəzinə çevirməyə çalışır. Həmçinin Avropa Birliyinin yeni qəbul olunmuş Enerji Xartiyasıdır. Azərbaycan xartiyadan irəli gələn vəzifələri yerinə yetirməlidir. Tələblərdən biri istehsalçı ölkə, yaxud şirkət, həm də qazpaylayıcı şirkət ola bilməz. Bu, bir-birindən ayrılmalıdır ki, inhisarçılığın və qiymət diktəsinin qarşısı alınsın. Xartiya Rusiyaya qarşı qəbul olunsa da, oyun qaydaları bütün ölkələrə aiddir".

**Ekspertin sözlərinə görə, daha bir məqam odur ki, TANAP və TAP layihələrini Azərbaycan maliyyələşdirməlidir:** “İlkin hesablamalara görə, birinci layihəyə 12-13 milyard dollar xərclənəcək ki, bunun 57 faizini Bakı ödəməlidir. Artıq Neft Fondundan 1 milyard dollar ayrılıb”.

**Ekspertin sözlərinə görə, xərclərin böyük hissəsini Azərbaycan ödəyəcək. 2016-2018-ci illərdə Azərbaycanın layihəyə ayıracağı vəsait daha çox olacaq:** “İndiki maliyyə çatışmazlığı durumunda dövlət başçısı anlayır ki, bu layihələrin həyata keçməsi ciddi iqtisadi problemlər yarada bilər. Onsuz da neftin qiymətinin enməsinə görə valyuta gəlirləri azalmaqda davam edəcək. Məsələ ondadır ki, layihələr 2020-ci ildə də işə düşsə idi, ən azı Azərbaycan 10 il qazanc götürməyəcəkdi. Bəli, uzun vadidə layihələr dividentlər gətirəcək. Sadəcə, indiki mərhələdə hakimiyyət Avropa Birliyinin marağını artırmağa çalışır, yəni maliyyələşmədə kömək gözləyir. Amma mən inanmıram. Çünki Avropa Birliyi ölkələrinə yaxın zamanlarda yeni qaz mənbələrinin daxil olması gözlənilir. Bu səbəbdən Azərbaycana mesaj verirlər ki, qazınızı satmaq istəyirsinizsə, öz hesabınıza qapıya qədər qazı çatdırın, sonra alaq. Bax, Azərbaycan buna görə TANAP və TAP layihələri haqda daha dərindən düşünüb, optimal proqramlar təklif etməlidir”.

**Ekspert İlham Şaban isə qeyd edib ki, Qərbin real istəyi Azərbaycan qazını Rusiya ilə üz-üzə qoymaqdan ibarətdir:** “Azərbaycan qazının Avropaya ixracı və bunun ətrafında bir müddət yaranmış-iqtisadi-siyasi "duman", deyəsən, yavaş-yavaş çəkilməyə başlayır. Buna cəhd edən də rəsmi Bakı oldu. Respublika Günü münasibətilə keçirilən tədbirdə Azərbaycan Prezidenti İlham Əliyev gözlənilmədən qaz mövzusuna keçib və bəyan edib ki, “əgər TAP layihəsində hər hansı bir problem yaranarsa, o zaman biz qazımızı daha çox Türkiyə bazarına ixrac edəcəyik”. Bu sözlərindən sonra isə İlham Əliyev əlavə edib ki, “TAP iştirakçılarının hamısı gərək məsuliyyətli davransınlar və


İlham Şaban

süni şəkildə problem yaratmasınlar”.

**Ekspertin sözlərinə görə, ilk baxışda belə görünür ki, İlham Əliyev heç də TAP boru kəmərini tikən şirkətin fəaliyyətindən razı deyil:** “Buna görə də onları məsuliyyətli olmağa çağırır. Ancaq məsələ bundadır ki, TAP konsorsiumunda 40 faiz səhmlər "Şahdəniz" layihəsi iştirakçılarına məxsusdur və onların kifayət qədər marağındadır ki, layihə vaxtında həyata keçsin. İkincisi, bu boru kəməri layihəsində digər iştirakçıların heç biri 20 faizdən artıq səhmə malik deyillər". Ekspert qeyd edib ki, onda İlham Əliyevin konkret hədəfi əslində boru kəməri iştirakçıları deyil, Avropada Azərbaycan qazını alacaq dövlətlərin hökumətləridir: “Burada həqiqətən bir məntiq var. “Şahdəniz-2" layihəsi üzrə Azərbaycan qazının ən böyük alıcısı İtaliyadır. Bu layihə çərçivəsində hasil ediləcək qazın 50 faizi, 8 milyard kub metri İtaliya bazarına getməlidir. Ancaq İtaliya hökuməti TAP-ın bu ölkəyə "gəlməsinə" heç də lazımi diqqət və qayğını indiyə qədər nümayiş etdirməyib. Hətta bu ölkənin baş naziri belə “Cənub qaz dəhlizinin” təməlqoyma mərasiminə qatılmağa vaxt tapa bilmədi və əvəzində buna görə İtaliya erməni icmasından təşəkkür dolu məktub da aldı. Nəticədə 20 may 2015-ci ildə İtaliya iqtisadi inkişaf nazirinin imzaladığı sərəncamdan belə məlum oldu ki, TAP-ın tikintisinə 16 may 2016-cı ildə başlanılıb 2020-ci il 31 dekabr tarixində bitəcək. Yəni reallıqda Azərbaycan qazı 2021-ci ildə bazara daxil olacaq.

Yunanıstana gəldikdə isə 2015-ci ilin yanvarında bu ölkədə hökumət dəyişdikdən və hakimiyyətə ultrasolçular gəldikdən sonra onların TAP-dan umacaqları dividentlər də nədənsə artmağa başlayıb. Düzdür, ortada imzalanmış sazişlər var, ancaq hökumət bu və ya digər şəkildə kəmər boyunca əlavə ekoloji və sosial layihələrin də həyata keçirilməsini ortaya qoyur.

**İ.Şaban qeyd edib ki, Azərbaycan qazı gec-tez Avropa bazarına çıxacaq. Ancaq məsələ burasındadır ki, bəlkə də çoxları Bakıda heç də bunun mürəkkəbliyini bu səviyyədə proqnoz edə bilmirdi:** “Çünki qaz sadə əmtəə deyil. Ancaq bu günün reallığı onu göstərir ki, Avropa əslində bu ötən 10 ildə özü ustalıqla qazdan siyasi vasitə kimi istifadə etməyə yiyələnib. Əvvəlcə mücərrəd "Nabucco" qaz kəməri, sonra "Cənub qaz dəhlizi", daha sonra onun "Transxəzər" qaz kəməri vasitəsilə Türkmənistana qədər uzadılması ideyası- bütün bunlar Avropanın qaza artan tələbatını ödəmək, Avropanın Rusiyadan qaz asılılığını azaltmaq, Avropanın enerji bazarlarına böyük həcmlərdə qaz gətirmək kimi şüarlardan başqa bir şey deyilmiş.

Əgər belə olmasaydı, onda İlham Əliyev "Biz o zaman qazımızı daha çox Türkiyə bazarına ixrac edəcəyik",- fikrini geniş ictimaiyyət üçün səsləndirməzdi. Ancaq dövlət başçısı bu fikirləri səsləndirməmişdən öncə TANAP-ın baş direktoru Saltuk Düzyol aprelin sonlarında bildirmişdi ki, Türkiyə lazım gələrsə, Azərbaycandan 21 milyard kub metrə qədər qaz ala bilər. Ancaq TANAP rəsmisi o zaman bunun səbəblərini açıqlamamış və Avropa ilə problemlərin yaşanmasını söyləməmişdi. Onun sözlərinə görə, “Türk axını” ilə Türkiyə bazarına əlavə Rusiya qazı daxil olduğu təqdirdə, bazarda qiymət rəqabəti yüksələcək. Yəni əslində demək istəyirdi ki, Azərbaycan qazının bu bazarda qiyməti aşağı düşəcək".

**İ.Şabanın fikrincə, Qərbin real istəyi Azərbaycan qazını Rusiya ilə üz-üzə qoymaqdan ibarətdir:** "10 milyard kubmetrlik Azərbaycan qazı ilə 150 milyard kubmetrlik Rusiya qazının qiymətini mümkün qədər əli çatdığı bazarlarda "öldürməkdir". Həm də Qərbin əsas maraqlarından biri gələcəkdə Rusiya qaz bazarında mümkün qədər kök salmaqdır. Söhbət kəşfiyyat, hasilat, servis, logistika və satışdan gedir".

❑ RÖYA

# Başçı müavinini həbsdən buraxırlar?

## Nəqliyyat naziri poliuretanın tez alışdığını bilirmiş; Maliyyə Nazirliyi yanan binaya ayırdığı pulla bağlı sorğumuza cavab vermir




**15 nəfərin ölümünə, 56 nəfərin xəsarət almasına gətirib çıxaran yanğından 2 həftə ötür. Amma yanğının hansı səbəbdən baş verməsi haqda rəy ortada yoxdur. Bu gün də bilinmir ki, bina təsadüfi qığılcımdan alışıb, yoxsa bilərəkdən yandırılıb? Yanğının ortaya çıxardığı suallar çoxdur, cavablar isə suallara adekvat deyil.**

Həbsdən dərhal sonra yanğınla əlaqədar binanın poliuretan materialla üzlənməsi işlərinə nəzarət funksiyalarını həyata keçirməli olan, 2012-2013-cü illərdə Binəqədi Rayon İcra Hakimiyyəti başçısının birinci müavini işləmiş Qəzənfər Novruzov tutuldu. Onun barəsində 4 ay müddətinə həbs-qətimkan tədbiri seçildi. Məlum oldu ki, Q.Novruzov sıradan biri deyil. O, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbovun yeznəsi, muxtar respublikanın daxili işlər nazirinin müavini Səbuhi Novruzovun qardaşıdır. Onun hakim partiyanın icra katibinin müavini Siyavuş Novruzovla da qohumluq əlaqələri var. Q.Novruzovun qardaşı Vaqif Novruzov da Bakı Yaşıllaşdırma Departamentinin müdiridir. Q.Novruzovun daha bir qardaşı Məhərrəm Novruzov isə Abşeronun sosial müdafiə fondunun rəhbəri vəzifəsində çalışıb.

Belə məlumat var ki, Q.Novruzovun vəzifəli qohum-qardaşları Vasif Talıbov başda olmaqla, onun azad olunması üçün çaba göstərirlər. Q.Novruzovun həbsdən əvvəl Almaniyaya müalicəyə getməyə hazırlaşması haqda sənədlər toplanır. Belə məlumatlar var ki, həqiqətən də onun səhhətində ciddi problem olub və daim müalicə olunub. Bunu əsas gətirməklə istintaqın qarşısında həbsdən azad edilməsi üçün məsələ qaldırılacaq və Q.Novruzov azad olunacaq. Beləliklə də Binəqədidəki binada baş verən dəhşətli yanğına görə həbs olunan yeganə vəzifəli şəxs də azad olunacaq.

Həbsdə qalan şəxslər isə Xətai rayonunda baş verən yanğınla əlaqəli tutulanlar “TNH” şirkətinin səlahiyyətliləri olacaq. Yada salaq ki, Xətaidəki yanğınla bağlı “TNH” səlahiyyətlisi Fərid Sadıqov, şirkət direktoru Zaur Əşrəfov, şirkət direktorunun tikinti işləri üzrə müavini Nüsrət Muxtarov da saxlanaraq barələrində 4 ay müddətinə həbs-qətimkan tədbiri seçilib. Binəqədidə və Xətaidə binalarda baş verən yanğınlarla bağlı işlər eyni icraatda birləşdirilərək Baş Prokurorluğun Ağır Cinayətlərə Dair İşlər üzrə İstintaq İdarəsində araşdırılır.

Binəqədidəki yanğından sonra məlum oldu ki, bir çox rayonlarda da poliuretandan geninə-boluna istifadə olunub. Ölkə başçısının tapşırığı ilə bütün ölkə boyu yanğına davamsız materialla üzlənmiş binaların üzlüyü sürətlə söküldü. Yevlax, Gəncə, Şəmkir, Gədəbəy, Binəqədi rayonlarında poliuretan üzlüyə geniş yer verildiyi üzə çıxdı. Ölkənin ən çox abadlaşdırılmış rayonları Quba və Qəbələdə isə bu üzlüklərdən ümumiyyətlə istifadə edilmədiyi də məlum oldu. Görəsən, bunun səbəbi nədir? Qaynağımız deyib ki, Qubanın qeyri-rəsmi qubernatoru olan nəqliyyat naziri Ziya Məmmədov bu üzlüklərin istifadəsinin təhlükəli olduğunu bilirmiş və qeyri-rəsmi cavabdeh olduğu rayonda həmin üzlüklərin istifadəsinə icazə verməyib. Sadə vətəndaşdan tutmuş iri tikinti şirkətinə qədər hər bir kəs yol kənarında tikinti aparmaq istəyərkən bu nazirliyin varlığını öz üzərində bütün ağırlığı ilə hiss edir. Bəs onda necə olur ki, nazir təhlükəli üzlüklərlə bağlı susub?

Görünür, üzləmə işi hər bir rayonun icra başçısının və ya təhkimçisinin öz ixtiyarına buraxılıb və bütün müvafiq qurumlara görülən işlərə müdaxilə etməmək tapşırılıb.

Binəqədidə binadakı yanğından sonra əcaib mənzərə ortaya çıxıb. Binanı üzləyən şirkətə müvafiq qurumların bu fəaliyyətlə məşğul olmasına icazə vermədiyi aydınlaşıb. Bəs binanın üzlənməsinə dövlət büdcəsindən vəsait ayrılıbmı?

**“Yeni Müsavat” bu və digər suallara aydınlıq gətirilməsi üçün mayın 23-də Maliyyə Nazirliyinə informasiya sorğusu yollayıb.**

**Həmin sorğuda aşağıdakı suallara aydınlıq gətirilməsi istənilib:**

*1. Binəqədi rayonunda binaların üzlənməsinə dövlət büdcəsindən 2015-ci ilə qədər hər il nə qədər vəsait ayrılıb?*

*2. Vəsaitin təyinatı üzrə xərclənib-xərclənməməsinin auditi hansı nəticələr verib?*

*3. Ayrılmış vəsaitdən bilavasitə yanmış binanın üzlənməsinə nə qədər vəsait xərclənib?*

*4. Həmin binaya ayrılan vəsaitin təyinatı üzrə xərclənib-xərclənməməsinin auditi həyata keçirilibmi?*

*5. Keçirilibsə, nəticəsi necə olub?*

Maliyyə Nazirliyinin mətbuat katibi, informasiya azadlığı üzrə məsul şəxs Mais Piriyev müvafiq araşdırmalardan sonra sorğumuza mayın 29-da cavab verəcəklərini bildirmişdi. Lakin naməlum səbəbdən sorğumuz cavabsız qalıb. Maliyyə Nazirliyinin sorğumuzu cavabsız buraxması qanunlara saygısızlıqdır. Bununla yanaşı binanın üzlənməsinə ümumiyyətlə vəsait ayrılmaması haqda iddiaların doğru olmasına da ciddi əsaslar verir. Belə çıxır ki, binanın üzlənməsinə büdcədən pul ayrımayıblar. Bəs pul haradandır?

❑ E.MƏMMƏDƏLİYEV

YENİ MÜSAVAT
N 120 (6148) 4 iyun 2015

# DYP ittihamlara cavab verdi

**İyunun 1-dən etibarən bölgə, eləcə də Sumqayıt şəhərində və Abşeron rayonu qeydiyyatında olan avtomobillərin Bakıya girişi qadağan edilməsi ətrafında müzakirələr davam edir. Bu yasağın paytaxta xəstə gətirən şəxslərə, təcili tədbirlərlə bağlı gəlməli olanlara da çətinlik yaradacağı gözlənilir. Narazılıqlardan biri də paytaxta kənd təsərrüfatı məhsulları gətirən yük avtomobillərinin girişinin məhdudlaşdırılması və bunun ərzaq qıtlığına səbəb olacağı ehtimalı ilə bağlıdır.**

## Kamran Əliyev: "Xəstəsi olanlar və təcili tədbirlərlə bağlı Bakıya gələnlər üçün istisna olacaq"

Mətbuatda gedən ittihamlara cavab verən Daxili İşlər Nazirliyi (DİN) Baş Dövlət Yol Polisi İdarəsi (BDYPİ) İctimaiyyətlə əlaqələr şöbəsinin rəisi, polis polkovniki Kamran Əliyev "Yeni Müsavat"a bildirdi ki, xəstəsi olanlara və həyati əhəmiyyətli məsələlərlə bağlı paytaxta gələnlərə icazə veriləcək: "Biz əvvəldən qeyd etmişik ki, xəstəsi olanlar, təxirəsalınmaz tədbirlərlə, həyati vacib məsələlərlə bağlı qeyri-Bakı qeydiyyatında olan minik avtomobilində paytaxta gəlmək istəyənlərə güzəşt olunacaq, onlar üçün istisna var. Ancaq bundan sui-istifadə hallarına yol verilməməlidir. Avropa Oyunları ilə bağlı tədbirlərin əhəmiyyətini düzgün qiymətləndirib saygı ilə yanaşmaq lazımdır. Bunun qanunvericiliyə uyğunluğuna gəlincə, "Yol hərəkəti haqqında" Qanunda da qeyd edilir ki, kütləvi tədbirlərin həyata keçirilməsi ilə bağlı nəqliyyat vasitələrinin hərəkətinə məhdudiyyət qoyula bilər. Bu tam qanunauyğundur".



**Kamran Əliyev onu da vurğuladı ki, vətəndaşlar bu qaydaları düzgün başa düşməli və hörmətlə yanaşmalıdırlar:** "Burada insanların hərəkətinə məhdudiyyət qoyulmur. Sadəcə, avtomobillərin hərəkətindən söhbət gedir. Bakıda sıxlığın aradan qaldırılması üçün qeyri-Bakı qeydiyyatında olan avtomobillərin hərəkətinə müvəqqəti məhdudiyyət qoyulub və daimi xarakter daşımır. Bu məhdudiyyətin qoyulması ilə yanaşı əhali üçün daha rahat və əlverişli nəqliyyat vasitələri ayrılıb. Marşrut üzrə çalışan avtobusların sayı artırılıb. Avtomobili digər rayonlarda qeydiyyatda olan sakinlər paytaxta gələrkən ictimai nəqliyyatdan istifadə edəcəklər. Bu da yollarda sıxlığı azaldacaq və onların da hərəkətini asanlaşdıracaq. Onlar özləri hesablasınlar ki, paytaxta indi tez çatırlar, yoxsa əvvəllər? Sumqayıt istiqamətindən gün ərzində 60-65 min avtomobil Bakıya daxil olurdu ki, bu da çox sıxlıq yaradırdı. İndi hər 50 avtomobili bir marşrut avtobusu əvəz edəcək. Bu, yollarda sıxlığı azaldacaq, hərəkəti asanlaşdıracaq".

**Kənd təsərrüfatı məhsullarının paytaxta daşınmasına gəlincə, Kamran Əliyev bildirdi ki, bununla bağlı birmənalı məhdudiyyət qoyulmayıb:** "Yük avtomobilləri şəhərə yalnız axşam saatlarında daxil ola bilər. Lakin bir daha yükdaşıma ilə məşğul olan həmin şəxslərə müraciət edirəm ki, bu yüklərin daşınması zamanı yükdaşıma qaydalarına ciddi riayət olunmalıdır. Nəqliyyatın hərəkətinə təhlükə yaradan, yol hərəkəti qaydalarını pozan yüklərin daşınmasına icazə verilməyəcək. Minik avtomobillərində də xüsusi qoşqu ilə daşıya bilərlər. Yük avtomobillərinə yalnız axşam saatlarında bazarlara, satış nöqtələrinə məhsulların aparılmasına icazə veriləcək. Yeganə tələbimiz odur ki, daşıma qaydalarına riayət etsinlər. Rayon qeydiyyatında olsa belə, yük avtomobilləri şəhərə daxil ola biləcəklər. Lakin gündüz gələn yük maşınları məhsullarını yalnız gecə saatlarında şəhərə daşıya biləcəklər".

❑ **Nərgiz LİFTİYEVA**



# ABŞ Blatterin 20 illik hakimiyyətinə son qoydu

## Azərbaycan bu oyunda kimin tərəfində olacaq?

**Beynəlxalq Futbol Assosiasiyası (FİFA) daxilində sular durulmur. Ali futbol qurumunda son bir həftədə yaşananlar dünya gündəmini zəbt etdi. Mayın 27-də korrupsiya cinayətləri üzrə 14 futbol funksionerinin, o cümlədən FİFA-nın iki vitse-prezidentinin həbs edilməsi ilə başlayan proses artan xətlə gedir.**

Son olaraq, mayın 29-da keçirilən seçkilərdə 5-ci dəfə FİFA prezidenti seçilən Yozef Blatterin iyunun 2-də istefa verməsi səngiməkdə olan narazılıqların yenidən alovlanmasına səbəb oldu. Seçkilər zamanı dünyanın iki nəhəng dövlətinin- Rusiya və ABŞ-ın üz-üzə gəldiyi barədə əvvəlki saylarımızda xəbər vermişdik. Belə ki, ABŞ prezidentlik uğrunda mübarizə aparan iki namizəddən İordaniya şahzadəsi Əli bin əl-Hüseyni, Rusiya isə hazırkı FİFA rəhbəri Yozef Blatteri dəstəkləmişdi. Sonda qalib tərəf şimal qonşumuz olmuşdu. Lakin bu qalibiyyət, göründüyü kimi, 5 gün çəkdi. Futbol mütəxəssisləri hesab edirlər ki, Blatter Qərb dövlətlərinin təzyiqlərinə, FİFA daxilindəki korrupsiya qalmaqalına tab gətirməyərək istefa verdi. Bu versiya daha inandırıcı görünür.

Blatterin istefasından sonra qarşıdan gələn seçkilərdə dünya dövlətlərinin yenidən üz-üzə gələcəyi heç kəsdə şübhə doğurmur. Bu isə futbol adına müsbət mənada heç nə vəd etmir. Məğlub Rusiya yenidən qalibiyyət üçün namizədini müəyyənləşdirəcək. Cüzi də olsa, revanş əldə edən ABŞ da bu prosesdən kənarda qalmayacaq. Bütün bunlar gələcəkdə də FİFA daxilindəki narazılıqların davam edəcəyinə işarədir.

**Komanda.az saytının baş redaktoru Natiq Muxtarlı hesab edir ki, FİFA-da baş verənlər idmandan çox siyasi oyunların təzahürüdür:** "Uzun müddət idi ki, FİFA-da baş verənlər mətbuatda geniş dərc olunurdu. ABŞ və İngiltərə niyə məhz indi FİFA-da baş verənləri qabartdı və həbslər həyata keçirdi? Mənə elə gəlir ki, bu daha çox siyasi oyunların təzahürüdür. Həbslərdən Rusiyaya təzyiq kimi istifadə edilir. Putin açıq şəkildə baş verənləri Blatterə təzyiq adlandırdı. Rusiya Dünya Çempionatı 2018-i qarşılamağa hazır olduğunu elan edəndə, İngiltərə də bu iddiada olmuşdu. Rusiya bu mübarizədən qalib çıxmışdı. Proses o zamandan başladı. Rusiyanı sıxışdırmağın növbəti mərhələsidir. Blatterin istefası da məhz bu amillə bağlanmalıdır. Rusiya qalib gəlsə də, ABŞ-ın korrupsiya məsələsini yenidən ortaya atması Blatterin istefasını labüd etdi".

**İdman jurnalisti proseslərin davam edəcəyini düşünür:** "2018-ci ildə Rusiya və 2022-də Qətərdə keçiriləcək Dünya Çempionatının təşkilatçılığı geri alınıb, başqa ölkələrə verilə bilər. Sözsüz ki, Qətər Rusiyanın oduna yanacaq. Çünki Qərbin bu dövlətlə problemi yoxdur. Sırf Rusiyaya qarşı yönəlmiş addımdır. Çünki Rusiya dünya çempionatını keçirmək üçün çoxlu pullar xərcləyib və onu geri qaytarmaq istəyir. Rusiya da öz adekvat addımlarını atacaq. Bunlar dünya futboluna heç bir xeyir verməyəcək. Qarşıdurma davam edəcək, sonda uduzan futbol olacaq".

**Natiq Muxtarlı onu da qeyd etdi ki, Rusiyanın bu mübarizədə məğlub olduğunu demək çox tezdir:** "Rusiya məğlub olmayıb. Sadəcə, ABŞ revanş aldı. Qarşıda gözlənilməz hadisələr baş verə bilər. Hətta UEFA-nın özündə də qarşıdurma ola bilər. Yeni prezidentin kimliyi, hansı ölkədən olmağı, hansı dövlətin adamı olacağı ciddi maraq doğurur. Hansı ölkənin qalib olduğunu demək tezdir. Azərbaycan tərəfi Rusiyanın təsir dairəsindən çıxa bilməyəcək. Onların diktəsini yerinə yetirəcək. Əslində 2020-ci ildəki çempionatda Bakıya salınan oyunlarda korrupsiya elementləri üzə çıxa bilər. Azərbaycan Rusiyanın təsirindən heç zaman çıxa bilməyəcək".

❑ **Cavanşir ABBASLI**

# İlan sancması zamanı nə etməli?

## Ölkənin baş toksikoloqu: "İlk tibbi yardım zərdablardan da effektli ola bilər..."

**İsti yay aylarının gəlişi ilə ölkədə ilan sancmalarının sayı artıb. Vaxtında görülməyən tədbirlər nəticəsində hətta dünyasını dəyişənlər var. Xəbər verdiyimiz kimi, ötən ayın 28-də Qax rayonunda axşam saatlarında ot sahəsində işləyən 1958-ci il təvəllüdlü Gülmirə Xinqalovanı ilan sancıb. Lakin ağır vəziyyətdə Respublika Toksikologiya Mərkəzinə çatdırılan qadının həyatını qurtarmaq mümkün olmayıb.**

Klinik Tibbi Mərkəzin Toksikologiya şöbəsinin müdiri, baş toksikoloq Azər Maqsudov "Yeni Müsavat"a açıqlamasında ilan sancması hallarının ən çox Bakıətrafı kəndlərin payına düşdüyünü dedi: "Ən çox ilan sancmaları Bakıətrafı kəndlərdə, xüsusən də karxanalar çoxluq təşkil edən zonalarda, aran rayonlarında, Hacıqabulda hətta Qəbələdə və Şamaxıda qeydə alınıb. Xüsusən də ən təhlükəli ilan növü olan gürzələr insanlara hücum edir. Onun zəhəri insanı bir neçə saata öldürə bilir".

**Baş toksikoloq onu da bildirib ki, ötən illə müqayisədə bu il havalar sərin keçdiyindən ilan sancmaları ilə bağlı müraciətlər gec başlayıb:** "Keçən ilə nəzər salsaq görərik ki, artıq aprel ayından müraciətlər başlayıb. Bu il isə müraciətlər may ayından qeydə alınıb. Ötən ay mərkəzimizə ilan sancmasından 14 müraciət olunub, onların 12-si xəstəxanaya yerləşdirilib. İyun ayına olan qeydə görə isə 3 nəfər ilan sancmasından müraciət edib. Hazırda onların müalicəsi davam etdirilir".

**Azər Maqsudov ilan sancması zamanı görüləcək ilk tibbi yardımdan da danışdı:** "İstirahətlə bağlı zonalara gəzintiyə çıxanda ehtiyatlı olmaq lazımdır. Xüsusən də çay qırağı və meşələrdə ətrafı diqqətlə nəzərdən keçirin. Təhlükəli gürzə ilanı əsasən insanın ətraf orqanlarını dişləyir. Əgər belə hadisə baş verərsə, o zaman ilan dişləyən yeri sıxıb zəhəri çıxartmağa çalışmaq, daha sonra xəstəni hərəkətsiz vəziyyətdə saxlayaraq təcili yaxınlıqdakı tibbi məntəqəsinə çatdırmaq lazımdır. Məntəqədə ilan sancan adama mütləq zərdab vurulmalıdır. Deyim ki, ilan sancan insana ilk tibbi yardım göstərilməsi həkim müalicəsindən belə əhəmiyyətli ola bilər".



**Baş toksikoloq ilan zəhərinə qarşı istifadə edilən zərdabların təkcə toksikoloji mərkəzdə olmasının kifayət etmədiyini deyib:** "İlan sancan insan bu mərkəzdən kilometrlərlə uzaqda ola bilər, onu mərkəzə çatdıranadək iş işdən keçə bilər. Hər yerdə kiçik məntəqələr yaradılmalıdır ki, ilan sancmalarına qarşı vaxtında ilk tibbi yardım göstərilə bilsin.

Bütün rayon tibb məntəqələrinə zərdablar verilib. Kənd ərazilərində yerləşən məntəqələrdə çalışan tibb işçiləri rayon səhiyyə mərkəzlərinə müraciət edərək zərdabların onlara da paylanmasını istəməlidirlər".

**Tibb elmləri doktoru Adil Qeybulla da bu məsələdə ilk tibbi yardımın xüsusi əhəmiyyətə malik olduğunu deyib:** "Təəssüflər olsun ki, vaxtında ilk yardım tədbirlərinin görülməməsi son nəticədə ölüm hallarına gətirib çıxarır.

İlan sancan zaman həmin ilanın növünü aydınlaşdırmaq lazımdır, buna uyğun hərəkət edilərsə, problem daha tez aradan qalxmış olar".

**Həkim ilan sancmalarına daha çox insanların özlərinin bais olduğunu deyib:** "İnsanlar çox zaman ilanla rəftarı bacarmırlar. Buna görə maarifləndirmə tədbirləri həyata keçirilməlidir ki, adamlar ilanla qarşılaşanda özlərini necə aparacaqları barədə məlumatlı ola bilsin. Zəhərli ilanları harda oldu məhv etmək doğru deyil, onsuz da ölkəmizdə zəhərli ilanların sayı azdır. Hər kəsə məlumdur ki, ilan zəhərindən yüksək keyfiyyətli, kifayət qədər bahalı dərmanlar hazırlanır. Bu səbəbdən dünyanın müxtəlif ölkələrində ilanların çox olduğu ərazilərdə çox aktiv sistem qurulub. Bu sistem vasitəsilə zəhərlərdən əlverişli istifadə edilir".

Xatırladaq ki, ötən il baş verən 121 ilan sancması zamanı biri azyaşlı olmaqla iki nəfər dünyasını dəyişib. Məlumata görə, insan ölümlərinə zərdabın vaxtında vurulmaması səbəb olub.

❑ **Xalidə GƏRAY**

# DYP ittihamlara cavab gəldi

## Kamran Əliyev: "Xəstəsi olanlar və təcili tədbirlərlə bağlı Bakıya gələnlər üçün istisna olacaq"

**İyunun 1-dən etibarən bölgə, eləcə də Sumqayıt şəhərində və Abşeron rayonu qeydiyyatında olan avtomobillərin Bakıya girişi qadağan edilməsi ətrafında müzakirələr davam edir. Bu yasağın paytaxta xəstə gətirən şəxslərə, təcili tədbirlərlə bağlı gəlməli olanlara da çətinlik yaradacağı gözlənilir. Narazılıqlardan biri də paytaxta kənd təsərrüfatı məhsulları gətirən yük avtomobillərinin girişinin məhdudlaşdırılması və bunun ərzaq qıtlığına səbəb olacağı ehtimalı ilə bağlıdır.**

Mətbuatda gedən ittihamlara cavab verən Daxili İşlər Nazirliyi (DİN) Baş Dövlət Yol Polisi İdarəsi (BDYPİ) ictimaiyyətlə əlaqələr şöbəsinin rəisi, polis polkovniki Kamran Əliyev "Yeni Müsavat"a bildirdi ki, xəstəsi olanlara və həyati əhəmiyyətli məsələlərlə bağlı paytaxta gələnlərə icazə veriləcək: "Biz əvvəldən qeyd etmişik ki, xəstəsi olanlar, təxirə salınmaz tədbirlərlə, həyati vacib məsələlərlə bağlı qeyri-Bakı qeydiyyatında olan minik avtomobilində paytaxta gəlmək istəyənlərə güzəşt olunacaq, onlar üçün istisna var. Ancaq bundan sui-istifadə hallarına yol verilməməlidir. Avropa Oyunları ilə bağlı tədbirlərin əhəmiyyətini düzgün qiymətləndirib saygı ilə yanaşmaq lazımdır. Bunun qanunvericiliyə uyğunluğuna gəlincə, "Yol hərəkəti haqqında" qanunda da qeyd edilir ki, kütləvi tədbirlərin həyata keçirilməsi ilə bağlı nəqliyyat vasitələrinin hərəkətinə məhdudiyyət qoyula bilər. Bu tam qanunauyğundur".




Kamran Əliyev onu da vurğuladı ki, vətəndaşlar bu qaydaların düzgün başa düşməli və hörmətlə yanaşmalıdırlar: "Burada insanların hərəkətinə məhdudiyyət qoyulmur. Sadəcə avtomobillərin hərəkətindən söhbət gedir. Bakıda sıxlığın aradan qaldırılması üçün qeyri-Bakı qeydiyyatında olan avtomobillərin hərəkətinə müvəqqəti məhdudiyyət qoyulub və daimi xarakter daşımır. Bu məhdudiyyətin qoyulması ilə yanaşı əhali üçün daha rahat və əlverişli nəqliyyat vasitələri ayrılıb. Marşrut üzrə çalışan avtobusların sayı artırılıb. Avtomobili digər rayonlarda qeydiyyatda olan sakinlər paytaxta gələrkən ictimai nəqliyyatda istifadə edəcəklər. Bu da yollarda sıxlığı azaldacaq və onların da hərəkətini asanlaşdıracaq. Onlar özləri hesablasınlar ki, paytaxta indi tez çatırlar, yoxsa əvvəllər? Sumqayıt istiqamətindən gün ərzində 60-65 min avtomobil Bakıya daxil olurdu ki, bu da çox sıxlıq yaradırdı. İndi hər 50 avtomobili bir marşrut avtobusu əvəz edəcək. Bu yollarda sıxlığı azaldacaq, hərəkəti asanlaşdıracaq".

Kənd təsərrüfatı məhsullarının paytaxta daşınmasına gəlincə, Kamran Əliyev bildirdi ki, bununla bağlı birmənalı məhdudiyyət qoyulmayıb: "Yük avtomobilləri şəhərə yalnız axşam saatlarında daxil ola bilər. Lakin bir daha yükdaşıma ilə məşğul olan həmin şəxslərə müraciət edirəm ki, bu yüklərin daşınması zamanı yükdaşıma qaydalarına ciddi riayət olunmalıdır. Nəqliyyatın hərəkətinə təhlükə yaradan, yol hərəkəti qaydalarını pozan yüklərin daşınmasına icazə verilməyəcək. Minik avtomobillərində də xüsusi qoşqu ilə daşıya bilərlər. Yük avtomobillərinə yalnız axşam saatlarında bazarlara, satış nöqtələrinə məhsulların aparılmasına icazə veriləcək. Yeganə tələbimiz odur ki, daşıma qaydalarına riayət etsinlər. Rayon qeydiyyatında olsa belə, yük avtomobilləri şəhərə daxil ola biləcəklər. Lakin gündüz gələn yük maşınları məhsullarını yalnız gecə saatlarında şəhərə daşıya biləcəklər".

❑ **Nərgiz Liftiyeva**




# ABŞ Blatterin 20 illik hakimiyyətinə son qoydu

## Azərbaycan bu oyunda kimin tərəfində olacaq?

**Beynəlxalq Futbol Assosiasiyası (FİFA) daxilində sular durulmur. Ali futbol qurumunda son bir həftədə yaşananlar dünya gündəmini zəbt etdi. Mayın 27-də korrupsiya cinayətləri üzrə 14 futbol funksionerinin, o cümlədən FİFA-nın iki vitse-prezidentinin həbs edilməsi ilə başlayan proses artan xətlə gedir.**

Son olaraq, mayın 29-da keçirilən seçkilərdə 5-ci dəfə FİFA prezidenti seçilən Yozef Blatterin iyunun 2-də istefa verməsi səngiməkdə olan narazılıqların yenidən alovlanmasına səbəb oldu. Seçkilər zamanı dünyanın iki nəhəng dövlətinin- Rusiya və ABŞ-ın üz-üzə gəldiyi barədə əvvəlki saylarımızda xəbər vermişdik. Belə ki, ABŞ prezidentlik uğrunda mübarizə aparan iki namizəddən İordaniya şahzadəsi Əli bin əl-Hüseyni, Rusiya isə hazırkı FİFA rəhbəri Yozef Blatteri dəstəkləmişdi. Sonda qalib tərəf şimal qonşumuz olmuşdu. Lakin bu qalibiyyət göründüyü kimi, 5 gün çəkdi. Futbol mütəxəssisləri hesab edirlər ki, Blatter Qərb dövlətlərinin təzyiqlərinə, FİFA daxilindəki korrupsiya qalmaqalına tab gətirməyərək istefa verdi. Bu versiya daha inandırıcı görünür.

Blatterin istefasından sonra qarşıdan gələn seçkilərdə dünya dövlətlərinin yenidən üz-üzə gələcəyi heç kəs də şübhə doğurmur. Bu isə, futbol adına müsbət mənada heç nə vəd etmir. Məğlub Rusiya yenidən qalibiyyət üçün namizədini müəyyənləşdirəcək. Cüzi də olsa, revanş əldə edən ABŞ da bu prosesdən kənarda qalmayacaq. Bütün bunlar gələcəkdə də FİFA daxilindəki narazılıqların davam edəcəyinə işarədir.

Komanda.az saytının baş redaktoru Natiq Muxtarlı hesab edir ki, FİFA-da baş verənlər idmandan çox siyasi oyunların təzahürüdür: "Uzun müddət idi ki, FİFA-da baş verənlər mətbuatda geniş dərc olunurdu. ABŞ və İngiltərə niyə məhz indi FİFA-da baş verənləri qabartdı və həbslər həyata keçirdi? Mənə elə gəlir ki, bu daha çox siyasi oyunların təzahürüdür. Həbslərdən Rusiyaya təzyiq kimi istifadə edilir. Putin açıq şəkildə baş verənləri Blatterə təzyiq adlandırdı. Rusiya Dünya Çempionatı 2018-i qarşılamağa hazır olduğunu elan edəndə, İngiltərə də bu iddiada olmuşdu. Rusiya bu mübarizədən qalib çıxmışdı. Proses o zamandan başladı. Rusiyanı sıxışdırmağın növbəti mərhələsidir. Blatterin istefası da məhz bu amillə bağlanmalıdır. Rusiya qalib gəlsə də, ABŞ-ın korrupsiya məsələsini yenidən ortaya atması, Blatterin istefasını labüd etdi".

İdman jurnalisti proseslərin davam edəcəyini düşünür: "2018-ci ildə Rusiya və 2022-də Qətərdə keçiriləcək Dünya Çempionatının təşkilatçılığı geri alınıb, başqa ölkələrə verilə bilər. Sözsüz ki, Qətər Rusiyanın oduna yanacaq. Çünki Qərbin bu dövlətlə problemi yoxdur. Sırf Rusiyaya qarşı yönəlmiş addımdır. Çünki Rusiya Dünya Çempionatını keçirmək üçün çoxlu pullar xərcləyib və onu geri qaytarmaq istəyir. Rusiya da öz adekvat addımlarını atacaq. Bunlar dünya futboluna heç bir xeyir verməyəcək. Qarşıdurma davam edəcək, sonda uduzan futbol olacaq".

Natiq Muxtarlı onu da qeyd etdi ki, Rusiyanın bu mübarizədə məğlub olduğunu demək çox tezdir: "Rusiya məğlub olmayıb. Sadəcə ABŞ revanş aldı. Qarşıda gözlənilməz hadisələr baş verə bilər. Hətta UEFA-nın özündə də qarşıdurma ola bilər. Yeni prezidentin kimliyi, hansı ölkədən olmağı, hansı dövlətin adamı olacağı ciddi maraq doğurur. Hansı ölkənin qalib olduğunu demək tezdir. Azərbaycan tərəfi Rusiyanın təsir dairəsindən çıxa bilməyəcək. Onların diktəsini yerinə yetirəcək. Əslində 2020-ci ildəki çempionatda Bakıya salınan oyunlarda korrupsiya elementləri üzə çıxa bilər. Azərbaycan Rusiyanın təsirindən heç zaman çıxa bilməyəcək".

❑ **Cavanşir ABBASLI**

# İlan sancması zamanı nə etməli?

## Ölkənin baş toksikoloqu: "İlk tibbi yardım zərdablardan da effektli ola bilər..."

**İsti yay aylarının gəlişi ilə ölkədə ilan sancmalarının sayı artıb. Vaxtında görülməyən tədbirlər nəticəsində hətta dünyasını dəyişənlər var. Xəbər verdiyimiz kimi ötən ayın 28-də Qax rayonunda axşam saatlarında ot sahəsində işləyən 1958-ci il təvəllüdlü Gülmirə Xinqalovanı ilan sancıb. Lakin ağır vəziyyətdə Respublika Toksikologiya Mərkəzinə çatdırılan qadının həyatını qurtarmaq mümkün olmayıb.**

Klinik Tibbi Mərkəzin Toksikologiya şöbəsinin müdiri, baş toksikoloq Azər Maqsudov "Yeni Müsavat"a açıqlamasında ilan sancma hallarının ən çox Bakı ətrafı kəndlərinin payına düşdüyünü dedi: "Ən çox ilan sancmaları Bakı ətrafı kəndlərdə, xüsusən də karxanalar çoxluq təşkil edən zonalarda, aran rayonlarında, Hacıqabulda hətta Qəbələdə və Şamaxıda qeydə alınıb. Xüsusən də ən təhlükəli ilan növü olan gürzələr insanlara hücum edir. Onun zəhəri insanı bir neçə saata öldürə bilir".

Baş toksikoloq onu da bildirib ki, ötən illə müqayisədə bu il havaların sərin keçdiyindən ilan sancmaları ilə bağlı müraciətlər gec başlayıb: "Keçən ilə nəzərə salsaq görərik ki, artıq aprel ayından müraciətlər başlayıb. Bu il isə müraciətlər may ayından qeydə alınıb. Ötən ay mərkəzimizə ilan sancmasından 14 müraciət olunub, onların 12-si xəstəxanaya yerləşdirilib. İyun ayına olan qeydə görə isə 3 nəfər ilan sancmasından müraciət edib. Hazırda onların müalicəsi davam etdirilir".

Azər Maqsudov ilan sancması zamanı görüləcək ilk tibbi yardımdan da danışdı: "İstirahətlə bağlı zonalara gəzintiyə çıxanda ehtiyatlı olmaq lazımdır. Xüsusən də çay qırağı və meşələrdə ətrafı diqqətlə nəzərdən keçirin. Təhlükəli gürzə ilanı əsasən insanın ətraf orqanlarını dişləyir. Əgər belə hadisə baş verərsə, o zaman ilan dişləyən yeri sıxıb zəhəri çıxartmağa çalışmaq, daha sonra xəstəni hərəkətsiz vəziyyətdə saxlayaraq təcili yaxınlıqdakı tibbi məntəqəsinə çatdırmaq lazımdır. Məntəqədə ilan sancan adama mütləq zərdab vurulmalıdır. Deyim ki, ilan sancan insana ilk tibbi yardım göstərilməsi həkim müalicəsindən belə əhəmiyyətli ola bilər".



Baş toksikoloq ilan zəhərinə qarşı istifadə edilən zərdabların təkcə toksikoloji mərkəzdə olmasını kifayət etmədiyini deyib: "İlan sancan insan bu mərkəzdən kilometrlərlə uzaqda ola bilər, onu mərkəzə çatdıranadək iş işdən keçə ola bilər. Hər yerdə kiçik məntəqələr yaradılmalıdır ki, ilan sancmalarına qarşı vaxtında ilk tibbi yardım göstərilə bilsin.

Bütün rayon tibb məntəqələrinə zərdablar verilib. Kənd ərazilərində yerləşən məntəqələrində çalışan tibb işçiləri rayon səhiyyə mərkəzlərinə müraciət edərək zərdabların onlara da paylanmasını istəməlidirlər".

Tibb elmləri doktoru Adil Qeybullada bu məsələdə ilk tibbi yardımın xüsusi əhəmiyyətə malik olduğunu deyib:

"Təəssüflər olsun ki, vaxtında ilk yardım tədbirlərinin görülməməsi son nəticədə ölüm hallarına gətirib çıxarır.

İlan sancan zaman həmin ilanın növünü aydınlaşdırmaq lazımdır, buna uyğun hərəkət edilərsə, problem daha tez aradan qalxmış olar".

Həkim ilan sancmalarında daha çox insanların özlərinin bais olduğunu deyib: "İnsanlar çox zaman ilanla rəftarı bacarmırlar. Buna görə maarifləndirmə tədbirləri həyata keçirilməlidir ki, adamlar ilanla qarşılaşanda özlərini necə aparacaqları barədə məlumatlı ola bilsin. Zəhərli ilanları harda oldu məhv etmək doğru deyil, onsuz da ölkəmizdə zəhərli ilanların sayı azdır. Hər kəsə məlumdur ki, ilan zəhərindən yüksək keyfiyyətli, kifayət qədər bahalı dərmanlar hazırlanır. Bu səbəbdən dünyanın müxtəlif ölkələrində ilanların çox olduğu ərazilərdə çox aktiv sistem qurulub. Bu sistem vasitəsilə zəhərlərdən əlverişli istifadə edilir".

Xatırladaq ki, ötən il baş verən 121 ilan sancması zamanı biri azyaşlı olmaqla iki nəfər dünyasını dəyişib. Məlumata görə, insan ölümlərinə səbəb zərdabın vaxtına vurulmaması olub.

❑ **Xalidə GƏRAY**

YENİ MÜSAVAT
N 120 (6148) 4 iyun 2015

# "Gəncəbank"da baş verən daha bir fırıldağın təfərrüatları

## Şahin Bağırlı: "İnanıram ki, gec-tez dövlət bu qanunsuzluqlara son qoyacaq"

**"Gəncəbank" ASC-də Mərkəzi Bankın apardığı yoxlamalar orada baş verən qanunsuzluqların üzərindən sükutla keçilməsi ilə sonuclanır. Əks halda, bank rəsmilərinin əməllərindən şikayətlər bunca hədsiz olmazdı. Bu bankın qurbanlarından biri də Gəncə şəhəri, E.Qurbanov küçəsi ev 6-da yaşamış Şahin Bağırlıdır. Redaksiyamıza ünvanladığı məktubunda Ş.Bağırlı yazır ki, 2009-cu ildə biznes fəaliyyəti ilə məşğul olmaq üçün "Gəncəbank" ASC-dən kredit götürmək qərarına gəlib. Bu qərarın peşmançılığını bu gün də çəkir: "Gəncəbank" ASC-yə müraciət edib istəyimizi çatdırdıq.**




Bankın əməkdaşları mövcud biznesimizin olmamasını bildirərək pul verməkdən imtina etdilər. Sonradan anladıq ki, biz banka müraciət etdiyimiz andan böyük bir fırıldağın burulğanına düşmüşük. Sən demə, bunların əsl niyyəti heç də pul vermək deyil, bizi qurduqları planın qurbanına çevirməkdir. Belə ki, qısa müddət keçdikdən sonra Esmira Əliaga qızı Qurbanova adlı şəxs bizim mənzilə gələrək bildirdi ki, "Gəncəbank" ASC-dən kreditin alınmasında kömək edə bilər. Hətta İpoteka müqaviləsi əsasında illik dərəcəsi 7 faiz olmaqla kredit almaq imkanımızın olduğunu söylədi. İsrarla göstərdi ki, "Gəncəbank" ASC-nin rəhbəri Pərvanə Novruzova ilə çox yaxın rəfiqədir, ona görə də istədiyimiz pulu 15 gun muddətidə uzunmüddətli ipoteka şərti ilə ala bilərik. Qurbanova bu "yaxşı"lığını belə izah etdi ki, güclü iş adamıdır, bankda açıq kredit xətti mövcuddur, hər əməliyyata görə ona bank tərəfindən müəyyən faiz ödənir. Mən həmin vaxt Moskva şəhərində olduğumdan bu danışıqlar həyat yoldaşımla getmişdi və onun sadəlövhlüyündən peşəkarcasına istifadə edərək tam şəkildə inamını qazanmışdı. Sonradan həyat yoldaşım Esmira ilə birgə "Gəncəbank"ın qarşısında görüşüb banka daxil olub. Bu zaman Esmira Qurbanova bank rəhbərliyi ilə çox doğma görüşüb. Üstəlik, müqavilə qısa müddətdə tərtib olunub və yoldaşıma bankda müxtəlif sənədlərə imza atdırıb bildirdilər ki, gedin gözləyin, sizin işiniz Esmira xanıma görə həll oldu. Sonradan bildim ki, əslində Esmiranın evi bankda batdığından, onun əvəzində bizim evi girov qoyub onun mənzilini girovdan çıxarıblar.

Bizə isə Esmira bankda söylədi ki, ilk olaraq bank işçilərinə şirinlik vermək üçün hələlik 3 min manat götürür, qalan məbləğ isə qısa zamanda ödənəcək. Beləcə, bizim bu sahədə təcrübəmizin olmadığından istifadə edərək öz çirkin niyyətlərini gerçəkləşdiriblər. Bu teatrı "Gəncəbank" rəhbəri Pərvanə Novruzova elə gözəl oynadı ki!"

**Məktub müəllifi yazır ki, 4 ay sonra onlara "Gəncəbank" ASC-dən məktub gəlib və 85 min manat borclarının olduğu göstərilib:** "Biz bu xəbərdən şoka düşdük. Necə yəni bizim 85 min manat borcumuz var? Məgər biz "Gəncəbank" ASC-dən kredit aldıq ki, 85 min manat da borcumuz olsun? Doğrusu, bu xəbərdən sonra az qalırdıq kı, özümüzə qəsd edək. 21-ci əsrdə bu cür bank şərinə məruz qalasan? Və bu olay bizim doğma Azərbaycanda baş verib! Bu saxtakarlıq və dələduzluqla bağlı "Gəncəbank" ASC-yə getdik. Məlum oldu ki, pulun 3 min manatını Esmira Qurbanova götürüb və bankda qurulmuş teatrın artistlərinə - yəni bank işçilərinə şirinlik paylayıb. Görmə qabiliyyəti olmayan anamın evini banka girov qoymaqla əldə etdiyi böyük məbləğdə pulu da çıxarmaqla öz evinin kreditini bağlayıb, evini girovdan çıxarıb. Bunu bank rəhbərliyinin köməyi ilə edib. Biz əminliklə bu işin "Gəncəbank" tərəfindən təşkil edildiyi fikirində qalırıq. Axı mənim pul götürmək istəyim bank tərəfindən Esmiraya bildirilməsəydi, Esmira məni gəlib öz evimdə necə aldada bilərdi? Əgər "Gəncəbank"ın marağı yoxdursa, bu qədər saxtalığı niyə böyük həvəslə yerinə yetirib? Üzləşdiyimiz dələduzluqdan sonra Pərvanə Novruzovanın bizim kimi onlarla qurbanının olduğunu öyrəndik. Saxta kreditin ödənilməsi üçün Esmira Qurbanova ilə görüşüb bu əməl barəsində şikayətlər edəcəyimizi, özümüzə qəsd edəcəymizi dedik. Bundan sonra o, bankla danışıb 18 min manat adımıza götürdüyü kreditdən ödədi, dedi ki, uzunmüddətli cədvəl tərtib edilərək bu mübahisəyə son qoyulacaq. 18 min manat Esmira Qurbanova tərəfindən "Gəncəbank" ASC-yə ödənsə də, bunun əvəzində nəinki uzunmüddətli ödəmə cədvəli tərtib edildi, üstəlik, bizi həmin mənzildən məhkəmə vasitəsilə çıxardılar. Mənzilimizi "Gəncəbank" ASC-nin sədri Pərvanə Novruzovanın həyat yoldaşı Anarın mülkiyyətinə keçiriblər. Maqalıdır, bu çirkin fəaliyyətə hələ də hüquq-mühafizə orqanları adekvat hüquqi qiymət vermir. Yeganə təsəllim "Gəncəbank" ASC-nin qurbanının tək mən deyil, yüzlərlə vətəndaşın olmasıdır. İnanıram ki, gec-tez dövlət bu qanunsuzluqlara son qoyacaq. Bu gün mən bank dələduzluğuna görə halal mənzilimdən çıxarılaraq xəstə anamla birgə küçələrdə qalmışam. Rus millətindən olan Natalya Kərimovanın başına gətirilən müsibətlər başqa formada mənim başıma gəlib. "Gəncəbank" ASC-nin əsas fəaliyyəti vətəndaşların əmlaklarını ələ keçirərək özlərini yesir vəziyyətə gətirməkdi. Evsiz-eşiksiz faciəli durumda Moskva şəhərində min bir çətinliklə yaşayıram. Hər an bu haqsızlığın çarəsinin tapılacağını düşünürəm. Artıq susmaq fikrində deyiləm. Tezliklə Gəncəyə qayıdıb hüquqlarımın müdafiəsini vəkil Ceyhun Yusifova həvalə edəcəyəm".

**Məktub müəllifi ölkə başçısından kömək istəyir:** "Son ümid yerimiz olan cənab Prezidentə müraciət edərək xahiş edirəm ki, "Gəncəbank" ASC-nin vətəndaşların başına açdığı oyunların, Pərvanə Novruzova ilə Esmira Qurbanovanın mənim başıma gətirdikləri qanunsuzluqların araşdırılması üçün Baş Prokrorluğa göstəriş versin. Bu zaman "Gəncəbank"a yolu düşüb dələduzluqla üzləşən vətəndaşların haqlı olması tam şəkildə aydın olacaq".

❑ E.MƏMMƏDƏLİYEV

# Vətəndaş lombarddakı soyğunçuluğa üsyan etdi







**Əli hər yerdən üzülmüş, banklardan kredit alınarkən min bir sənəd tələbini yerinə yetirə bilməyən vətəndaşların üz tutduqları ünvanlardan biri də lombardlardır. Təəssüf ki, bu ünvanlarda da vətəndaşların aldadılması adi hal alıb. Lombard fəaliyyətinə lisenziya verən Maliyyə Nazirliyi isə sanki elə lisenziya verməkdən ötrü fəaliyyətdədir.**

Redaksiyamıza müraciət edən Şakir Məmməd oğlu Əliyev deyir ki, əli hər yerdən üzüldüyündən Yasamal rayonu, A.Şərifzadə 169 "a" ünvanında yerləşən lombarda üz tutub. Qızıl-zinət əşyalarını girov qoyub pul götürüb və onu aldadıblar.

"Lombardın pəncərələrində yazmışdılar ki, 3-4 faizlə pul verirlər. Əgər pulum olsaydı yəqin ki, lombarda getməzdim. Mən qızılı qoyub pulu götürdüm. Evə gələndə girov biletinə baxanda gördüm ki, məni aldadıblar. Mənə 3 faizlə yox, 18 faizlə pul veriblər" -deyə Ş.Əliyev bildirib. Onun sözlərinə görə, lombarda geri qayıdıb, ona bildiriblər ki, kimə istəyir şikayət edə bilər: "Yasamal Rayon Polis İdarəsinə müraciət etmişəm. Qoy bu məsələni araşdırsınlar. Mənim kimi hər yerdən əli üzülən insanları aldadanlar cəzalarını alsınlar".

**Ş.Əliyev bildirib ki, üzləşdiyi soyğunçuluqdan sonra qonşularından borc almaq qərarına gəlib:** "Qonşudan pul istədim, apardım lombarda. Pulu almağımdan bir neçə saat keçməyinə baxmayaraq məndən pulu 8 faizlə alıb qızılı qaytardılar. Polisdən, prokurorluqdan xahiş edirəm lombardın camaatı aldatmasının qarşısını alsın".

❑ E.HÜSEYNOV


## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

---

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

---

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**



## Elan

**Təcili sərfəli qiymətə 4 otaqlı mənzil satılır.**

**Nərimanov Məhkəməsinin həyətində, Stalin layihəli daş binada 4 otaqlı əla təmirli mənzil satılır. 4/2, ümumi sahəsi 120 kv.m, kupe şkaf, geniş, işıqlı otaqları, döşəmə mozaika parket, mətbəx və digər bütün mebellər, böyük vanna otağı, cakkuzi, sakit, təmiz həyəti, parkovka yeri var. Qiyməti 190 min manat. Bundan əlavə 2 maşınlıq daş qaraj da satışdadır. (36 kv.m. qiyməti-50.000 AZN.) Mənzilin bütün sənədləri qaydasındadır, mebelləri ilə bir yerdə satılır.**

**Tel: (051) 984-90-63**

**Qəbələdə çox mənzərəli yerdə 60 sot sahəsi olan bir bağ satılır. Bağda 75 ədəd meyvə ağacı var. Hündür dağın düz ətəyindədir. Kvadrat şəklindədir. Qazı, suyu, işığı var. Bakı-Qəbələ yolundan 800 metr məsafədədir. Qiyməti razılaşma yolu ilə. Hissə-hissə ödəniş mümkündür.**

**Əlaqə telefonu: (055) 206-14-61**

**Qəbələ rayonunda tam işlək vəziyyətdə olan parket fabriki bütün avadanlıqları ilə birlikdə satılır. Qiyməti razılaşma yolu ilə. Hissə-hissə ödəniş mümkündür.**

**Əlaqə telefonu: (055) 206-14-61**

**Təcili! Mehdiabadın gözəl mənzərəli və hündür yerində 3.5 sot torpaq sahəsi satılır.**

**Bütün sənədləri qaydasındadır. 1 sot qiyməti 7500 və 3.5 sot cəmi 26250 AZN.**

**(055) 740-25-64 ANAR**

**Binəqədi-Xırdalan şosesi yaşayış massivi, Respublika Dövlət Yol Polisinin yaxınlığında əlverişli qiymətə 4 sot torpaq sahəsi satılır. 2,5 metr hündürlükdə daş hasarın içərisində, əla yerdə. İşıq, qaz, su 15 m məsafədə yerləşir. Yenilənmiş kanalizasiya xətti, meyvə ağacları var. Yol asfalt-beton.**

**Tel: (050) 614-40-24**

**Özəl tibb müəssisəsinə 3-5 saata gündə işləmək üçün təqaüddə olan, damara iynə vura bilən tibb bacısı tələb olunur.**

**Tel: (012) 437-88-05 (13:00-dan sonra)**

**(050) 312-72-92 (13:00-dan sonra 17:00-dək)**

**Dübəndidə Baglar massivində 10 sot torpaq sahəsi. Dəniz sahilindədir ,bütün sənədləri qaydasındadar.**

**Torpaq sahibi özü satır. 055-215-00-57**


## Başsağlığı

**Etibar Seyidağa İsgəndər Həmidova əzizi**
**Tofiq bəyin**
**vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.**


## Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN

Tel: (055) 776-70-34



# "Kim işimizdən razı deyilsə, başqa kitab evi ilə işləsin"

## Nigar Köçərlidən Qan Turalıya ağır sözlər: "Real monopolistlərini o, çox yaxşı tanıyır"

**Qan Turalının "Doqquz hekayə" kitabının satışı ilə bağlı "Əli və Nino" kitab evləri şəbəkəsi ilə bağlı qalmaqal haqda yazmışdıq. Şəbəkənin rəhbəri Nigar Köçərli məsələyə dair "Yeni Müsavat"a müsahibə verib.**

***- Son günlər Qan Turalının "Doqquz hekayə" kitabının satışı ilə bağlı "Əli və Nino" kitab evinə qarşı yaranan narazılıqdan xəbəriniz var yəqin. Baxmayaraq ki, mətbuatda sizin adınızdan "bundan xəbərim yoxdur" açıqlaması yayılıb. Doğrudanmı hər şey mağazanın anbarında bu kitaba yer olmamasına görə başlandı?***

- Hər şey ondan başladı ki, Qan Turalı məndən inciyib ki, onu bizim satış şöbəmizə yönəltdim, özüm bu işlə birbaşa məşğul olmadım. Satış şöbəsi onun imza gününə razılıq versə də, Tural istədiyi sayda kitablarını götürmək istəmədi. İnanmadılar ki, kitab 10 ədəddən çox satılacaq (imza günündə satılan kitabları nəzərə almasaq). Bundan sonra keçdi hücumlara. Mən də bu barədə ümumiyyətlə danışmaqdan imtina edirdim. O halda ki, debat deyil, PR üçün yalan üzərində qurulmuş hücumdursa...

***- Problemi daha praktik yollarla həll etmək mümkün deyildimi? Çünki indiki vəziyyətdə bu durum müəllif tərəfindən onun kitablarına qarşı embarqo kimi qiymətləndirilir.***

- "Əli və Nino" 10 ildir ki, Azərbaycan oxucusuna kitab təqdim edir. Yazarlar - istər tanınmış, istər yeni imzalar üçün təqdimatlar keçiririk. Uzun illərdir ki, Azərbaycan yazarlarının kitablarını müzakirə etmək üçün BookClub layihəni təşkil etmişik. Azərbaycan ədəbiyyatına və yazarlara dəstək vermək üçün Azərbaycanın ədəbiyyat sahəsində ən böyük layihə - Milli Kitab Mükafatını təşkil etmişəm. Bölgələrdə yaşayan kitabsevərlər üçün www.alinino.az sayt və poçt vasitəsilə kitab göndəririk. Satışa götürdüyümüz kitablar üçün bağlanılan muqavilədə müddət göstərilib. Həmin müddət ərzində kitab satılmırsa, gəlib kitablarını götürməlidirlər. Əvvəllər kimsə bizə 500 ədəd kitabından verirdirsə, sonradan 5 il ərzində o kitabın heç 4-5 nüsxəsi belə satılmırdı. Qalanı qalırdı anbarda. İndi təsəvvür edin ki, söhbət 5-6 yazardan getmir. Hazırda anbarımızda 500-ə yaxın yazara aid olan 15-20 min kitab var. Heç kim gəlib götürmək istəmir. Biz də məcburuq ki, müəlliflərdən aya kitab götürək və dərhal dükanlara göndərək, anbarda saxlamayaq. Nəzərə alın ki, bütün dükanlarımız və anbarımız kirayə götürülüb.

***- "Əli və Nino" rəhbərliyi Azərbaycan dilli yazarlara qarşı ayrı-seçkilik etməkdə, onlara "ikinci sort" yazarlar kimi yanaşılmaqda ittiham olunur.***

- Son 1-2 ay ərzində ən azı 20 yerli müəllifdən kitab götürmüşük, amma qeyd etdiyim kimi, məhdud sayda. Kitab yaxşı satılırsa, deyirik ki, daha çox kitab gətirin.

***- Müsahibələrinizdən birində Azərbaycan yazıçılarının kitablarının satılmadığını demisiz. Bunu faktlar və rəqəmlərlə necə sübut edə bilərsiz? Çünki Qan Turalı kontur-arqument olaraq onun "Mustafa" romanının satışı ilə bağlı qaimələri mediaya təqdim edib.***

- Qoy başqa, "Qanun" nəşriyyatında çıxan kitabının satışını da açıqlasın. Həm də niyə unutdu ki, Milli Kitab Mükafatının 10-luğuna düşmüş "Mustafa"nın təbliğində biz "Əli və Nino" olaraq çox böyük bir rol oynadıq? "Mustafa" romanı ona görə nisbətən normal satıldı ki, onu "Qanun" nəşriyyatı buraxıb. "Qanun"un təqdimatında çıxan kitablar daha çox oxunur, bu bir faktdır. Mən bunu yalnız müasir yazarlara yox, həm də klassikaya aid edə bilərəm. Məsələn, Ordubadi, Mirzə Ələkbər Sabir, İsmayıl Şıxlı, dünya klassikləri Dostoyevski, Tolstoy, Flober, Drayzer, Remark və s. Bunların bəziləri başqa nəşriyyatlarda da çap olunur, amma "Qanun"un kitabları satılır. Çünki "Qanun" bu işi daha yaxşı bacarır və lider nəşriyyatdır. Düzdür, maliyyə vəziyyətləri ağırdır, hesabları dondurulub, amma Azərbaycan dilində çıxan kitablara münasibəti bu nəşriyyat dəyişib. Bu nəşriyyat dünya nəşriyyatları ilə eyni ritmdə çalışır. Şahbaz Xuduoğlu bütün buraxdığı kitabları oxuyur, yarmarkalarda özü dayanıb kitablar haqqında oxuculara məlumat verir. Bu fədakarlıq və peşəkarlığa görə bütün kitab dükanları "Qanun"a üstünlük verir, o cümlədən də biz.

***- Qan Turalı sizinlə bağlı anti-inhisar komissiyasına müraciət edib. Bundan başqa, azərbaycanlı yazarların bir neçəsi sizi boykot kampaniyasına başlayıblar. Bunun rəhbəri olduğunuz kitab evinə ciddi problem yaradacağını düşünmürsüz?***

- Türkiyədə "D&R" adında böyük bir kitab şəbəkəsi var, ona 145 dükan daxildir. Onların heç biri yazardan kitab *(hətta o Orxan Pamuk olsa belə)* satışa götürmür. Dünyada özünü doğrultmuş sistem var: yazıçı kitab yazır, müəllif hüquqlarını ədəbiyyat ajansına tapşırır. Ajans kitabı nəşriyyatla razılaşdırır. Nəşriyyat kitabı nəşr edir və yayım şəbəkələrinə verir. Biz də bu sistemlə işləməyə çalışırıq.

**"…. Onun bu cür çağırışları Cəlil Məmmədquluzadənin, Mirzə Ələkbər Sabirin gülüş hədəfinə çevirdiyi personajlara bənzəyir"**

Həm də Vergilər Nazirliyi iki il əvvəl VÖEN-i olmayan şəxslərlə işlədiyimizə görə bizə cərimə yazdılar. Vəziyyəti izah edəndən sonra onlar bu məsələni komissiyada müzakirə etdilər və çox sağ olsunlar, bu vəziyyətin daha təkrarlanması üçün bizə məsləhətlər verdilər. Nəzərə alın ki, biz hər yazarla müqavilə bağlayıb hər satılan kitabdan vergi ödəyirik. VÖEN-i olmayan fiziki şəxslə işləmək qanunsuzdur. Ona görə də biz hüquqi şəxslərlə işləməyə üstünlük veririk. O ki qaldı anti-inhisar komissiyasına müraciətə, belə savadsızlığa görə çox üzülürəm. Axı məncə, real monopolistləri Qan Turalı çox yaxşı tanıyır. "Əli və Nino" kitab şəbəkəsi mənə məxsusdur. İstədiyim konseptdə bu işi aparıram. Kim işimizdən razı deyilsə, başqa kitab evi ilə işləsin, biz yeganə deyilik. Onun bu cür çağırışları Cəlil Məmmədqulazadənin, Mirzə Ələkbər Sabirin gülüş hədəfinə çevirdiyi personajlara bənzəyir.

Bu boykot məsələsi ilə bağlı bunu deyim, bu çağırışı edənlər, ümumiyyətlə, kitab oxumurlar, kitab almırlar, söhbət hansı boykotdan gedə bilər? Yalnız Qismət bəzən görürəm "Əli və Nino" kitab evlərində, yaxşı zövqü var, türkçə kitablar alıb oxuyur. Digərlərini nəinki kitab alarkən, kitab oxuyarkən belə görməmişəm.

❑ **Sevinc TELMANQIZI**

# "1 dollar 1 manat ola bilər"

## Vüqar Bayramov: "Neftin qiyməti dünya bazarında 80 dollara çatarsa və bu həcmdə sabitləşərsə, Mərkəzi Bank manatı möhkəmləndirə bilər"

**"Azərbaycan Mərkəzi Bankının (AMB) valyuta ehtiyatlarının artması valyuta bazarı və manatın məzənnəsi üçün müsbət siqnal kimi qiymətləndirilə bilər. Çünki rezervlərin artması ən azı psixoloji olaraq bazara müsbət təsir edir".**


Vüqar Bayramov

Bunu ANS PRESS-ə açıqlamasında İqtisadi və Sosial İnkişaf Mərkəzinin rəhbəri, iqtisadçı-alim Vüqar Bayramov söyləyib. Mütəxəssis qeyd edir ki, bu tendensiya, xüsusən manat və xarici valyutaya tələbin formalaşması baxımından əhəmiyyət kəsb edir. "Ötən aydan başlayaraq baş bankın valyuta səbətində avronun payının artması müşahidə olunur. AMB manatın məzənnəsini dollara nisbətdə korreksiya etməyə çalışır. Avronun dünya valyuta bazarındakı dəyəri bahalaşanda manat dollara nisbətdə möhkəmlənir, əks halda isə manatda ucuzlama müşahidə olunur. Bu onu göstərir ki, Avropanın vahid valyutasının məzənnəsi manatın məzənnəsinin müəyyənləşməsinə təsir göstərir".

İqtisadçı hesab edir ki, manatın məzənnəsində əsas faktor kimi neft hələ də ön plandadır. Neftin bazar qiyməti ölkəyə daxil olan xarici valyutanın həcmini müəyyənləşdirir. "AMB çalışacaq ki, yaxın müddətdə devalvasiyaya getməsin. Çünki praktik olaraq devalvasiya bank sektoruna mənfi təsir göstərəcək. İndiki məqamda Mərkəzi Bankın hədəfi ikinci devalvasiyanın baş verməsinin qarşısını almaqdır. Hazırkı vəziyyət imkan verir ki, ölkənin baş bankına manatın məzənnəsini müəyyən etdiyi həddə saxlaya bilsin. Neftin qiyməti dünya bazarında 80 dollara çatarsa və bu həcmdə sabitləşərsə, Mərkəzi Bank manatı möhkəmləndirə bilər. Yəni 1 dolların 1 manata qədər ucuzlaşacağı güman edilir. Çünki neft qiymətinin artması nəticəsində ölkəyə daxil olan xarici valyuta kəskin artır və nəticədə təklif tələbi üstələyir. Bu ssenari tam əks istiqamətdə də baş verə nilər. Yəni neftin qiyməti 40 dollara qədər ucuzlaşarsa, o zaman manat dollara nisbətdə yumşala bilər".

V.Bayramovun sözlərinə görə, dünya bazarlarındakı hazırkı vəziyyət və neftin qiyməti ilə bağlı müşahidə edilən tendensiya imkan verir ki, Mərkəzi Bank manatın mövcud məzənnəsini qoruyub saxlaya bilsin.

# Bir qrup yazar "Əli və Nino"nu boykot etdi

## "Onlara satış üçün kitab verməyəcək, ümumiyyətlə, bu şəbəkə ilə bütün münasibətləri kəsəcəyik"

**"Əli və Nino" mağazalar şəbəkəsinin Azərbaycan ədəbiyyatına qoyduğu qadağa davam edir. Dünən bir qrup yazar bu duruma etiraz əlaməti olaraq bəyanat yayıb və mağazalar şəbəkəsini boykot edib. Bəyanatda bildirilir: "Onsuz da zəif olan kitab yayımı şəbəkəsi bu qadağa nəticəsində tamamilə iflic olmuşdur.**



Mağazalar şəbəkəsinin rəhbərləri isə ictimai etirazları nəzərə alaraq problemi həll etmək əvəzinə səhvlərində israr edir, öz monopolist maraqları naminə müasir dövr Azərbaycan ədəbiyyatının kitablar vasitəsilə oxuculara çatdırılmasının qarşısını almaq istəyir. Bu zehniyyətin fakturası Azərbaycan yazıçısına və oxucusuna kəsilir.

"Əli və Nino" mağazalar şəbəkəsinin müstəqil nəşriyyatlarla "centlmen sazişi" nəticəsində Azərbaycan yazıçıları çətin vəziyyətə düşmüşdür. Nəşriyyatlar yazıçılara heç bir qonorar ödəmir, "Əli və Nino" ilə iş birliyində olmayan nəşriyyatlarda çap edilən kitablar isə satışa çıxarılmır. Nəticədə Azərbaycan yazıçıları istismar edilir, onların kitablarından gələn gəlir nəşriyyat və mağazalar şəbəkəsi tərəfindən bölüşdürülür. Biz bu istismar sisteminə qarşı etiraz səsimizi ucaldırıq!

Biz aşağıda imza edənlər "Əli və Nino" mağazalar şəbəkəsini boykot edirik!

Adı gedən mağazalar şəbəkəsi milli ədəbiyyata layiqli yer ayırana qədər onlara satış üçün kitab verməyəcək, ümumiyyətlə, bu şəbəkə ilə bütün münasibətləri kəsəcəyik.

Bütün yazıçı və oxucuları boykota qoşulmağa çağırırıq".

**Bəyanatı aşağıdakı imza sahibləri imzalayıb.**

***Azad Qaradərəli***
***Əsəd Cahangir***
***İlqar Fəhmi***
***Çinarə Omray***
***Mübariz Məsimoğlu***
***Etimad Başkeçid***
***Kazım Səlimov***
***Qəşəm Nəcəfzadə***
***Cavid Zeynallı***
***Əsəd Qaraqaplan***
***Sahilə İbrahimova***
***Səidə Haqverdiyeva***
***Murad Köhnəqala***
***İlham Qəhrəman***
***Qismət***
***Cəlil Cavanşir***
***Şərif Ağayar***
***Mirmehdi Ağaoğlu***
***QanTuralı***
***Ağa Cəfərli***
***Zaur Xudiyev***
***Səxavət Sahil***
***Kənan Hacı***
***Elnaz Eyvaz***
***Aliyə***
***Rövşən Naziroğlu***
***Müşfiq Xan***
***Mübariz Örən***
***İkinci Mahmud***
***Ömər Xəyyam***
***Emin Piri***
***Səbuhi Məmmədli***
***Ulucay Akif***
***Mehriban Nağıyeva***
***Dilqəm Əhməd***

❑ **Hazırladı: Sevinc TELMANQIZI**

YENİ MÜSAVAT
Son səhifə
N 120 (6148) 4 iyun 2015



## Analıq intuisiyası...atalıq intuisiyasına bərabərdir

Analıq intuisiyası deyilən şey, sən demə, əfsanə imiş. Saint-Etienne Universitetinin araşdırmaçılarına görə, ağlayan bir körpənin problemini anlamaq üçün valideynin cinsiyyəti heç bir önəm daşımır. Bu məsələdə əsas məqam onun körpəsi ilə nə qədər vaxt keçirməsidir. Araşdırmanı həyata keçirən professor Nikolas Mathevon 58 ilə 153 günlük arasında 29 körpənin ağlamasını qeydə alıb. Uşaqların 15-i Fransadan, 14-ü isə Demokratik Konqo Cümhuriyyətindən idi. Uşaqların Afrika və Fransadan seçilməsinin səbəbi isə mədəniyyətlərarası fərqlərin bu durum üzərində nə dərəcədə təsirli olub-olmadığını anlamaq idi. Ailələrə uşaqların ağlama səsini dinlədəndən sonra onlardan hansı uşağın onlarınkı olduğunu müəyyənləşdirmələri tapşırılıb. Maraqlıdır ki, nəticə etibarilə qadınların 98 faizi ağlama səsindən öz uşaqlarını müəyyənləşdirə biliblər. Amma uşaqları ilə çox vaxt keçirən ataların 90 faizi də bu məsələdə uğur qazanıb. Uşaqları ilə gündə 4 saatdan az vaxt keçirən ataların 75 faizi onların səsini tanıya bildi.

# İtini tapana 650 min dollarlıq evini verəcək

İtini itirən Çin sakini onu geri qaytaracaq adama mükafat olaraq evini təklif edib. "The Daily Mirror"un yazdığına görə, Lyu soyadlı, 70 yaşlı qadın Pekində yaşayır və artıq mükafatı barədə mətbuatda elan verib. Qadının evi 650 min dollar qiymətindədir. Elanın yayılmasından qısa müddət sonra 70 yaşlı it yiyəsinə çoxlu sayda telefon zəngləri daxil olub. Zəng edənlərin əksəriyyəti ya iti tapdığını, ya da harda olduğunu deyib. Onlardan əksəriyyəti yalan danışıb, bir çoxları isə başqa iti qadına öz iti kimi təqdim etməyə çalışıb. Qadının bacısı oğlu isə bəyan edib ki, dələduzların əlindən cana doyublar və buna görə də bu formada axtarışa son qoymaq niyyətindədirlər.



# Kök polislər işdən çıxarılacaq



İngiltərə polis nazirliyi - Skotlənd-Yardın komissarı Bernard Hoqan-Hou deyib ki, Londonda artıq çəkili polislər işləməməlidir. Lenta.ru saytı "The Independent"ə istinadən xəbər verir ki, artıq çəkili polislər işdən dərhal uzaqlaşdırılacaqlar: "Ya da artıq çəkidən əziyyət çəkən polislərə vaxt verilməlidir ki, onlar formaya düşsünlər. Əks halda, onlar bu iş üçün yararlı sayılmayacaqlar".

Bundan başqa, Hoqan-Hou London polislərinin fiziki hazırlıqla bağlı testləşdirmə standartlarını da tənqid edib. Deyib ki, tələblər çox aşağı səviyyədədir. Onun sözlərinə görə, polislər qarşısında qoyulan tələblər çox aşağı səviyyədədir və o, özünün 57 yaşında asanlıqla, heç bir hazırlıq olmadan bu testlərdən keçə bilir.

## Çində qız bürcündə doğulanları işə götürmürlər



Çində bəzi şirkətlər işçilərini bürclərə görə seçir. Qız bürcü bu siyahıda ən şanssız olaraq qəbul edilir. Buna səbəb qız bürcü altında doğulan insanların "seçici, ərköyün və kompromisə getməyən" olmasıdır. Nəticədə də işçi namizədinin qız bürcü olduğu aşkarlanan kimi onun ərizəsi kənara qoyulur. Qızdan sonra ən sevilməyən digər bürc balıqlardır. Onların ardınca əqrəb bürcü gəlir. Çinin "New Republic" adlı yerli qəzeti yazıb ki, ölkədəki bir səyahət şirkəti əkizlər, tərəzi və dolça bürcü altında doğulan adamlar arasından işçi axtarır. Yenə eyni qəzetdə bir əmlak şirkəti sırf əqrəb bürcü olan işçiləri işə qəbul etməməsi ilə bağlı açıqlama verib.



## Bu qadın hər şeyi baş-ayaq görür

Bu gənc qadının elə bir xəstəliyi var ki, eşidənlər heyrət edir. Bojana Danilovic adlı qadın Serbiyanın Uzice adlı qəsəbəsində yaşayır. Daniloviçin görmə problemi tibb dünyasını şoka salıb. Gənc qadının gözləri hər normal insan kimi dünyanı düz formada beyinə ötürsə də, beyni gördüyü hər şeyi tərsinə çevirir. "Kosmik orientasiya fenomeni" adlanan bu vəziyyətlə yaşamağa çalışan gənc qadın yazıları tərsinə yazır, qəzeti tərsinə oxuyur. Hətta özünün özək kompüter ekranı və klaviaturası olan qadın cib telefonu tipli bəzi alətləri tərsinə istifadə edir. "İnsanları başları üzərində dayanırmış kimi yox, normal ayaqları üzərində görürəm. Mənə sürücülük vəsiqəsi verilmədi. Məktəbdə də problemlər yaşadım" deyən Daniloviç iş yerində özəl ekrandan istifadə edərək həyatını davam etdirir. Onun evində də özünə aid tərsinə çevrilmiş klaviatura və bir televizor var.




**QOÇ** - Gün gözlənilməz hadisələrlə, yeni tanışlıqlarla zəngindir. İnsanlarla ünsiyyətdə olmaq, baş verənləri ürəyinizə salmamaq və tez unutmaq məsləhət görülür. Əlinizə pul gəlsə, deməli, yenə gələcək.

**BUĞA** - Bu gün istənilən mistikadan uzaq qaçmalısınız - falçı və cadugərə üz tutmaqdansa, Tanrı mərhəmətinə sığının. Günorta saatlarında sənədləşdirmə problemlərini sürətlə qaydasına salın. Səfərə çıxmayın.

**ƏKİZLƏR** - Bu gün yaddaşa böyük ehtiyacınız olacaq. Ötən dövrlərdə baş verən hər bir detalı yada salıb bu günün mənfəətinə daha çox nail ola bilərsiniz. Bu gün sözə etibar etmək müqavilə bağlamaqdan məqbuldur.

**XƏRÇƏNG** - Sevdiyiniz birisinə hədiyyə almaq sizə məmnunluq gətirəcək. Nahar ərəfəsində isə pul məsələlərinə diqqətli yanaşmaq lazımdır. Siyasi prosesləri diqqətlə izləsəniz də, meydana atılmayın.

**ŞİR** - Doğruluq, düzgünlük, özünütənqid bu gün başlıca vəzifənizə çevrilməlidir. Əks təqdirdə nəzərdə tutduqlarınız gerçəklikdən uzaq düşəcək. Saat 16-18 arası perspektivli görüşləriniz mümkündür.

**QIZ** - Ulduzlar qanunlara riayət etməyi tələb edir. Kiməsə zərər yetirmək, xeyirxah planlarını pozmaq olmaz. Fəaliyyət üslubunuzdan asılı olaraq istirahətinizi təmin etməyi də unutmayın.

**TƏRƏZİ** - Qarşınızda möhtəşəm bir təqvim durur. Günün karmik mənzərəsi geniş üfüqləri fəth etməyə gücünüzün çatacağını göstərir. Bu gün yalnız böyük, qlobal işlər görmək, tarixi gedişlər etmək məsləhətdir.

**ƏQRƏB** - Bu gün tələskənlik etmək, bir neçə işlə eyni vaxtda məşğul olmaq olmaz. Əgər ədalət lazım gələn məsələlərdə hiyləgərlik etsəniz, zərbə alacaqsınız. Ruhani insanlarla görüşmək sizə səmərə verəcək.

**OXATAN** - Bəri başdan nəzərinizə çatdıraq ki, gün boyu təcrübəli və müdriklərin məsləhətini eşitmək mövcud problemlərinizin həllində mühüm rol oynayacaq. Saat 12-16 arası cüzi də olsa, hər hansı mübahisəyə getməyin.

**OĞLAQ** - Ümumən uğurlu vaxtdır. Daxili tərəddüdlərinizi bir kənara atıb konkret hərəkətə keçin. Etibarlı dostlarınızla bir araya gəlməklə mövcud problemlərinizin həlli yollarını tapa bilərsiniz. Təşəbbüskar olun.

**SUTÖKƏN** - Bu gün başladığınız işləri mütləq təntənəli sonluğa çatdırmalısınız. Heç nəyə şübhə ilə yanaşmayın, axı şübhə Şeytandan gəlir. Bu gün haqq-ədalətin müdafiəsinə qalxmaq çox yaxşıdır.

**BALIQLAR** - Mülayim iqlimi nəzərə alıb daha çox təbiətdən zövq almağa çalışın. Hər hansı ciddi və riskli işlərə girişmək yolverilməzdir. İmkan daxilində çoxdan görmədiyiniz yaxınlarınıza baş çəkin.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Bu vertolyot ətdən hazırlanacaq




Başqırdıstanın Kumertau şəhərində ət məhsullarından vertolyot hazırlayacaqlar. Bu barədə lenta.ru saytı "The Urban Room"a istinadən xəbər yayıb. Belə ki, vertolyotun ərsəyə gəlməsi üçün milli reseptlər əsasında hazırlanan delikateslərdən istifadə olunacaq. Tədbirin afişasında qeyd olunub ki, o, dünyada ətdən hazırlanan ən böyük vertolyot olacaq. Yeməli vertolyot şəhərin 68 illiyi münasibətilə hazırlanır və 6 iyunda təqdim olunacaq. Vertolyotun "Ginnesin Rekordlar Kitabı"na düşəcəyi gözlənilir və arzulayan hər kəs onun dadına baxa biləcək.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN
e-mail adres: yenimusavat@mail.ru
Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)
Redaktor: Elşad MƏMMƏDLİ
"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Lisenziya N: B 114
SAYI: 5.300